# 2013-cü il

MÜNDƏRİCAT

➢ Holland siyasətçi Xocalı soyqırımı haqda nə dedi?......3
➢ Amerikalı konqresmen Xocalı soyqırımı ilə bağlı çıxış edib......4
➢ Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar Almaniyadan və Ukraynadan ABŞ Prezidentinə və BMT-nin baş katibinə birgə müraciət göndərilmişdir......5
➢ Xocalı soyqırımı ilə bağlı petisiyaya səs verin!......6
➢ Xocalı soyqırımını dünyaya tanıdaq......7
➢ Ağ evin rəsmi saytında Xocalı faciəsinin tanınması ilə bağlı yerləşdirilən petisiyanı 100 mindən çox şəxs imzalamışdır......10
➢ ABŞ-ın qanunvericiləri Xocalı faciəsi qurbanlarının xatirəsini yad edəcəklər......11
➢ Xocalı vəhşilikləri dünya mətbuatında......12
➢ Xocalı soyqırımı bəşər tarixinin ən dəhşətli faciələrindən biridir......15
➢ Obama Xocalıda baş verənləri soyqırım adlandıracaqmı?......17
➢ Heydər Əliyev Mərkəzi Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirir......19
➢ Ukraynada Xocalı ayı......20
➢ Xocalı soyqırımı bəşəriyyətə və insanlığa qarşı cinayətdir......21
➢ Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması istiqamətində aparılan işlər artıq öz nəticələrini verir......24
➢ "Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin rolu"......27
➢ Azərbaycan-Amerika Alyansı ABŞ ictimaiyyətini Xocalı faciəsi haqqında məlumatlandırma kampaniyasına başlamışdır......31
➢ Xocalı soyqırımının beynəlxalq cinayət olması təsdiqini tapır......32
➢ Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması öz nəticələrini verir......34
➢ Dünya Xocalıya hüquqi qiymət verməlidir!......36
➢ Qarabağ həqiqətləri, Xocalı faciəsi!......38
➢ Litvada Xocalı faciəsi haqqında filmin təqdimatı keçirilmişdir......41
➢ Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar Azərbaycanın Misirdəki səfirliyində anma mərasimi keçirilmişdir......42
➢ ABŞ səfiri Riçard MORNİNQSTAR: "Xocalı faciəsi ilə bağlı Ağ Evin rəsmi saytında yerləşdirilən petisiyaya cavab verilməsi istiqamətində iş gedir"......43
➢ Xocalı soyqırımı erməni vandalizminin dəhşətli səhifəsidir......44
➢ Xocalı faciəsi xalqımızın qan yaddaşıdır......46
➢ İlham Əliyev: "Xocalı soyqırımını həyata keçirənlər layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq"......48
➢ Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzi Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirir......49

- Xocalı soyqırımından 21 il ötür....50
- Şahidlərin şahidliyi....51
- Xocalı soyqırımı: gizlinlər və həqiqətlər....54
- Xocalının məhv edilən maddi-mədəniyyət abidələri....57
- Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilmişdir....59
- Dünya Xocalı soyqırımına biganə deyil....62
- Xocalı faciəsi azərbaycanlılara qarşı soyqırımın davamı kimi....64
- Xocalı soyqırımı ilə bağlı həqiqətlər dünya arenasında....67
- Sarayevoda "Xocalıdan Srebrenitsaya: Soyqırımı və etnik təmizləmənin qarşısının alınması" mövzusunda beynəlxalq simpozium işə başlamışdır....69
- İsraildəki Azərbaycan diasporunun Xocalı soyqırımın təbliğində uğurlu fəaliyyəti....70

## Holland siyasətçi Xocalı soyqırımı haqda nə dedi?

“Avropalılar bizim səsimizi eşitmir,” “Bunlar daha çox ermənilərə tərəf saxlayırlar” və s. digər bu kimi şikayətləri vaxtaşırı eşidirik.

Bunu hər kəs deyir, hətta bu günə qədər bir əcnəbiyə belə millətimiz haqqında məlumat verməyən də. Öncələr bizlərin informasiya blokadası ola bilərdi. Bəlkə indi də xarici, yaxud da yaşadığımız ölkənin mətbuatına çıxmaq bir o qədər də asan deyil». Bu fikirləri «Həftə içi»nə açıqlamasında Niderlandda yaşayan jurnalist Vüqar Abbasov deyib. Onun sözlərinə görə, ən azından sosial şəbəkələr var: «Bizlər dostluğumuzdakı xarici millətlərə ölkəmiz barədə məlumat versək və onlardan biri buna reaksiya verərsə, yazdıqlarından həmən onun dostlarının da məlumatı olmuş olması demək olacaq. Bəlkə də çox sadə görsənə bilər. Ancaq bunlar, həqiqətən də effekt verə biləcək addımlardır. Mən şəxsi təcrübəmdə bunları görmüşəm». Onun sözlərinə görə, hələ üstəlik dostluğundakı şəxs ölkəsində tanınmış adamdırsa, bunun nəticəsi daha yaxşı ola bilər: «Bir misal. Lük Blom (Luuk Blom) 2003-2010-cu illərdə PvdA partiyasından Niderland Parlamentinin üzvü olub. “Facebook” sosial şəbəkəsində aktiv olan siyasət adamlarındandır. Ermənilərə isti münasibəti və hətta deyilənə görə Ermənistanda qız dostu belə olub. Xocalı və erməni məsələsi ilə bağlı “Facebook”da Türkiyə-Azərbaycan dostluq təşkilatının gənc üzvləri ilə mübahisəsi yaranıb. Bir xeyli davam edən diskussiyadan sonra təşkilatın başqanı İlhan Aşkın tərəfindən təşkilatın ofisinə dəvət olunur. Gözləntilərin əksinə olaraq cənab Lük dəvəti qəbul edir və nəticə də çox yaxşı olur. Cənab Lük görüşdən sonra özünün səhifəsində status yazır. Bu statusdan bəzi məqamları diqqətinizə çatdırıram: “Ötən həftə bir Azərbaycan cəmiyyətində oldum. Bu “Facebook”da “erməni problemi” ilə bağlı olan diskussiyaya görə idi. Gözlənilməz qonaqpərvərlik gördüm, ətraflı məlumat aldım. Hələ də o görüşün təsiri altındayam. Bəzən elə bilirik ki, hər şeyi bilirik. Sonradan məlum olur ki, hələ öyrənməli çox şey var. 1992-ci il 25-26 fevralda Xocalıda olanlardan, 613 nəfərin ölümündən şok hisslər keçirdim. Hadisənin iştirakçısı olan bir neçə nəfərlə söhbət etdim. Məncə Xocalı məsələsinə diqqət verilməli və beynəlxalq müzakirəyə çıxarılmalıdır...”. Daha sonra isə məlumat üçün bu linkə: www.justiceforkhojaly.org baxmağı məsləhət görüb. Onun bu statusunu dostluğunda olan 247 nəfər görmüş oldu ki, bunların da çoxu siyasət adamlarıdır. Heç bir şey etməsələr belə, ən azından sayta baxmış oldular. Buna reaksiya verənlərin dostları da öz yerində. Buna görə fürsətdən istifadə edib cənab Lükə və bütün bunları ona göstərdiyinə görə isə Azərbaycan – Türkiyə dostluq təşkilatına və şəxsən İlhan Aşkına öz adımdan təşəkkür edirəm. Bir daha deyirəm ki, buna balaca bir iş kimi baxmağı düzgün hesab etmirəm. Bizlər fəaliyyətimizi davam etdirsək, nəticə əldə edə biləcəyik. Sadəcə, iş görməyə həvəs və istək olmalıdır».

**Əli Zülfüqaroğlu**

**“Həftə içi”.-**2013.-26-28 yanvar.-№244.-S.6.

## Amerikalı konqresmen Xocalı soyqırımı ilə bağlı çıxış edib

**Konqresmen Bill Şuster: "Azərbaycanın dostu kimi, xatırlamaq istərdim ki, biz Xocalıda baş vermiş faciəni heç vaxt unutmamalıyıq"**

ABŞ Nümayəndələr Palatasının Pensilvaniyadan olan üzvü Bill Şuster Konqresin iclasında Xocalı soyqırımı ilə bağlı çıxış etmişdir. Bu il, müasir Azərbaycan tarixinin ən böyük faciəsi olan Xocalı soyqırımından 21 il ötdüyünü bildirən Bill Şuster Nümayəndələr Palatasının üzvlərinə faciə ilə bağlı ətraflı məlumat verib.

«Bu ay biz həmin fəlakətli və ürəkağrıdıcı günün 21-ci ildönümünü qeyd edəcəyik. Təəssüf ki, bu gün Xocalı soyqırımına Azərbaycanın hüdudlarından kənarda demək olar ki, heç bir diqqət yetirilmir. Bununla belə, seçkili rəsmilər kimi, bizim ən güclü cəhətlərimizdən biri az tanınan və tanıdılması zərurət doğuran həqiqətləri işıqlandırmaq imkanımızın mövcud olmasıdır. Azərbaycanın dostu kimi, həmkarlarıma xatırlatmaq istərdim ki, biz Xocalıda baş vermiş faciəni heç vaxt unutmamalıyıq. O zaman Xocalı faciəsi «Boston Globe», «Washington Post», «New York Times», «Financial Times» və bir sıra Avropa və Rusiya xəbər agentlikləri də daxil olmaqla, beynəlxalq mətbuat orqanlarında geniş şəkildə işıqlandırılıb», - deyə konqresmen bildirib.

Nümayəndələr Palatasının Pensilvaniyadan olan üzvü çıxışında həmçinin qeyd edib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən və Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Xocalı şəhəri etnik azərbaycanlıların kütləvi surətdə ən çox qətlə yetirildikləri bir yerdir: "Əhalisinin sayı təxminən 7 min nəfərdən ibarət olan Xocalı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ən iri şəhər tirli yaşayış məskənlərindən biri idi.

Konqresmen Şuster çıxışında bildirmişdir ki, «Human Rights Watch» təşkilatı və digər beynəlxalq müşahidəçilərin verdikləri məlumata görə, bu soyqırımı etnik erməni silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının köməkliyi ilə həyata keçirilib. «Human Rights Watch» təşkilatı Xocalı soyqırımını Dağlıq Qarabağ münaqişəsi zamanı indiyədək baş vermiş ən böyük soyqırımı kimi təsvir edib. 1993-cü il hesabatında bir müşahidəçi qrupu bildirib ki, «Erməni qüvvələri soyqırımından sonra ərazidə nəzarəti ələ keçirdiklərinə görə qətlə yetirilmiş Azərbaycan vətəndaşlarının sayı barədə dəqiq məlumatlar yoxdur və ümumən, 200 nəfər azərbaycanlının qətlə yetirilməsi geniş miqyasda qəbul edilsə də, əslində, 500-1 000 nəfərə yaxın insan həlak olub". Azərbaycan ABŞ-ın güclü strateji tərəfdaşı və dostu olub. Xocalı faciəsi bəşəriyyətə qarşı cinayətdir və azərbaycanlılar bu faciənin ildönümünü qeyd edərkən həmkarlarımı mənimlə birlikdə onlarla yanaşı dayanmağa çağırıram".

**"Səs".**-2013.-8 fevral.-№24.-S.10.

# Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar Almaniyadan və Ukraynadan ABŞ Prezidentinə və BMT-nin baş katibinə birgə müraciət göndərilmişdir

**Azərbaycan diasporunun Almaniyadakı Mərkəzi Şurasının rəhbəri, həmyerlimiz Tengis Sade Baron zu Romkerhall Ukraynaya səfəri çərçivəsində Kiyev şəhərində fəaliyyət göstərən Ukrayna Azərbaycanlıları Konqresinin idarə heyətinin rəhbəri Xəqani Hüseynovla, mədəniyyət departamentinin rəhbəri Qurban Abbasovla və Ukrayna diaspor təşkilatının rəhbəri Hikmət Cavadovla görüşmüşdür.**

Görüşdə Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar ABŞ Prezidenti Barak Obamaya və BMT-nin baş katibi Pan Gi Muna müraciət qəbul olunmuşdur.

Müraciətdə bildirilir ki, beynəlxalq təşkilatlar Xocalı faciəsini soyqırımı kimi tanımalı, ikili standartlara yol vermədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həllinə yönəlmiş səyləri daha da artırmalı, Ermənistan dövlətinə qarşı sanksiyalar tətbiq edilməlidir.

Qeyd edilir ki, işğalçı Ermənistan dövləti ərazi iddialarından əl çəkərək münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, azərbaycanlı əsir və girovlar azad edilməli, pozulmuş hüquqları bərpa edilməklə qaçqın və məcburi köçkünlər doğma yurdlarına qayıtmalıdırlar.

Müraciəti Ukrayna diaspor təşkilatının rəhbəri Hikmət Cavadov, Mədəniyyət Departamentinin rəhbəri Qurban Abbasov, Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzinin rəhbəri Samirə İsmayılova-Patser, Ukrayna Azərbaycanlıları Konqresinin idarə heyətinin rəhbəri Xəqani Hüseynov və Azərbaycan diasporunun Almaniyadakı Mərkəzi Şurasının rəhbəri Tengis Sade Baron zu Romkerhall imzalamışlar.

**Vüqar SEYİDOV**
AzərTAc-ın xüsusi müxbiri
Berlin

**“Xalq qəzeti”.-**2013.-9 fevral.-N 30.-S.10.

# Xocalı soyqırımı ilə bağlı petisiyaya səs verin!

**Xəbər verdiyimiz kimi, Amerikada yaşayan azərbaycanlılar Xocalı soyqırımının tanınması məqsədi ilə Ağ Evin rəsmi veb-səhifəsində petisiya yerləşdirmişlər. Ağ Evin rəsmi səhifəsində "Biz xalqıq" (We the People) bölməsində yerləşdirilmiş petisiyanın məqsədi faciənin 21-ci ildönümü ərəfəsində Xocalı soyqırımı qurbanlarını anmaq və eyni zamanda, ABŞ Prezidentinin bununla bağlı bəyanat verməsinə nail olmaqdır. Petisiyanın Ağ Evdə müzakirəyə çıxarılması üçün fevralın 25-dək ən azı 100 min imza toplanmalıdır.**

Dünya Azərbaycanlı Gənclər Birliyinin sədri Ramin Məmmədov fevralın 8-də keçirdiyi mətbuat konfransında demişdir ki, artıq 40 mindən çox insan Xocalı soyqırımının Ağ Evdə müzakirəyə çıxarılmasını dəstəkləmişdir.

R.Məmmədov bildirmişdir ki, hər şəxs yalnız bir İP ünvanından səs verə bilər. İstifadəçi bir neçə dəfə hesab yaratmağa və imza atmağa cəhd göstərdikdə həmin İP ünvanının istifadəçisinə məhdudiyyət qoyulacaqdır.

Diqqətə çatdırılmışdır ki, Ağ Evin veb-səhifəsində yerləşdirilmiş petisiyaya diqqəti artırmaq üçün 2 videoçarx hazırlanmışdır. Çarxların birində imzalanma prosedurunun səsli izahı, digərində isə Xocalı soyqırımı nəticəsində əzizlərini itirmiş qadının səssiz müraciəti yer almışdır. Bundan əlavə, fevralın 9-dan başlayaraq yeni materiallardan da istifadə olunacaqdır. Şəhərin müxtəlif yerlərində insanlara sadə dildə hazırlanmış bukletlər paylanacaq, planşetlər vasitəsilə internetə çıxışı olmayan insanların səsvermə hüququ təmin ediləcəkdir.

R.Məmmədov gənclər təşkilatlarına müraciət edərək onları petisiyaya təyin olunan vaxta qədər səs verməyə dəvət etmişdir. O, eyni zamanda demişdir ki, petisiyaya səsvermə ilə bağlı təkcə Azərbaycanda deyil, azərbaycanlılarının olduğu bir çox ölkələrdə o cümlədən Rusiya, Türkiyə, Meksika, Malayziya, İsveç, Gürcüstan, Norveç və s. ölkələrdə də təbliğat işləri aparılır.

Qeyd edək ki, Xocalı qətliamının tanınması məqsədi ilə Ağ Evin rəsmi veb-səhifəsində yerləşdirilmiş petisiyanı bu günədək 43 459 nəfər imzalamışdır. Fevralın 25-dək bu rəqəm 100 000 olmalıdır, yəni daha 56 541 imzaya ehtiyac vardır.

R.Məmmədov onu da bildirmişdir ki, Ağ Evin rəsmi veb- səhifəsində Prezident Barak Obama administrasiyasının diqqətini Dağlıq Qarabağ probleminə və Ermənistanın işğalçılıq siyasətinə yönəltmək məqsədi ilə yanvarın 23-də başqa bir petisiya da yerləşdirilmişdir. Dünya Azərbaycanlı Gənclər Birliyi bu petisiya üçün də tələb olunan sayda imza toplanmasına səylərini əsirgəməyəcəkdir.

**"Xalq qəzeti".-**2013.-9 fevral.-N 30.-S.10.

## Xocalı soyqırımını dünyaya tanıdaq

### Artıq dünya bu soyqırımını tanımaq, həqiqəti dərk etmək məcburiyyətindədir

**Cavid**

Xocalı soyqırımının 21-ci ildönümünün anım mərasimləri dünyanın əksər dövlətlərində əvvəlki illərə nisbətən daha geniş miqyas alacaq. Artıq dünya bu faciəni tanımağa meyllidir, ayrı-ayrı diplomatlar, tanınmış siyasi xadimlər ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırım cinayətini etiraf edirlər. Xatırladaq ki, ötən il Meksika və Pakistan parlamentləri Xocalı soyqırımına dair sənəd qəbul etdi, İslam Əməkdaşlığı Konfransı Təşkilatı Xocalı soyqırımını tanıdı, Texas ştatının Nümayəndələr Palatasının üzvü Mark Şeltonun hazırladığı Xocalı qətliamının 20-ci ildönümü ilə əlaqədar 12R448 saylı qətnamə layihəsi qəbul olundu. Almaniya Bundestaqının petisiya daimi komitəsi də ötən il Xocalı qətliamı ilə bağlı sənəd qəbul edib. Almaniya parlamentinin deputatları Katrin Verner və Annette Qrot da Xocalı soyqırımı ilə bağlı bəyanat yayıblar. Onlar qətliamın ağır müharibə cinayəti olaraq qiymətləndirilməsini istəyirlər.

Bundestaqın insan hüquqları komitəsinin solçular fraksiyasından olan deputatlar bildiriblər ki, «Human Rights Watch» və «Memorial» təşkilatları da Xocalı qırğınını Dağlıq Qarabağ müharibəsində ən böyük qətliam adlandırıblar. Annette Qrot söyləyib ki, cinayəti təkcə adı ilə adlandırmaq kifayət deyil: «Bundan nəticələr çıxarmaq lazımdır ki, belə hadisələr bir də baş verməsin. Qurbanlar müdafiə olunmalı və cinayətkarlar cəzalandırılmalıdırlar. O zamankı milis dəstələrinin Xocalıda xeyli sayda azərbaycanlı müsəlmanı qətlə yetirməklə fəxr etməsi insanı alçaldan həyasızlıqdır».

İsveç parlamentinin üzvü Hillevi Larsson isə Xocalı hadisələrinə siyasi qiymət verilməsinin zamanı yetişdiyini bildirib.

Pakistan İslam Respublikası Senatının Xarici Əlaqələr Komitəsi də Azərbaycanın ərazisinin 20 %-nin işğalı və ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı ilə bağlı yekdilliklə qətnamə qəbul edib. Komitə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair qətnamələrinin yerinə yetirilməsini tələb edir, beynəlxalq ictimaiyyəti və beynəlxalq təşkilatları Ermənistanı bu qərarları yerinə yetirməyə səsləməyə çağırır. Beynəlxalq ictimaiyyət bu soyqırım üçün məsuliyyət də müəyyən etməlidir.

Bu ilin ilk ayında isə ABŞ-ın Nyu Mexiko ştatının Senatı Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar qətnamə qəbul edib. Nyu Mexiko ştatının senatoru Cerald Ortis U Pino tərəfindən təqdim edilmiş qətnamə qanunvericilik orqanının yuxarı palatasında yekdiklliklə qəbul edilib.

Nyu Mexiko ştatının qəbul etdiyi sənəddə «Human Rights Watch» da daxil olmaqla beynəlxalq hüquq müdafiə təşkilatlarının Xocalıda baş verən qətlləri sənədləşdirdiyi, Birləşmiş Ştatlar və başqa ölkələrin mətbuat agentliklərinin dəhşətli hadisə ilə bağlı xəbərlər verdiyi, bir sıra ölkələrin hökumətlərinin Xocalı qətliamını pislədiyi qeyd edilir.

Sənədin surəti ABŞ Konqresi, Dövlət Departamenti və Birləşmiş Ştatların Azərbaycandakı səfirliyinə göndərilib. ABŞ-ın Massaçusets ştatının Nümayəndələr palatası da Xocalı soyqırımını tanıyıb və bununla əlaqədar olaraq, qətnamə qəbul edib.

Palatanın sədri Robert de Leo tərəfindən imzalanmış sənəddə deyilir: «Bu sənədlə bir daha hər kəsə bəyan olunur ki, Massaçusets ştatının Nümayəndələr Palatası, 18 il bundan öncə törədilmiş Xocalı qətliamı faktını tanıyır».

İslam Konfransı Təşkilatı Parlament Assambleyası da təşkilata üzv olan 51 ölkənin parlamentlərini Xocalı soyqırımını insanlığa qarşı cinayət kimi tanımağa çağıran qətnamə qəbul edib. 51 ölkənin parlamentarilərini birləşdirən İKT PA tərəfindən qəbul edilmiş qətnamədə, erməni silahlı qruplaşmaları tərəfindən Azərbaycanın Xocalı şəhərinin əhalisinə qarşı soyqırımı insanlığa qarşı cinayət kimi qəbul edilir. Üzv ölkələrin parlamentləri də bu cinayətə lazımi qiymət vermək və dövlət səviyyəsində tanımağa çağırılır.

Nyu-York ştatının qanunverici orqanının üzvü Harri Bronson «Pax Turcica» İnstitutuna ünvanladığı məktubunda bildirir ki, 1992-ci ildə törədilmiş Xocalı faciəsi müasir tarixin ən dəhşətli kütləvi qırğın faktlarından biridir.

Amerikalı siyasətçi institutun 1992-ci il Xocalı faciəsinin Amerika, eləcə də Nyu-York ştatı hakimiyyəti tərəfindən tanınması üzrə apardığı aksiyanı dəstəkləyib: «Bu, çox mühüm məsələdir. Xocalı faciəsi ən dəhşətli kütləvi qırğın və müasir dövrdə insan haqlarının tapdanması faktlarından biri kimi tarixə düşüb».

Onun sözlərinə görə, Xocalı faciəsinin soyqırım kimi tanınması üzrə qətnamə Nyu-York Assambleyasının müzakirəsinə təqdim olunacağı təqdirdə, o, sənədi dəstəkləyəcək. ABŞ-ın Texas ştatı da Ermənistan tərəfindən

Xocalıda çox ağır cinayət törədilməsi faktını tanıyıb. Bu ştatın Hümayəndələr Palatası tərəfindən qəbul edilmiş 535 nömrəli qətnamədə Azərbaycanın bu şəhərinin erməni işğalından qaçaraq yaxa qurtarmağa çalışan dinc sakinlərinin Ermənistan silahlı qüvvələri və Rusiya ordusunun hissələri tərəfindən qırğına məruz qalması pislənilir.

ABŞ Konqresinin Nümayəndələr Palatasında Azərbaycan üzrə işçi qrupunun həmsədri Dən Boren isə təəssüflənib ki, bu gün Azərbaycandan xaricdə Xocalının taleyinə kifayət qədər diqqət yetirən yoxdur. Oklahomalı konqresmen diqqətə çatdırıb ki, yüksək səviyyəli rəsmi şəxslərin səlahiyyətlərindən biri də tanınması zəruri olan həqiqətləri üzə çıxarmaqdır. Amerikalı konqresmen xatırladıb ki, vaxtında Xocalı faciəsi beynəlxlaq media tərəfindən, o cümlədən «Boston Globe», «Vaşinqton Post», «New-York Times», «Finacial Times» qəzetləri və bir çox Avropa və Rusiya xəbər agentlikləri tərəfindən geniş işıqlandırılıb. Dən Borenin sözlərinə görə, Xocalı faciəsi bəşəriyyətə qarşı cinayət idi. Mən, həmkarlarımı azərbaycanlılarla birgə bu faciəni anmağa çağırıram».

Xocalı soyqrımını tanıyan növbəti ştat isə Arkanzas ştatının Nümayədələr Palatası olub. Qurum Xocalıda baş verənlərin soyqırım kimi tanınması barədə qətnamə qəbul edib. Bu qətnamə layihəsi Jonathan Barnett və Karen Hopper tərəfindən Nümayəndələr Palatasına təqdim olunub.

Düzdür, hər il dünyanın ayrı-ayrı ölkələrində Azərbaycan diaspor təşkilatları Xocalı soyqırımının tanınması istiqamətində geniş fəaliyyət göstərirlər. Bu fəaliyyət özünü, əsasən, ayrı-ayrı tədbirlərdə, imzatoplama kampaniyalarında, fəaliyyət göstərdikləri ölkələrin parlamentlərinə, hökumətlərinə və digər dövlət qurumlarına Xocalı soyqırımının, qırğınların çatdırılmasında özünü büruzə verir. Azərbaycan diaspor təşkilatları məskunlaşdığı ölkələrdə əsasən anım tədbirləri, qəzetlər, fotostendlər, Xocalı soyqırımını özündə əks etdirən sənədli filmlər və sair vasitələrdən istifadə edərək həmin ölkələrin ictimaiyyətini və dövlət qurumlarını Xocalıda baş verən soyqırımıyla tanış edirlər, onları Xocalı soyqırımına obyektiv qiymət verməyə səsləyirlər.

Amma hələ də bu istiqamətdə istədiklərimizə tam nail ola bilməmişik. Bəs bunun üçün nə etməliyk?

**Politoloq Qabil Hüseynlinin** fikrincə, ermənilər qondarma soyqırımını tanıtmaq üçün əvvəlcə miflər yaratmağa başladılar, sonra isə bu mifləri kitablara köçürdülər. Məsələn, Ermənistanda «Erməni genosidi» deyilən qondarma soyqırımı haqqında təxminən 453 kitab çıxıb: «Bu kitablar çap olunduqdan sonra bunu dünya miqyasında yaymağa başladılar. Bunlar dünyanın təxminən 89 dilinə tərcümə edilib. Dünya ictimai rəyi bu kitabların təsiri altındadır. Daha sonra radiolar, televiziyalar, yeni texnologiyalar vasitəsilə də təbliğat-təşviqatı geniş qurdular. Biz də bu yola getməliyik. Xocalı soyqırımının bütün anatomiyası araşdırılmalı, yeni kitablar yazılmalı, hətta Sumqayıt hadisələri də bu kontekstə daxil edilməlidir. Çünki Sumqayıt hadisələri də ermənilərin və Kremlin azərbaycanlılara qarşı törətdiyi təxribatlardan biri idi və Dağlıq Qarabağ müharibəsinin başlaması üçün bir siqnal idi. Bundan əlavə, Qaradağlı kəndində törədilən soyqırım da dünyanın diqqətinə çatdırılmalıdır. Bundan əlavə, Cəmilli kəndində də genosid törədilib. Həmin kəndin əhalisinin təxminən yarısı qətlə yetirilib. Yəni Ağdamın bir qəsəbə və iki kəndində azərbaycanlılara qarşı soyqırımı törədilib. Eləcə də Kəlbəcərdən əsir düşmüş 4500-5500 insanın taleyi barəsində gerçəklər dünyaya yayılmalıdır. İndi həmin insanların aqibəti haqqında məlumatlı deyilik. Onlar ya öldürülüb, ya da başlarına başqa müsibətlər gətirilib. Beləliklə, dünyanı erməni vəhşiliyinin miqyası, mahiyyəti, onun təzahür formaları ilə bağlı məlumatlandırmalıyıq. Dünya ictimaiyyətinin bu hadisələrlə tanış olmasına imkan yaratmalıyıq. Bu sahədə həm Xarici İşlər Nazirliyinin, həm Diasporla İş üzrə Dövlət Komitəsinin, həm Elmlər Akademiyasının, həm də Azərbaycanın hər bir vətəndaşının üzərinə böyük bir vətənpərvərlik vəzifəsi düşür».

**Politoloq Vurğun Həsənli** isə deyib ki, artıq elə dövrdür ki, insanlar savaşlardan və savaşı xatırladan hər şeydən nifrət edirlər. Yəni insanlar savaşı xatırlamaq istəmirlər. Ona görə də Xocalının dünya ictimaiyyətinə çatdırılmasında müasir təbliğat vasitələri, müasir dünyanın insanları «nəyi istəyir» meyarına diqqət yetirilərək iş görülməlidir: «Məsələn, atom bombası atıldıqdan sonra yaponlar müharibəyə o qədər nifrət ediblər ki, artıq dünyada təşkil olunan bütün sülhsevər tədbirlərə ən çox dəstək verən xalq kimi tanınırlar. Amma yaponlar mitinq keçirməklə və yaxud heç kimin eşitmək istəməyəcəyi hay-küy etməklə sülhsevərlik sərgiləmirlər. Onlar müharibələrin baş verdiyi regionlara humanitar yardımlar göstərməklə özlərinin müharibədən nə qədər əziyyət çəkdiklərinin təbliğatını aparırlar. Sülhün intensivliyi ilə bağlı bütün tədbirlərə fəal dəstək verməklə mədəni şəkildə yenə öz təbliğatlarını aparırlar. Bununla da atom bombası nəticəsində Yaponiyada bir soyqırım həyata keçirildiyini dünyaya çatdırırlar. Ağıllı və məqsədyönlü təbliğatın nəticəsidir ki, dünyada Yaponiyaya atom bombasının atıldığını bilməyən yoxdur. Yəni yaponlar özlərinə xas təbliğat vasitəsi yaratmışlar və klassik üsullardan istifadə etməmişlər. Biz də müasir dünyanın şərtlərini göz önündə tutmalıyıq və ölkələrə görə təbliğat vasitələri müəyyən etməliyik. Meydanda mitinq keçirmək bəlkə də vacibdir. Xocalı soyqırımının tanıdılması üçün klassik üsullarla yanaşı Azərbaycana xas istifadə olunmamış, yeni strategiyalar yaratmalıyıq. İnkişaf etmiş ölkələrdə aparılacaq təbliğatla, İslam coğrafiyasında aparılacaq təbliğat üsulları eyni olmamalıdır. İnkişaf etmiş

ölkələr artıq müharibəyə aid heç nə görmək və duymaq istəmir. Ona görə də, o ölkələrdə əsasən mədəni-humanitar proqramlar həyata keçirilməli, İslam və Türk dünyası coğrafiyalarda isə dini-etnik vasitələr qabardılaraq daha önəmli təbliğat aparıla bilər. Qısacası bu iş ayrı-ayrı diaspora təşkilatlarına buraxılmamalıdır. Azərbaycan Yaponiyada, ABŞ-da, Böyük Britaniyada, Fransada və digər ölkələrdə xalqların nələri istədiyini müəyyən etməlidir, müəyyən edilmiş vasitələrə uyğun təbliğat vasitələri yaradılmalıdır».

**“Xalq Cəbhəsi”.-**2013.-12 fevral.-N 26.-S.6.

## Ağ evin rəsmi saytında Xocalı faciəsinin tanınması ilə bağlı yerləşdirilən petisiyanı 100 mindən çox şəxs imzalamışdır

**Ağ Evin rəsmi saytında Xocalı faciəsinin tanınması ilə bağlı yerləşdirilən petisiyada lazım olan miqdarda səs toplanmışdır.**

APA-nın məlumatına görə, artıq səslərin sayı 100 197-dir. Bundan sonra Xocalı faciəsinin tanınması ilə bağlı Ağ ev administrasiyasına rəsmi müraciət göndərilməli və ABŞ Prezidenti bu məsələ ilə bağlı fikir bildirməlidir.

Xatırladaq ki, petisiyanın son bitmə tarixi fevralın 25-dir. Bundan başqa, saytda Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğal olunması ilə bağlı petisiya da yerləşdirilmişdir və ABŞ administrasiyasının diqqətini çəkmək üçün fevralın 22-nə kimi 100 min səs toplanmalıdır.

“**Xalq qəzeti**”.-2013.-13 fevral.-N 33.-S.8.

## ABŞ-ın qanunvericiləri Xocalı faciəsi qurbanlarının xatirəsini yad edəcəklər

Bakı, 14 fevral (AzərTAc). ABŞ-ın türk icmasının (Azerbaijan-American Council, Azerbaijan Society of America, Pax Turcica) Xocalı faciəsinin tanınması ilə bağlı keçirdiyi kampaniya çərçivəsində Amerika qanunvericilərindən cavabların daxil olması davam edir.

AzərTAc xəbər verir ki, bu günlərdə demokrat-senator Riçard Blumental və konqresmen Luis Sloterdən cavab məktubları gəlmişdir.

1992-ci ildə törədilmiş Xocalı faciəsinə diqqətin cəlb edilməsinə görə təşəkkürünü bildirən senator R.Blumental bu mövzulara dair Amerika qanunvericilik aktlarının yenidən gözdən keçirilməsinə kömək edəcəyini, həmçinin Azərbaycan və erməni xalqları arasında sülhün bərpa edilməsinin bütün mümkün yollarını araşdıracağını vəd etmişdir.

Konqresmen L.Sloter də öz növbəsində, ictimaiyyətin diqqətini Xocalı faciəsinin 21-ci ildönümünə yönəltdiklərinə görə ABŞ-dakı türk diasporunun nümayəndələrinə minnətdarlığının bildirmişdir. O, bu məsələnin Konqresin Nümayəndələr Palatasında müzakirə olunacağı təqdirdə türk icmasının bununla bağlı fikirlərini nəzərə alacağını vəd edərək yazmışdır: “Bu dəhşətli hadisə Dağlıq Qarabağda müharibə dövründə etnik zorakılığın ən qanlı aktı olmuşdur”.

**AzərTAc**
**14 fevral 2013-cü il**

## Xocalı vəhşilikləri dünya mətbuatında

“Müharibə qanlı qətliama düşmüş xalqlara, sadə insanlara çoxlu əzab və faciə gətirir. Yüzlərlə və minlərlə günahsız adam hərcmərcliyin qurbanı olur və yalnız nəsillərin yaddaşı onların adlarının yaddaşlardan silinməsinə imkan vermir. Qonşular arasında qarşıdurma daha amansız olur. Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağa nəzarət uğrunda döyüşlər qəddarlıq salnaməsinin daha bir səhifəsi olmuşdur. Fevralın 26-sı Xocalı şəhidlərinin anım günüdür. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan bu şəhərinin adı çoxlarına tanışdır və Xatın, Liditse, Serebrenisa, Sonqminin taleyi ilə müqayisə olunur. 18 il əvvəl Xocalının dinc sakinləri strateji yaşayış məntəqəsini tutmağa çalışan erməni silahlı dəstələrinin mühasirəsinə düşmüşdü. Qarabağda yeganə hava limanı burada yerləşirdi, yol isə birbaşa Azərbaycanın içərilərinə aparırdı. Xocalılıların geri çəkilməsi üçün qoyulan yollarda “tələ” qurulmuşdu. Onları güllələbaran edir, yaralı uşaqları qətlə yetirir, əsir götürürdülər. Bu əsirlikdən çoxları geri qayıtmadı. 1992-ci il fevralın 26-na keçən o müdhiş gecədə alov məngənəsindən çoxları keçə bilmədi. Qətliamın nəticələri dəhşətli idi: 613 nəfər qətlə yetirilmişdir, onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qocadır. Səkkiz ailənin bütün üzvləri məhv edilmiş, 487 adam yaralanmışdır. 1275 nəfər əsir götürülmüş, onların 150-nin taleyi hələ də məlum deyildir.”

Bu sözlər Rusiyanın “Nezavisimaya qazeta” nəşrinin ötən il 26 fevral nömrəsində Yevgeni Kriştalyovun “Xocalıya ədalət” sərlövhəli məqaləsindən götürülmüşdür.

Xocalı bizim yaralı yerimizdir. Bu ermənilərin Azərbaycana qarşı törətdiyi faciələrin ən dəhşətlisi, ən ağırı, bütün türk dünyasına qarşı hazırlanan bir soyqırımdır. Xocalı Qarabağın göz yaşları və şəhid qanı hopmuş bir parçasıdır. Dağlıq Qarabağın Azərbaycan icması Xocalını və onun sakinlərini itirməklə doğma torpaqda yeganə dayağından məhrum olmuşdu. Erməni millətçilərinin bir vaxtlar bərəkətli diyarda törətdiyi etnik təmizləmə, faktiki olaraq, Dağlıq Qarabağın Azərbaycan icmasının soyqırımı, Xocalı qətliamı isə bu siyasətin ən müdhiş nöqtəsi idi. Faciənin bir çox məqamları həm də beynəlxalq müşahidəçilər - jurnalistlər və hüquq müdafiəçiləri tərəfindən sənədləşdirilmişdir. Rusiyanın tanınmış “Memorial” təşkilatı bu barədə ətraflı məlumat vermiş, şahidlərin dediklərini İnternetdə yerləşdirmişdir. 1992-ci il martın 13-də “İzvestiya” qəzetində müxbir Vadim Belıxın reportajı dərc edilmişdi. O hər bir normal insanın ruhunu lərzəyə gətirə biləcək və şəxsən şahidi olduğu faktları təsvir etmişdir.

Fransanın “Krua l’Eveneman” jurnalının 25 fevral 1992-ci il tarixli nömrəsində: Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar çoxlu sayda ölənlər barədə xəbər verirlər-deyilir.

“Sandi Tayms” qəzeti (London), 1 mart 1992-ci il: Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər.

“Faynenşl Tayms” qəzeti (London), 9 mart 1992-ci il: Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar.

“Tayms” qəzeti (London), 4 mart 1992-ci il: Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır.

“İzvestiya” (Moskva), 4 mart 1992-ci il: Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir.

“Faynenşl Tayms” qəzeti (London), 14 mart 1992-ci il: General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbiçisi Dağlıq Qarabağda qalmışdır.

“Le Mond” qəzeti (Paris), 14 mart 1992-ci il: Ağdamda olan xarici jurnalistlər, Xocalıda öldürülmüş qadın və uşaqlar arasında işgəncəyə məruz qalmış, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır.

“İzvestiya” (Moskva), 13 mart 1992-ci il: Mayor Leonid Kravets: Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü.

“Valer aktuel” jurnalı (Paris), 14 mart 1992-ci il: Bu “muxtar regionda” erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər.

R. Patrik, İngiltərənin “Fant men nyus” teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur): Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz.

Ötən il Xocalı faciəsinin 20 illiyi ilə əlaqədar olaraq ABŞ-ın “New York Times” və “Washington Post” qəzetlərinin 25 fevral tarixli nömrələrində bütöv bir səhifə Xocalı soyqırımına həsr olunmuşdur. Bu ölkənin ən çox izləyici auditoriyası olan CNN, CNBC telekanallarında da Xocalı soyqırımına həsr olunmuş reportajlar yayımlanmışdır. Bütün bu materiallarda 20 il əvvəl ermənilər tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş kütləvi cinayət barədə məlumat verilir.

Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda Prezident İlham Əliyevin də ön sıralarında getdiyi 85 mindən çox insanın iştirakı ilə keçirilmiş ümumxalq yürüşü və İstanbulun Taksim meydanındakı Xocalı anımı da dünyanın əksər nüfuzlu kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuşdur. ABŞ-ın “Washington Post”, “New York Times”, “Sun Sentinel”, “Boston Globe”, Türkiyənin “Hürriyet” qəzeti və digər nüfuzlu qəzetlər , həmçinin “Euronews”, Fransanın “France 24” və Rusiyanın “Rossiya 24” telekanalı ümumxalq yürüşü ilə bağlı materiallar hazırlamışlar.

ABŞ-ın “Associated Press”, “Reuters” agentliklərinin də saytlarında Xocalı soyqırımı, eləcə də faciənin 20 illiyi ilə bağlı keçirilən tədbirlər barədə yazılar yerləşdirilmişdir. Yazılarda bildirilirdi ki, 20 il əvvəl Xocalıda qadınlar, uşaqlar, yaşlılar da daxil olmaqla 613 nəfər dinc sakin qətlə yetirilmişdir.

Türkiyənin “CNN türk” televiziya kanalının “Əyrisi - doğrusu” proqramında da XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımından bəhs olunmuşdur.

Almaniyanın nüfuzlu “Die Welt”qəzetinin 25 fevral tarixli nömrəsində Xocalı faciəsi və bütövlükdə Dağlıq Qarabağ münaqişəsi haqqında “Püskürən vulkana bənzəyən emosiyalar” sərlövhəli məqalə dərc edilmişdir.

Rusiyanın “Argumenti nedeli” qəzetində “Xocalının 20 ili: mərhəmət qıtlığı və yaddaş siyasəti” sərlövhəli məqalə dərc olunmuşdur. Məqalədə bildirilir ki, erməni silahlı dəstələrinin Xocalıya hücum etməsi Azərbaycan tarixinin ən faciəli hadisələrindən biri olmaqla amansız hərbi cinayətdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində keçirilən tədbirlər barədə informasiyalardan həmin beynəlxalq qurumların üzvü olan ölkələrin xəbər agentliklərinin internet səhifələrində geniş istifadə olunmuşdur.

ABŞ-da yaşayan azərbaycanlılar bu ölkənin Prezident Administrasiyasının Xocalı qətliamı və onun qurbanlarını anması və müharibə cinayətlərini tanıması məqsədi ilə yanvarın 26-da Ağ Evin rəsmi internet səhifəsində petisiya yerləşdirmişdir. “Biz xalqıq”(“We the People”) bölməsində yerləşdirilmiş petisiya faciənin 21-ci ildönümü ərəfəsində Xocalı soyqırımı və onun qurbanlarının anılması və ABŞ Prezidentinin bununla bağlı bəyanat verməsi üçün imza toplanmasını nəzərdə tutur.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirmişlər ki, vətəndaşların onları narahat edən məsələlərlə bağlı administrasiyaya müraciət edə bilməsi məqsədi ilə Ağ Evin yaratdığı “Biz xalqıq” səhifəsində yerləşdirilmiş petisiyanın nəzərdən keçirilməsi üçün fevralın 25-nə qədər 100 min adamın imza atması tələb olunurdu. Xocalı soyqırımının tanınmasına dair yerləşdirilmiş petisiyaya toplanılan imzalar fevralın 12-də saat 17: 40-da 100 min imza həddini keçmişdir. Buna baxmayaraq, hələ də imza atanların sayı artmaqdadır. Bu petisiya topladığı imzaların sayına görə hazırda Ağ Evin internet səhifəsindəki 238 petisiya içərisində ikinci sıradadır.

Bildiyimiz kimi, bu il Xocalı soyqırımının 21-ci ildönümüdür. Artıq o dəhşətli qətliamdan uzun zaman keçsə də, Azərbaycan xalqı ağrılı gününü heç vaxt unutmayacaq.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə “Xocalı soyqırımının iyirmi birinci ildönümünün keçirilməsinə dair tədbirlər planı” təsdiq edilmişdir.

Tədbirlər planında Xətai rayonunda, Naftalan şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında bu dəhşətli hadisə ilə bağlı mətbuat konfranslarının, anma mərasimlərinin və s. keçirilməsi, xarici KİV və teleradio kanallarında Xocalı soyqırımına həsr olunmuş materialların yayılması nəzərdə tutulmuşdur.

Sənədə əsasən, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta təhsil ocaqlarında xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər və s. keçiriləcək, milli azadlıq uğrunda mübarizəyə həsr olunmuş sənədli və bədii filmlər nümayiş etdiriləcəkdir.

Rəsmi dövlət strukturları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların iştirakı ilə xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Naftalan, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) şəhid ailələrinə yardım göstəriləcəkdir.

İldönümü ərəfəsində internet şəbəkəsinə Xocalı soyqırımını əks etdirən məlumatlar daxil ediləcək, ölkə mətbuatında, televiziya və radiolarında, kütləvi informasiya vasitələrində bu soyqırımı ilə bağlı materiallar veriləcəkdir.

Fevralın 25-də təhsil müəssisələrində ilk dərslər bu faciəyə həsr olunacaq, ayın 26-da saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcəkdir.

**Fəxriyyə İkramqızı,**

**"İki sahil".-**2013.-15 fevral.-№29.-S.19.

## Xocalı soyqırımı bəşər tarixinin ən dəhşətli faciələrindən biridir

### Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi

Bəşər tarixinin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımı XX əsrdə erməni faşizminin mahiyyətini tam çılpaqlığı ilə ortaya qoydu. Hətta adi müharibə qanunlarına belə riayət etməyən, yaşından asılı olmayaraq əliyalın, silahsız və köməksiz insanları vəhşicəsinə qətlə yetirən o dövrün imperiya qoşunu ilə erməni silahlılarının əsl məqsədi Azərbaycan xalqını mənəvi cəhətdən sındırmaq, onun döyüş ruhunu öldürmək idi. Çünki Xocalı sadəcə bir döyüş meydanı deyildi. Xocalı bir çox məqamları özündə əks etdirirdi...

...Xocalı faciəsi XX əsrdə eyni metodla soyqırıma məruz qoyulmuş üçüncü yaşayış məskəni sayılır. Bunlardan birincisi, 1941-ci ildə alman faşizminin tamamilə yandırdığı və dinc əhalisini məhv etdiyi Belarusun Xatın kəndi, ikincisi isə ABŞ-Vyetnam müharibəsi zamanı sakinlərinin partizanlara dəstək verməsi bəhanəsi ilə böyükdən-kiçiyə qədər bütünlüklə qırıldığı Sonqmi kəndidir. Amma bu faciələr də Xocalı soyqırımı ilə müqayisə oluna bilməzlər. Çünki Xocalı soyqırımı miqyasına və böyüklüyünə görə, onların hamısından daha dəhşətlidir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Xocalı faciəsi haqqında öz fikirlərini bu cür ifadə edib: “Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu”.

### Xocalı soyqırımına aparan yol

Əslində, Xocalı soyqırımı heç də bir gecədə baş verən hadisə sayıla bilməz. O mənada ki, ermənilər bu faciəyə Dağlıq Qarabağ münaqişəsi başlanandan, bəlkə də başlamamışdan öncə hazırlıq görmüşdülər. Onlar Azərbaycanın digər ərazilərində də bu cür faciələr törətməyə çalışsalar da, bunun ən dəhşətlisini Xocalıda həyata keçirdilər. Xocalı faciəsinə aparan yolun başlanğıcı isə 1988-ci ilə, yəni, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daha aydın şəkildə meydana çıxdığı dövrə təsadüf edir. 1991-cı ilin oktyabrından tam mühasirədə saxlanan Xocalıya gedən bütün avtomobil yolları bağlanmışdı. Artıq şəhərlə gediş-gəliş yeganə nəqliyyat vasitəsi kimi helikopterlərlə həyata keçirilirdi. Belə vəziyyət şəhərə özünümüdafiə üçün silah, ərzaq və digər zəruri məhsulların çatdırılmasında ciddi problemlər yaradırdı. Həmin dövrdə Dağlıq Qarabağda erməni separatçıları da fəaliyyətini genişləndirirdi. Bunun nəticəsi olaraq, 1991-ci ilin sentyabrında “Dağlıq Qarabağ Respublikası” adlanan qondarma-separatçı rejimin yaradıldığı bildirildi. Həmin ilin noyabr ayının 26-da isə Azərbaycan Dağlıq Qarabağ Muxtar Vilayətinin statusunun ləğv olunduğunu bəyan etdi.

Xocalı isə hələ də döyüşürdü. Yeri gəlmişkən, həmin vaxt Xocalıda döyüşən insanların arasında bu şəhərdən olmayan cəmisi 16 şəxs vardı. Bu isə o demək idi ki, xocalılılar rus-erməni birləşmələrinin qarşısına yalnız öz qüvvələri ilə çıxırdılar. Dövlətdən bir kömək gəlmirdi. Xocalıya və Qarabağın düşmən hücumuna məruz qalan digər bölgələrinə o vaxtkı Azərbaycan iqtidarı tərəfindən lazımi yardımların edilməməsi və hakimiyyət uğrunda gedən savaşlar ermənilərə öz niyyətini daha asan reallaşdırmağa imkan verirdi. Məhz bunun nəticəsində 1992-ci il yanvarın 10-da ermənilər Axullu kəndini zəbt edə bildilər. Elə həmin ilin fevralında Malıbəyli və Quşçular kəndləri hücuma məruz qaldılar. Xankəndidə yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə bu kəndlər də ermənilər tərəfindən işğal olundu. Malıbəyli və Quşçular kəndlərinin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı yenə də 366-cı motoatıcı alayın əsgər və zabit heyəti, eləcə də, müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülər hesabına ermənilərin əlinə keçdi. Kənd əhalisi vəhşicəsinə qətlə yetirildi. Artıq 1992-ci il fevralın 18-də Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmişdi, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu. İndi ermənilər üçün əsas hədəf Xocalı idi.

### Azərbaycanın o zamankı hakimiyyətinin xəyanəti Xocalını düşmənlə mübarizədə köməksiz qoydu

Beləliklə, fevralın 25-də Xocalı daha dəhşətli dərəcədə artilleriya və digər hərbi texnikadan atəşə tutulmağa başladı. Bu hücum zamanı da 366-cı alayın texnikasından geniş istifadə olundu. Ümumiyyətlə, bu alay Xocalı ilə yanaşı, Azərbaycanın digər kəndlərinin də atəşə tutulmasında dəfələrlə iştirak edib. Bunun əsas səbəblərindən biri də alayın tərkibində xeyli sayda ermənininin olması idi. Yeri gəlmişkən, 366-cı alaydan Xocalıya edilən hücuma rəhbərlik edən şəxslərdən biri də Ermənistanın indiki müdafiə naziri Seyran Ohanyan idi. Məhz onun komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyon, 1 saylı batalyonun qərargah rəisi Valeriy İsayeviç Çitçyan və alayda xidmət edən 50-dən artıq erməni zabit və gizir Xocalıya hücumda iştirak edib.

Ümumiyyətlə, bu soyqırımda 613 nəfər dinc azərbaycanlı, o cümlədən, 63 uşaq, 106 qadın, 70 qoca bir neçə saatın içində milli zəmində amansızlıqla qətlə yetirilib. Erməni-rus birləşmələri 487 nəfəri ağır xəsarətlərə məruz qoyub, 1275 nəfəri isə girov götürüb.

Ermənilər qaniçənlikdə vaxtilə dünyanı lərzəyə salmış faşizmi də geridə qoyduqlarını nümayiş etdirdilər. Beynəlxalq humanitar hüquq normalarını, insan hüquqları üzrə ən müxtəlif konvensiyaları ayaq altına atan erməni hərbi birləşmələri insanları qətlə yetirmək məqsədilə ən qəddar üsullara əl atdılar. Şahidlərin təsdiqlədiyinə görə həmin gecə onlarla qadın, 2 yaşından 15 yaşınadək olan uşaqlar, ahıl qocalar güllələnib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarınları yarılıb, adamlar diri-diri torpağa basdırılıb və ya yandırılıb. Güllə yarasından ölməyənlərin başlarına sonradan güllə vurulub, meyitlər zorakılığa məruz qalıb.

**Xocalı soyqırımına siyasi-hüquqi qiymət məhz Ulu öndər Heydər Əliyev tərəfindən verildi**

Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra bir çox milli faciələrimiz kimi Xocalı soyqırımına da siyasi-hüquqi qiymətin verilməsi mümkün oldu. Ümummilli liderimizin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul etdi, sənəddə hadisənin baş vermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlandı. Eyni zamanda, Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşası mühüm vəzifələr kimi önə çəkildi. Ümummilli liderimizin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

**Xocalı soyqırımı haqqında həqiqətlər dünya miqyasında təbliğ olunur**

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi altında həyata keçirilən ardıcıl tədbirlər nəticəsində bu gün bir sıra Avropa ölkələri Xocalı soyqırımı ilə bağlı həqiqətlərlə tanış olub. Bu istiqamətdə Heydər Əliyev Fondunun xidmətləri isə ölçüsüzdür. Məhz Heydər Əliyev Fondunun rəhbəri, ölkəmizin birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə bir sıra ölkələrin paytaxtında Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir. İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət" kampaniyasının səyi nəticəsində Xocalı soyqırımının adı İsveçdə yaradılmış və virtual aləmdə geniş vüsət almış mükəmməl "Beynəlxalq Müharibə Qurbanları Memorialı" arxiv layihəsinə daxil edilib və Xocalı soyqırımının adı Srebrenitsa, Xolokost başqa yerlərdə törədilmiş soyqırımları və qətliamlarla bir sırada çəkilib.

**Pərviz Sadayoğlu**

**"Yeni Azərbaycan".-**2013.-16 fevral.-№30.-S.6.

## Obama Xocalıda baş verənləri soyqırım adlandıracaqmı?

**Akif Nağı:** «Bu kimi imzatoplama kampaniyaları əslində ABŞ-ın başqa ölkələrin diqqətini öz ətrafında cəmləşdirmək təşəbbüsüdür»
**Elman Nəsirli**: «Xocalı soyqırımı ilə bağlı 100 min səsin toplanması gələcəkdə digər ölkələrin də həmin qətliamı tanımasına rəvac verə bilər»

Artıq xəbər verildiyi kimi, Xocalı soyqırımı ilə bağlı Ağ Ev Adminstrasiyası tərəfindən bəyanatın verilməsi üçün lazımi qədər, yəni 100 min imza toplanılıb. Bu isə həmin məsələ barədə Ağ Evin rəyinin eşidiləcəyi deməkdir. Onu da qeyd edək ki, Xocalı faciəsi ilə bərabər rəsmi səhifədə Dağlıq Qarabağ münaqişəsilə bağlı da petisiya yerləşdirilib. Bu petisiyanın bitmə tarixi isə fevralın 22-dir. Son məlumatlara görə, burda 82 minə qədər səs toplanılıb. Aydındır ki, erməni vəşhilikləri və onların özgə torpağını işğal etmələri faktının dünya miqyasına çıxarılması vacibdir. Yalnız təbliğat və tanıtma you ilə əsl soyqırımın kimlər tərəfindən törədildiyi və işğalçının kim olduğunu dünya ictimaiyyətinə çatdırmaq olar. Bu mənada Xocalı soyqırımı və Dağlıq Qarabağ münaqişəsilə bağlı imza toplama kampaniyasının keçirilməsi və lazımi qədər səs toplandıqdan sonra həmin məsələlərlə bağlı Ağ Evin rəyinin eşidilməsi də söz yox ki, həmin məsələlər ətrafında əsl həqiqətlərin bir daha üzə çıxmasına yaşıl işıq yandıracaq. Amma bütün hallarda maraqlıdır, Xocalı soyqırımı və Dağlıq Qarabağ münaqişəsilə bağlı keçirilən səsvermədə lazımi qədər imzanın toplanması sonda görəsən nə vəd edir? Onun ölkəmiz üçün hansı xeyiri olacaq?

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı** inanmır ki, Xocalı soyqırımı və Qarabağ konfliktilə bağlı 100 minə qədər imza toplamağımız sonda prosesin gedişaatında hansısa ciddi dəyişiklik yaratsın: «Bu yeni bir formadır. Bu kimi addımlara rəvac verməklə Vaşinqton adminstrasiyası müəyyən məsələlərdə özünün hegemon rolunu bir daha nümayiş etdirmək istəyir. Əks mövqedə dayanan Ermənistan da Xocalı aeroportu və qondarma soyqırımın tanınması ilə bağlı imza toplama kampaniyası keçirməyə başlayıb. Bu da onunla bağlıdır ki, aprel ayı yaxınlaşdığından ermənilərin xəstə təxəyyülü yenidən oyanır. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, bu kimi imza toplama kampaniyaları əslində ABŞ-ın başqa ölkələrin diqqətini öz ətrafında cəmləşdirmək təşəbbüsüdür. Belə bir məsəl var «Bütün yollar Romaya aparır». Görünür, ABŞ-da həmin məsəldən istifadə edərək belə imzatoplama kampaniyalarının olmasına rəvac verir. Ümid edirəm ki, getdikcə digər dövlətlərin də qoşulması ilə bu kimi müraciətlərin sayı artacaq və onda Vaşinqton adminstrasiyası yorularaq ağır yükün altına girdiklərini görəcəklər. Burada müsbət hadisə odur ki, məsələyə Azərbaycan tərəfi operativ reaksiya verdi. Ermənilər prosesə öncə başlasalar da hələ ki, 100 minlik imza toplaya bilməyiblər. Azərbaycan isə bu prosesi artıq adlayıb. Bu, prosesə cəmiyyətin geniş şəkildə səfərbər olunduğunu göstərir. Hər halda Azərbaycan tərəfindən imza toplaması kampaniyası, Avropadakı diaspor təşkilatlarının müxtəlif ölkə parlamentarilərindən Qarabağla bağlı müraciətlərinə cavab almaları, müəyyən ölkə parlamentlərində Qarabağla bağlı müzakirələrin hamısı ölkəmizin Qarabağla bağlı fəaliyyətinin fəallaşdığını göstərir. Amma inanmıram ki, Barak Obama imza toplanmasına baxmayaraq məsələ barədə çıxışında hansısa fərqli bir mövqe bildirsin. Onun bəyanatla çıxış edəcəyinə inanmıram. Ola bilsin Xocalı faciəsi Konqresin müzakirəsinə çıxarılsın. Lakin müzakirə olunması da hər halda bir nəticədir. Ondan artığını isə gözləmirəm».

**Politoloq Elman Nəsirlinin** fikrincə, sözügedən imzatoplama kampaniyası və onun sonu olaraq Ağ Evin məsələ barədə rəy bildirməsi Xocalı soyqırımı və Qarabağ münaqişəsindəki əsl həqiqətlərin dünya ictimaiyyəti tərəfindən daha dolğun şəkildə məlumatlanmasına imkan verəcək: «Xocalı soyqırımı ilə bağlı 100 min səsin toplanması gələcəkdə bir çox digər ölkələrin də həmin qətliamı tanımasına rəvac verə bilər. ABŞ 2011-ci ildə bir sayt yaradıb ki, burada da Ağ Ev tərəfindən son dərəcədə mühüm hadisələrə reaksiya verməsini təmin etmək üçün konkret sayda səslərin toplanması tələb olunur. İndiki halda Xocalı soyqırımı ilə bağlı məsələyə Av Ev rəhbərliyinin münasibət bildirməsi üçün 100 mindən artıq səs toplanıb. Bundan sonra əsas məqam Ağ Evin məsələ ilə bağlı hansı mövqeni ifadə etməsidir. Burada mühüm hadisə odur ki, ilk dəfə Xocalı soyqırımına Ağ Ev və Ağ Ev rəhbərliyi səviyyəsində reaksiya verilməsi hüququ əldə olunur. Xocalı soyqırımı və münaqişə ilə bağlı olayın dünyada müəyyən reaksiya doğurması, dünya ictimaiyyətinin ondan xəbər tutması yolunda mühüm addımdır. Amma eyni zamanda, məsələyə bir qədər praqmatik yanaşmaq istərdim. Hesab edirəm ki, Ağ Evdən soyqırım ifadəsinin işlədiləcəyini gözləmək düzgün olmazdı. Prezident Barak Obama hətta yazılı şəkildə söz vermişdi ki, qondarma erməni soyqırımını tanıyacaq. Amma prezident olduqdan sonra heç bir halda belə bir bəyanat vermədi, soyqırım ifadəsini işlətmədi. Bununla belə bizim üçün vacib odur ki, Xocalı soyqırımı ilə bağlı dəhşətli hadisənin baş verdiyini Barak Obama qeyd etsin, bununla bağlı mövqe bildirsin. Bunun özü mühüm hadisə olardı. Hesab edirəm ki, həmin məsələyə mövqe bildirilməsindən sonra artıq təkcə Meksika, Kolumbiya və Pakistanda deyil, digər dövlətlərdə də Xocalı soyqırımının tanınması üçün daha çevik və əməli

addımların atılması istiqamətində imkanlar yaranmış olacaq. Ona görə də 100 min imzanın toplanması və Ağ Ev rəhbərliyinin məsələyə diqqətinin cəlb olunmasının böyük siyasi əhəmiyyəti var».

**Rüfət Sultan.**

“**Xalq Cəbhəsi**”.-2013.-16 fevral.-N 30.-S.7.

## Heydər Əliyev Mərkəzi Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirir

**Heydər Əliyev Mərkəzi (HƏM) Azərbaycan tarixi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq aləmdə daha geniş yayılması istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsinə başlamışdır.**

Heydər Əliyev Mərkəzindən AzərTAc-a bildirmişlər ki, bu məqsədlə Xocalı soyqırımının 21-ci ildönümü ərəfəsində mərkəzin təşəbbüsü ilə faciə qurbanlarının xatirəsinə həsr olunmuş bukletlər nəşr edilmişdir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri vasitəsilə yayılacaq "Xocalı soyqırımı" adlı nəşrdə ermənilərin Xocalıda azərbaycanlılara qarşı həyata keçirdikləri insanlıq əleyhinə cinayət - soyqırımı, eləcə də Dağlıq Qarabağ münaqişəsi barədə faktlar öz əksini tapmışdır.

Bununla yanaşı, Xocalı soyqırımına dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə Azərbaycanın xarici ölkələrdəki 15-dək diplomatik nümayəndəliyində fotosərgilərin təşkili nəzərdə tutulur. Bu sərgilərdə 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərinin işğalı zamanı törədilmiş soyqırımını əks etdirən fotolar, bu barədə dünya mətbuatında yayımlanmış materiallar təqdim olunacaqdır.

Heydər Əliyev Mərkəzinin təşəbbüsü ilə ölkəmizdən kənarda təşkil olunan sərgi və "dəyirmi masa"larda Ermənistan silahlı qüvvələrinin Xocalıda uşaqları, qadınları və qocaları işgəncələrlə qətlə yetirməsinə dair fotolarla yanaşı, faciəyə həsr olunan film də nümayiş etdiriləcəkdir.

**"Azərbaycan".**-2013.-19 fevral.-N 38.-S.6.

## Ukraynada Xocalı ayı

Beynəlxalq təşkilatlar dünyada baş verən zorakı və qanlı olaylara düzgün qiymət verməklə gələcək faciələrin qarşısının alınmasında ciddi siyasi iradə nümayiş etdirmiş olarlar.

Ukrayna Azərbaycanlı Gənclər Birliyinin (UAGB) mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, Kiyev şəhərində keçmiş sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 24 illiyinə həsr olunmuş mərasimdə iştirak edən Sərhədsiz Mübarizə Qardaşlığı Beynəlxalq İctimai Təşkilatının nümayəndələri belə bir çağırışla Ukrayna Azərbaycanlı Gənclər Birliyinin Ukraynada keçirdiyi Xocalı ayı kampaniyasına qoşulduqlarını bəyan etmişlər.

Tədbirdə "amalımız dünyada haqqı və ədaləti müdafiə etməkdir" deyən beynəlxalq təşkilatın rəhbəri Yevgeni Podsolyenov beynəlxalq təşkilatların indiyədək Xocalı soyqırımına hüquqi siyasi qiymət verməmələrini tarixi ədalətsizlik kimi dəyərləndirmişdir.

Y.Podsolenov demişdir ki, Xocalı faciəsindən 21 il ötməsinə baxmayaraq dünya birliyinin indiyədək bu acı həqiqətə göz yumması yolverilməzdir. Bu baxımdan təşkilatımız UAGB-nin Ukraynada elan etdiyi Xocalı ayı kampaniyasına qoşularaq bu qanlı faciənin Ukrayna ictimaiyyətinə çatdırılmasında yaxından iştirak etmək qərarına gəlmişdir.

Beynəlxalq təşkilatın nümayəndələri, həmçinin "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində BMT-nin və ATƏT-in Ukrayna nümayəndəliklərinin qarşısında keçiriləcək etiraz yürüşlərində də edəcəklərini bildirmişlər.

**"İki sahil".-**2013.-19 fevral.-№31.-S.7.

## Xocalı soyqırımı bəşəriyyətə və insanlığa qarşı cinayətdir

**Keçmişini unudanların onu yenidən yaşamaq məcburiyyətində qalması tarixin ibrət dərsidir. Azərbaycanın çağdaş tarixində də unudulması mümkün olmayan, bütövlükdə xalqın şüuruna dərin iz salaraq onu daim mübarizə və qisas ruhunda kökləyən elə faciəli hadisələr var ki, heç zaman xalqın qan yaddaşından silinməyəcəkdir. Erməni faşizminin xislətini, gerçək mahiyyətini çılpaqlığı ilə açan Xocalı soyqırımı da məhz unudulması mümkün olmayan belə dəhşətli hadisələrdəndir. 21 il öncə — 1992–ci il fevralın 25–dən 26–na keçən gecə belə amansız cinayətə rəvac vermiş ermənilər dünyanın ən əzazil, qəddar və qaniçən milləti olduqlarını, terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiq etmişlər.**

Bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlıq əleyhinə törədilmiş qəddar cinayətdir. Beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan azğınlaşmış erməni silahlı birləşmələri Xocalıda bu soyqırımı əməlini törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq və məhv etmək niyyətini güdmüşlər. Həmin gün Xocalıda miqyasına və qəddarlığına görə bəşər tarixində misli görünməmiş bir soyqırımı aktı yaşanmışdır. Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə uzun illər beynəlxalq ictimaiyyətə sülhsevər ordu kimi təqdim edilmiş keçmiş sovet ordusunun 366–cı motoatıcı alayı Xocalı şəhərini sakinləri ilə birlikdə güllələbaran edərək, insanlığa silinməz ləkə olan soyqırımı aktını törətmişlər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca, milli mənşəyinə görə qəddarcasına, dözülməz işgəncələr verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin — köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək zülm, təhqir və həqarətə məruz qoyulmuşlar. Erməni qəsbkarları azərbaycanlıları qətlə yetirmək üçün hətta faşistlərin belə istifadə etmədikləri ən qəddar, tükürpədici üsullardan istifadə etmişlər.

Xocalıda mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də məhz budur ki, həmin gün zorakılıqdan qaçıb qurtarmaq istəyən insanlar ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişlər. Xocalıdan çıxan əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və başqa silahlardan güllələbaran edilməsi faktı bunu bir daha təsdiqləyir. Bütün bunlar ermənilərin 21 il öncə Xocalı şəhərində törətdikləri qeyri–insani hərəkətlərin kökündə məhz genosid (soyqırımı) niyyətinin dayandığını aşkar surətdə üzə çıxarır. Genosid cinayəti üçün xüsusi niyyətin olması zəruri şərt sayılır və bu dəhşətli akt hökmən milli, etnik, irqi, dini qruplara qarşı yönəlməlidir. Bu hüquqi müstəvidən yanaşdıqda aydın görünür ki, erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli–dini zəmində son nəfərədək qətlə yetirmək olmuşdur. Ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırımı cinayətinə şüurlu, məqsədli şəkildə, bilərəkdən əl atmış, misli görünməmiş qətliam törətmişlər.

Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırım cinayəti kimi tövsifi üçün kifayət qədər ciddi əsaslar verir. Ümumiyyətlə, ilk dəfə olaraq Nürnberq Hərbi Tribunalının nizamnaməsində beynəlxalq cinayətlərin nədən ibarət olduğu göstərilmişdir. Orada soyqırım cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid edilmişdir. BMT–nin "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında 1948–ci il tarixli Konvensiyasında isə soyqırımı cinayətinin mahiyyəti tam olaraq əksini tapmışdır. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla ən ağır beynəlxalq cinayət sayılır. Soyqırımı hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi bir qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş bu cinayət hərəkətlərinə deyilir: birincisi, həmin qrupun üzvlərinin öldürülməsi; ikincisi, onların şikəst edilməsi, bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; üçüncüsü, hər hansı qrupa onun qəsdən tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması; dördüncüsü, həmin qrupda doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi; beşincisi, azyaşlı uşaqların bir insan qrupundan alınıb başqasına verilməsi. Bunlardan hansısa biri hadisənin soyqırım kimi qiymətləndirilməsi üçün kifayət edir. Bu kriteriyalar baxımından, Xocalı faciəsi soyqırımı cinayəti kimi qiymətləndirilməlidir.

Soyqırımı — beynəlxalq hüququn qəbul edilmiş ümumi pirinsip və normalarının, habelə insan hüquq və azadlıqlarının kobud sürətdə pozulmasıdır. Soyqırımının əsas ictimai təhlükəliliyi ondan ibarətdir ki, bu cinayətin törədilməsi nəticəsində ayrıca mədəniyyəti, adətləri, ənənələri, bir sözlə, yaşam tərzi olan milli, etnik, irqi, və ya dini qrup tamamilə və ya qismən öz mövcudluğunu itirə bilər. Bu isə insanlar birliyinin müxtəlifliyinin itirilməsinə, beynəlxalq nizamlama qanunauyğunluqlarının əsaslarının sarsılmasına gətirib çıxara bilər. BMT Baş Məclisinin 10 dekabr 1948–ci ildə qəbul etdiyi "Ümumdünya insan hüquqları" Bəyannaməsində qeyd olunur: "Hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır, heç kəs insan ləyaqətini alçaldan qeyri–insani cəza və işgəncələrə məruz qala bilməz. Hər bir insan onun harada

olmasından asılı olmayaraq hüquq sübyekti hesab olunur və bütün insanlar qanun qarşısında bərabərdir və qanunlarla eyni dərəcədə müdafiə olunurlar".

XX əsrin ən dəhşətli hadisələrindən olan Xocalı soyqırımının məhz azərbaycanlı milli qrupuna qarşı yönəldiyi inkarolunmaz faktdır və bu da ermənilərin qeyri–insani davranışlarının genosid (soyqırımı) kimi töfsifi üçün ciddi hüquqi əsaslar verir. BMT Baş Məclisinin 9 dekabr 1948–ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və 1961–ci ildə qüvvəyə minmiş "Genosid cinayətinin qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında" Konvensiyada insanlığa qarşı yönəlmiş bu qeyri–humanist aktın hüquqi əsasları təsbit olunmuşdur.

Ermənistanın müharibə zamanı davranış normalarını müəyyənləşdirən beynəlxalq hüquq normalarına məhəl qoymaması ilə bağlı faktlar yalnız bununla məhdudlaşmır. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hörmətlə davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3–cü maddəsinə əsasən, mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranış, onlara əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Konvensiyasının 33–cü maddəsində isə qeyd olunur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya salmaq, onlara qarşı terror hərəkətləri, onların repressiyaya məruz qoyulması birmənalı qadağan edilir. Həmin Konvensiyasının 34–cü maddəsinə görə mülki əhalinin girov götürülməsi də qadağandır. Lakin təkcə Xocalıda 1000–dən artıq insanı girov götürən ermənilər bu prinsipə də aşkar sayğısızlıq nümayiş etdirmişlər. Ermənistan silahlı qüvvələri bu hüquq normalarına məhəl qoymamış, Xocalıda dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atmışlar.

Bununla belə, faciənin törədilməsinə görə siyasi və mənəvi məsuliyyətin həm də o zaman ölkəyə rəhbərlik edən qətiyyətsiz hakimiyyətin üzərinə düşdüyünü açıq demək lazımdır. Reallıq budur ki, o zamankı qətiyyətsiz hakimiyyət mühasirəyə alınmış Xocalı şəhərinin mülki əhalisinin xilası naminə heç bir qətiyyətli və cəsarətli addım atmamış, əksinə, etinasızlığı və məsuliyyətsizliyi ilə düşmənin törətdiyi qanlı cinayətin hüdudlarının daha da genişlənməsinə şərait yaratmışdır. O zaman yayılmış rəsmi məlumatlarda Xocalıda guya"iki nəfərin öldüyü" iddia edilmiş, soyqırımı faktı gizlədilməklə, əslində xalqa xəyanət yolu tutulmuşdur. Faciənin beynəlxalq ictimaiyyət tərəfindən hələ də layiqli qiymətini almaması da məhz vaxtında lazımi tədbirlərin görülməməsi, eləcə də təbliğatın düzgün qurulmaması ilə bağlı olmuşdur.

Ulu öndər Heydər Əliyevin 1993–cü ilin iyununda xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonra bir çox milli faciələrimiz kimi Xocalı soyqırımına da siyasi–hüquqi qiymətin verilməsi mümkün olmuşdur. 1996–cı il fevralın 24–də xocalılılarla görüşən ulu öndər Heydər Əliyev Xocalı faciəsinin xalqımızın qəhrəmanlıq tarixində xüsusi yeri olduğunu vurğulamışdır. Ümummilli liderin təşəbbüsü ilə Milli Məclis 1994–cü il fevralın 24–də "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul etmiş, sənəddə hadisənin baş vermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlanmışdır. Ümummilli liderin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997–ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26–sı saat 17:00–da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Ümumiyyətlə, Azərbaycan hökuməti Xocalı faciəsini soyqırımı kimi dəyərləndirərkən 9 dekabr 1948–ci ildə BMT Baş Assambleyası tərəfindən 260 A saylı qətnamə ilə qəbul edilən Soyqırımın qarşısının alınması və ona görə cəza haqqında Konvensiyanı, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının IV maddəsini, Ruanda üzrə Beynəlxalq Tribunalın Nizamnaməsinin I maddəsini, Beynəlxalq Cinayət Məhkəməsinin statusunu, həmçinin "Xocalı soyqırımı günü haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994–cü il tarixli qərarını, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998–ci il tarixli fərmanını və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103–cü maddəsini əldə əsas tutur. Xocalı soyqrımı ilə bağlı Baş Prokurorluqda Cinayət Məcəlləsinin 103–cü (soyqırım) və əhalini deportasiya etmə və ya məcburi köçürmə (107) maddələri ilə cinayət işi açılmışdır və istintaq aparılır. İstintaq zamanı ümumən 280–ə yaxın erməni və rus millətindən olan şəxsin təqsirləndirilən şəxs qismində cəlb olunması barədə qərarlar çıxarılmış, barələrində həbs–qətimkan tədbiri seçilmiş və axtarışları ilə əlaqədar müvafiq sənədlər İnterpolun Azərbaycan Milli Bürosuna göndərilmişdir.

Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün hökumət səviyyəsində müəyyən tədbirlər həyata keçirilir. Eyni zamanda, Milli Məclisin dünya parlamentlərinə müraciətində soyqırımı aktının real mahiyyəti, onun soyqırımı kimi tanıdılmasını şərtləndirən amillər konkret faktlar əsasında əksini tapır. Bu baxımdan Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO–nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqrımı haqda faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir.

"Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin əl işlərinin, fotoşəkillərinin dünyanın qabaqcıl ölkələrində keçirilən sərgiləri XX əsrin ən böyük faciəsi haqqında beynəlxalq ictimaiyyətdə dolğun təsəvvürlər formalaşdırmışdır. 2007–ci il fevralın 26–da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Brüssel şəhərində təşkil olunan "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi də bu baxımdan mühüm əhəmiyyət daşımışdır. Fondun Moskva nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın İslam Konfransı Təşkilatının Gənclər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "Xocalıya ədalət!" kampaniyasına start verməsi də bəşər tarixində ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır.

Ayrı–ayrı ictimai qurumların bu sahədəki fəallığı da təqdirəlayiqdir. Bu baxımdan ABŞ Azərbaycanlıların Şəbəkəsinin ABŞ Prezidenti administrasiyası tərəfindən ermənilərin Xocalıda törətdiyi hərbi cinayətlərin tanınması üçün başladığı petisiyanın qısa müddətdə on minlərlə səs toplaması son dərəcə sevindiricidir. Əgər 30 gün ərzində sözügedən aksiyanı 100 min nəfər imzalayarsa, ABŞ Prezidenti Barak Obama Xocalıda baş verən faciəli hadisələrlə bağlı bəyanatla çıxış edə bilər. Bu isə adıçəkilən cinayətin törədilməsində bilavasitə iştirak edən Serj Sarkisyana və erməni diplomatiyasına misli görünməmiş zərbə deməkdir.

Erməni millətçiləri xaricdəki erməni diasporunun və böyük dövlətlərdəki erməni lobbisinin imkanlarından istifadə edərək, "əzabkeş, məzlum erməni milləti" obrazı yaratmaqda davam edir, azərbaycanlılara və türklərə qarşı törətdikləri soyqırımlar haqqında həqiqətləri gizlətməyə, dünya ictimaiyyətini Azərbaycan torpaqlarının işğalı faktı ilə barışmağa çalışırlar. Lakin unutmasınlar ki, onların dəhşətli əməlləri bəşəriyyətə qarşı cinayət kimi hüquqi–siyasi qiymətini alacaqdır. Dünya dövlətləri bu məsələdə erməni təbliğatı nəticəsində formalaşmış stereotiplərdən imtina etməli, "əzabkeş millətin" saxta göz yaşlarına uymamalıdır.

**Abbas RZAYEV,**
Binəqədi Rayon Məhkəməsinin
hakimi.
**"Respublika".-**2013.-19 fevral.-N 38.-S.4.

## Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması istiqamətində aparılan işlər artıq öz nəticələrini verir

### Bu qətliam Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri ermənilərin Xocalıda törətdikləri soyqırımı oldu. Söz yox ki, buna qədər Ermənistan silahlı qüvvələri və terror təşkilatları tərəfindən soydaşlarımıza qarşı misli görünməmiş vəhşiliklər törədilmişdi. Ancaq Xocalı qətliamı XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilir. Bu faciə tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Sonqmi faciələri ilə eyni səviyyədə durur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə ermənilər tərəfindən azərbaycanlılara qarşı mütəmadi olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bu qətliamın törədilməsi ilə erməni şovinistləri və ideoloqları uzağagedən məqsəd güdürdülər. Qəddar və qaniçən xalq kimi tanınan ermənilərin bu dəhşətli faciəni törətməkdə əsas məqsədləri Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz çirkin niyyətinə çata bilmədi. Çünki xocalılar hətta amansız soyqırımı günündə də özlərini əsl qəhrəman kimi aparmış, azərbaycanlılara xas olan mərdlik və dözümlülük nümayiş etdirərək erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuşlar.

Xocalı qətliamı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı törədilmiş soyqırımıdır. Cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar, şikəstlərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuşdur. 200 nəfərin ayaqları soyuqdan donmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdırlar. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, körpə uşaqların gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə yarılmışdır. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir.

Ermənilərin törətdikləri bu qanlı hadisədən 21 il ötsə də, hələ də bu faciənin dəhşətləri unudulmur. Dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər. Artıq ABŞ-ın bir neçə ştatında ermənilərin törətdikləri faciə müzakirə olunmuş və Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul olunmuşdur. Bununla əlaqədar bir sıra faktları diqqətə çatdırmaq istərdik.

2010-cu il fevralın 25-də Amerikanın Massaçusets ştatının Nümayəndələr Palatası Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul etmişdir. 2011-ci ildə isə Amerikanın Texas ştatı Ermənistan tərəfindən Xocalıda çox ağır cinayət törədilməsi faktını tanımışdır. Bu ştatın Nümayəndələr Palatası tərəfindən qəbul edilmiş 535 nömrəli qətnamədə Azərbaycanın bu şəhərinin erməni işğalından qaçaraq yaxa qurtarmağa çalışan dinc sakinlərinin Ermənistan silahlı qüvvələri və Rusiya ordusunun hissələri tərəfindən qırğına məruz qalması pislənilir. Qətnamədə qeyd edilir ki, “Human Rights Watch” təşkilatı bu aksiyanı hərbi əməliyyatlar zonasında dinc sakinlərə münasibət haqqında konvensiyanın pozulma cinayəti kimi tanıyıb. Həmin ilin martında Amerika Birləşmiş Ştatlarının Şimali Karolina ştatından (əyalətindən) olan konqresmen Syu Vilkins Mirik ABŞ Konqresində Azərbaycanda törədilmiş Xocalı faciəsinin tanınması məsələsini qaldırmışdır. ABŞ-ın Kaliforniya ştatında da Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan qətnamə və proklamasiyalar qəbul etməsi Ermənistanın işğalçı dövlət kimi tanınmasndan xəbər verir.

Xocalı soyqırımının 20-ci ilində ABŞ-ın Nyu-Cersi ştatının qubernatoru Kris Kristi və və vitse-qubernator, leytenant Kim Qadaqno Nyu-Cersi ştatının Xocalı qətliamı qurbanlarına ehtiramlarını ifadə edərək birgə bəyanat yaymışlar. Bəyanatda qeyd olunur: “Nyu-Cersi ştatı adından, biz ABŞ-Azərbaycanlıları Şəbəkəsi erməni və rus əsgərləri tərəfindən Dağlıq Qarabağ müharibəsinin dəhşətli faciəsindən qaçmağa cəhd edərkən yüzlərlə etnik azərbaycanlının qətlə yetirildiyi Xocalı qətliamının 20-ci ildönümünü yad edən hər kəslə həmrəy olduğumuzu bildiririk”

2012-ci ilin martında Amerika Birləşmiş Ştatlarının Mein ştatının Nümayəndələr Palatası Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar qətnamə qəbul etmişdir. Sənədin qəbul edilməsinin təşəbbüskarları ştatın Nümayəndələr Palatasının üzvü Enn Haskell və Mein ştatından senator Castin Alfond olub. Qətnamədə

qeyd olunmuşdur ki, “26 fevral 1992-ci ildə erməni silahlı qüvvələri 366-cı motoatıcı alayın köməkliyi ilə soyqırımı həyata keçirərək yüzlərlə günahsız insanı məhv etmiş və Azərbaycanın Xocalı şəhəri işğal olunmuşdur. Soyqırım nəticəsində 613 nəfər öldürülmüş, 487 nəfər yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Onlardan çoxunun taleyi hələ də məlum deyil. 366-cı motoatıcı alay Xankəndindən çıxarıldıqdan sonra alaya məxsus hərbi texnikanın böyük hissəsi erməni separatçılarının ixtiyarına verilmişdir”.

Bu il yanvarın 31- də ABŞ-ın daha bir ştatında Xocalı soyqırımı tanındı. Nyu-Meksiko ştatının Senatı Xocalı faciəsini tanıması barədə bəyanat yayıb. Azərbaycan əhalisinin kütləvi qətlini təsdiq edən qətnamə Demokrat Partiyasından olan senator Herald Ortis-i-Pino tərəfindən baxılmaq üçün ştatın parlamentinin yuxarı palatasına, təqdim edilib. Sənəddə Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsindən, 1992-ci il fevralın 25-26-da Xocalı şəhərinin işğalı zamanı erməni silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi qırğından, söhbət açılır. Qətnamənin müəllifi yazır: “...Qırğından sonra Xocalıda tapılmış bir çox insanların meyitləri eybəcər hala salınmış və təhqir olunmuşdu. Bu hadisə müharibənin vəhşicəsinə törədilmiş ən dəhşətli qırğını idi”. Sənəddə, həmçinin qeyd edilir ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalını pisləyən qətnamələr qəbul etdiyinə baxmayaraq, Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ona bitişik olan 7 rayon Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Nyu-Meksiko ştatı Senatının Xocalı qırğınının təsdiqinə dair qətnaməsi 35 senator tərəfindən yekdilliklə qəbul olunub. Qeyd edək ki, Xocalı soyqırımı digər ölkələr tərəfindən də tanınıb. Meksika Senatının 2012-ci il fevralın 2-də qəbul etdiyi qərarda Dağlıq Qarabağın Xocalı şəhərində 1992-ci il fevralın 25-26-da baş vermiş faciə soyqırımı adlandırılıb.

2012-ci ildə Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş soyqırımını pisləyən qətnamə qəbul edib.

2012-ci il aprelin 24-də Kolumbiya parlamenti 102 deputatın lehinə səsverməsi nəticəsində Xocalı soyqırımını rəsmən tanımışdır.

Azərbaycanın yeritdiyi məntiqli xarici siyasət nəticəsində artıq dünya birliyi Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdikləri soyqırımı barəsində tam məlumatlıdır. Bu işdə dövlətimizin başçısının gərgin fəaliyyəti ilə yanaşı Heydər Əliyev Fondunun, xüsusulə fondun prezidenti Mehriban xanım Əliyevanın da əməyi qeyd olunmalıdır. Xocalı soyqırımının dünyaya çatdırılması ilə əlaqədar Heydər Əliyev Fondu xüsusi layihələr həyata keçirmişdir.Bu layihələr çərçivəsində Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdiyi qırğınla bağlı Rusiya, Türkiyə, Fransa, Macarıstan, Rumıniya, Belçika, Avstriya, Almaniya, Çexiya, İsveçrə və Gürcüstanda silsilə tədbirlər keçirilmiş, Avropa Parlamentinin binasında anım mərasimi təşkil olunmuşdur.

Xarici ölkələrdə keçirilən anma mərasimləri Heydər Əliyev Fondunun ingilis, rus və türk dillərində hazırladığı “Xocalı soyqırımı” filminin nümayişi ilə başlanıb. Mərasimlərə dəvət olunanlar erməni şovinistlərinin Xocalıda törətdiyi vəhşilikləri əks etdirən fotoşəkillərlə və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallarla tanış olublar.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın da Xocalı soyqırımının beynəlxalq aləmdə tanınmasında böyük rolu olmuşdur. 2009-cu ildə L.Əliyevanın təşəbbüsü ilə başlanmış “Xocalıya ədalət” beynəlxalq kampaniyası – Xocalı soyqırımı haqqında həqiqətin dünyaya çatdırılması, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəaliyyət istiqamətlərindən biridir.

Dünyanın əksər ölkələrində keçirilən bu kampaniyaya həmin ölkələrin gəncləri də qoşulmuşlar. Son vaxtlar Amsterdam, Brüssel, Vyana, Vilnüs, Mexiko, Paris, Moskva və Los Ancelesdə də bu istiqamətdə tədbirlər keçirilmişdir.

Xocalı faciəsinin 19-cu və Soyqırım cinayətlərinin qarşısının alınması və cəzalandırılması konvensiyasının 60 illiyi ilə əlaqədar olaraq həm onlayn, həm də kütləvi aksiyalarda Xocalı həqiqətləri haqqında geniş məlumat verilmiş, dünyanın 30-a yaxın universitetində keçirilmiş “flash-move” aksiyasında isə azərbaycanlı tələbələrlə yanaşı əcnəbilər də iştirak etmiş, bu soyqırımını əks etdirən bukletlər paylanmışdır.

Xocalı soyqırımını törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq, işğal faktı ilə barışmasına nail olmaq idi. Lakin düşmən öz məkrli niyyətlərinə çata bilmədi. Faciənin baş vermə səbəblərindən danışarkən o zaman Azərbaycana rəhbərlik edən şəxslərin və rəhbərliyə iddialı olan qüvvələrin siyasi və mənəvi məsuliyyətini ayrıca qeyd etmək lazımdır. Vətəndaşların asayişini və təhlükəsizliyini qorumaq Azərbaycan hökümətinin ən başlıca vəzifəsi idi. Lakin dövlət orqanları gözləmə mövqeyində dayanaraq şəhərin müdafiəsini təşkil etmək üçün heç bir əməli tədbir görməmiş və əhalini taleyin ümidinə buraxmışdılar. Uzun müddət mühasirə şəraitində qalan, ən müasir silahlarla silahlanmış düşmənlə mərdliklə vuruşan şəhərin müdafiəçilərinə heç bir kömək göstərilməmişdir. Respublikanın rəhbərliyi baş vermiş ağır cinayət və soyqırımı aktı haqqında dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə məlumat vermək, həqiqəti çatdırmaq əvəzinə, real vəziyyəti gizlətmiş və xalqın taleyinə biganəlik

nümayiş etdirmişdir. Sonradan da Xocalı soyqırımının mahiyyətini açmaq, onun təşkilatçılarını və iştirakçılarını ifşa etmək üçün heç bir iş görülməmişdir. Xalqımızın faciəsi, yüzlərlə insanın məhv olmuş həyatı o zamankı hakimiyyət və müxalifət tərəfindən yalnız siyasi mübarizədə qarşılıqlı ittihamlar üçün vasitə rolunu oynamışdır. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu faciənin siyasi - hüquqi qiymət alması istiqamətində qətiyyətli addımlar atılmışdır.

1994-cü ildən başlayaraq Azərbaycan hökuməti və parlamenti Xocalı soyqırımı və bütövlükdə erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətləri olduğu kimi bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlaqmentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq xətti yeritmişdir. Bu siyasi xətt Xocalı qətliamının beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına yönəlmişdir.

Xocalı faciəsinin dünya birliyndə soyqırımı kimi tanınması istiqamətində aparılan işlər artıq öz nəticələrini verməkdədir. Dünyanın əksər dövlətləri, həmçinin mötəbər beynəlxalq təşkilatlar bu qətliamın Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biri olduğunu təsdiqləyirlər. Azərbaycan Prezidenti İlham Əliyev demişdir: “Xocalı soyqırımı barbarlıq aktı və faşizm təcəssümüdür. Bu, XX əsrin sonunda baş verən ən böyük faciədir”.

Xocalı faciəsinin 20-ci ildönümü ilə əlaqədar 2012-ci il fevralın 26-da Bakıda Prezident İlham Əliyevin də ön sırasında olduğu ümumxalq yürüşü keçirilmişdir. Paytaxtın Azadlıq meydanından başlayan, 60 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı.

Bu izdihamlı yürüşün keçdiyi prospekt və küçələr boyu əllərində qanlı qırğının günahsız qurbanlarının — xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 20 il bundan əvvəl baş vermiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq çağırışları, bu soyqırıma beynəlxalq səviyyədə obyektiv siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadları yazılmış transporantlar, “Dünya Xocalı soyqırımını tanımalıdır!”, “Xocalıya ədalət!”, “Xocalını unutmayın”, “Rədd olsun erməni faşizmi!” və s. sözlər yazılmış plakatlar tutan gənclər düzülmüşdü. İnsanların hüznlü çöhrələrinə baxanda açıq-aydın görünürdü ki, ötən 20 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silməmişdir.

Bütövlükdə bu ümumxalq yürüşünü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin diqqətçəkən bir nümunəsi adlandırmaq olar. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözləri qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların bu vaxta qədər hələ də cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, şəhidlərin xatirəsinə ehtiramını, işğal altındakı torpaqlarımızın azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi. Xocalı faciəsi Azərbaycan xalqının heç vaxt unudulmayacaq və ibrət dərsi götürüləcək qan yaddaşıdır.

**Əliqismət BƏDƏLOV**

**“Xalq qəzeti”.-**2013.-20 fevral.-N 39.-S.3.

## “Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gənclərin rolu”

**Nəcibə Mustafayeva**
Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin məsləhətçi eksperti

Azərbaycan xalqı artıq iki əsrə yaxındır ki, erməni millətçiləri tərəfindən vaxtaşırı, beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinin, həmçinin əsas insan hüquq və azadlıqlarının kütləvi şəkildə kobud pozulması, işgəncələr və digər qeyri-insani, insan ləyaqətini alçaldan rəftarla müşayiət olunan etnik təmizləməyə və təcavüzə məruz qalmaqdadır.

Ermənistanın 25 ildən bəri yürütdüyü işğalçılıq siyasəti nəticəsində Azərbaycanın əzəli torpaqlarının 20 faizi zəbt edilmiş, 20 mindən çox soydaşımız həlak olmuş, 50 mindən artıq adam yaralanmış, əlil və şikəst olmuşdur. Bir milyondan artıq həmvətənimiz qaçqına və məcburi köçkünə çevrilmiş, yüzlərlə yaşayış məntəqəmiz, 6 minədək sənaye və kənd təsərrüfatı müəssisəsi, 4 mindən çox sosial-mədəni obyekt, o cümlədən 700-ə yaxın məktəb, habelə muzeylər və kitabxanalar dağıdılmış, ölkə iqtisadiyyatına 22 milyard ABŞ dollarından çox ziyan vurulmuşdur.

1988-ci ilin fevralından ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi çağırışları ilə başlanan nümayişlərinə heç bir siyasi qiymət verməyən o vaxtkı SSRİ rəhbərliyi tərəfindən zəruri tədbirlər görülməməsi qısa müddət ərzində Dağlıq Qarabağ ərazisində azərbaycanlıların yaşadıqları əzəli-əbədi yurd yerlərimizin dağıdılıb yandırılması, əhalisinin qətlə yetirilməsi ilə nəticələndi.

İşğalçı hərbi birləşmələr növbəti həmləni müharibənin ön xəttində yerləşən Xocalı şəhərinə yönəltdilər. Düz 21 il bundan əvvəl, fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları güclü hərbi texnikanın köməyi ilə Xocalı şəhərinə hücum edərək xalqımıza qarşı genosid törətdilər. Keçmiş sovet ordusunun 366-cı motoatıcı alayına məxsus çoxsaylı ağır texnika şəhərə yeridilmiş, yaşayış evləri dağıdılmış və yandırılmışdır. Tamamilə əliyalın olan dinc əhali – uşaqlar, qadınlar, qocalar, əlillər amansız zülmə məruz qalmışlar.

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etmişdir: “Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu”.

Xocalı faciəsi 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoydu. 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırım aktı nəticəsində bəzi ailələr bütünlüklə məhv edilmiş, mülki əhali görünməmiş qəddarlıqla qətlə yetirilmiş, əsir götürülənlərə amansız işgəncə verilmişdir.

Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi beynəlxalq və dövlətdaxili hüquqa əsasən məhz genosid olduğunu sübut edir. Erməni qəsbkarlarının törətdikləri bu vəhşilik və vandalizm aktı tərəqqipərvər bəşəriyyətin genosid kimi tanıdığı Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə qiymətləndirilməlidir. Dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, dünya ictimaiyyəti bu acı həqiqəti gec-tez bilməli, insanlığa qarşı törədilən bu cinayət öz layiqli qiymətini almalıdır.

Azərbaycan həqiqətlərinin, Ermənistanın Azərbaycan torpaqlarının işğal faktını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında gənclərin rolu danınmazdır.

BMT-dən sonra üzvlərinin sayına görə dünyanın ikinci təşkilatı olan İslam Konfransı Təşkilatı dəfələrlə Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzkarlığını pisləmiş və Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyi ilə həmrəy olduğunu bildirmişdir.

2004-cü ildə Bakıda İslam Konfransı Təşkilatı Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu yaradılmışdır.

İKT Gənclər Forumu İdarə Heyətinin 2008-ci ilin aprelində Küveytdə keçirilən 6-cı sessiyasında isə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva Forumun mədəniyyətlərarası və

sivilizasiyalararası dialoq məsələləri üzrə birinci baş əlaqələndiricisi seçildi. Bu, İKT Gənclər Forumunun Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına daha çox diqqət ayırmasında mühüm rol oynadı. Məhz bunun nəticəsində həmin ilin mayın 17-də İstanbulda İKT Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət – Qarabağa azadlıq" kampaniyası İKT ekspertləri tərəfindən dəstəkləndi və 26 fevral – Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olundu. Bundan əlavə, Xocalı qətliamının İslam ölkələrində dərsliklərə daxil edilməsi ilə bağlı təklifin də İKT nazirlərinin toplantısına təqdim edilməsi razılaşdırıldı.

İKT-nin üzvü olan ölkələrin xarici işlər nazirlərinin Kampalada (Uqanda) başa çatmış konfransında İKT-nin Gənclər Forumunun sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın "Xocalıya ədalət – Qarabağa azadlıq" təşəbbüsü təsdiq edildi. Bu barədə İKT xarici işlər nazirlərinin konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul olundu. Qətnamənin xarici işlər nazirləri tərəfindən dəstəklənməsi dünyanın 57 ölkəsində müvafiq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradılmasına gətirib çıxardı.

Qətnaməyə görə, İKT üzvü olan ölkələrdə humanitar faciələrin qurbanlarının Xatirə günü təsis edilir. Qətnamədə Xocalı faciəsinin də daxil olduğu bu siyahı təsdiq edilməklə yanaşı, XX əsrdə müsəlman ölkələri xalqlarının məruz qaldığı humanitar fəlakətlər, təcavüzlər və etnik təmizləmələr haqqında düzgün informasiyanın yayılması üçün kampaniyalar keçirilməsi nəzərdə tutulur.

İslam Konfransı Təşkilatının (İKT) üzv qurumu olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏİKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-də elan olunmuş "Xocalıya ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyası başlanmışdır. Kampaniya çərçivəsində ilk tədbir İstanbulun "Taksim" metrostansiyasının sərgi salonunda Xocalı ilə bağlı uşaqların çəkdiyi şəkillərdən və kampaniyaya qoşulmuş xarici ölkə gənclərinin fotoşəkillərindən ibarət sərginin açılışı olmuşdur.

2009-cu ilin mayında isə İKT Xarici İşlər Nazirləri Şurasının Dəməşqdə keçən 36-cı konfransında nazirlər Gənclər Forumu haqqında qəbul etdikləri yekun qətnamədə "Xocalıya ədalət – Qarabağa azadlıq" kampaniyasını tam dəstəkləyərək üzv ölkələri bu kampaniyada fəal iştiraka çağırıblar.

2011-ci ildə isə İslam Konfransı Təşkilatı Parlamentlər İttifaqı (İKT Pİ) Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyasına dəstək olaraq bəyannamə qəbul edilmişdir. İKT Parlamentlər İttifaqı Şurasının Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə keçirilən 13-cü sessiyasında Şuraya üzv dövlətlərin qəbul etdikləri Əbu-Dabi bəyannaməsində Xocalı faciəsini insanlığa qarşı törədilmiş kütləvi cinayət kimi tanımağa çağırılır. Bu, İKT GF-nin təşəbbüsü ilə irəli sürülmüş "İKT GF və İKT Pİ arasında əməkdaşlıq haqqında" qətnamənin Şura tərəfindən təsdiqlənməsi nəticəsində baş vermişdir.

2012-ci il yanvarın 30-da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İƏT Pi) İndoneziyanın Palembanq şəhərində keçirilən 7-ci sessiyası "Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü" adlı ənənəvi olaraq qəbul edilən qətnaməyə İKGF-nin təşəbbüsü ilə xüsusi bir bənd əlavə edilib. Xocalı faciəsinə həsr edilən paraqrafda qeyd edilir ki, Konfrans üzv-ölkələrin parlamentlərini 2012-ci ildən etibarən (faciənin 20 illiyi) 26 fevral 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirilən və soyqırım xarakteri daşıyan kütləvi qırğını müvafiq şəkildə tanımağa çağırır və Xocalı qırğınını törədənləri məsuliyyətə cəlb etməyi tələb edir.

2012-ci ilin noyabrın 15-17-də Cibutidə İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının (İƏT XİNŞ) 39-cu sessiyası keçirilmişdir. Sessiyada Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) fəaliyyətləri ilə bağlı qurumun təqdim etdiyi qətnamə layihəsi İƏT XİNŞ tərəfindən qəbul edilmişdir. Forum tərəfindən təqdim edilən qətnamə layihəsində qurumun gördüyü işlər arasında DƏ-İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin mayından həyata keçirilən "Xocalıya ədalət" kampaniyasına dair xüsusi bənd ayrılmışdır. Bu bəndə əsasən, İƏT XİNŞ üzvü olan ölkələri və İƏT-in qurumlarını kampaniyanın fəaliyyətində fəal iştirak etməyə və dəstək

olmağa, bu soyqırım aktının beynəlxalq və milli səviyyələrdə insanlığa qarşı cinayət kimi tanınması üçün səy göstərməyə çağırmışdır. Beləliklə, İƏT XİNŞ Xocalı faciəsini ilk dəfə olaraq soyqırım aktı kimi tanımışdır.

Ötən il Xocalı soyqırımının 20-ci il dönümü ilə əlaqədar Türkiyənin Taksim meydanında son 20 ilin ən böyük aksiyası həyata keçirilib. " Hamımız Xocalıyıq" adlı yürüşdə 10 minlərlə insan iştirak edib. Onların sırasında Azərbaycan və Türkiyənin millət vəkilləri, siyasi partiyaların və həmkarlar ittifaqlarının nümayəndələri, qeyri-hökumət təşkilatları, media, Türkiyədə yaşayan, eləcədə də digər ölkələrdən gələn azərbaycanlılar iştirak edib. Əllərində Azərbaycanın və Türkiyənin dövlət bayraqlarını Xocalıda qətliam törədənləri və onlaraı dəstək olanları, indiyədək Xocalı soyqırımına lazımlı hüquqi-siyasi qiymət verməyən, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktına göz yuman beynəlxalq təşkilatları qınayan ifadələr yazılan plakatlar tutan insanlar "Hamımız Azərbaycanlıyıq, hamımız türkük", "Bir millət, iki dövlət", " Qarabağ bizimdi, bizim olacaq", " Dünya, Xocalı fəryadını duy", "Xocalıya ədalət", "Erməni yalanına son" , " Türklərə edilən soyqırım tanınsın" kimi şüarları səsləndirmişdilər.

Aksiyada Türkiyənin daxili işlər naziri İdris Naim Şahin çıxış edərək "Xocalıda axıdılan qan bizim qanımızdır, Azərbaycanın dərdi bizim dərdimizdir" deyib və "tökülən qanların hesabının ədalətlə soruşulacağını" söyləyib.

Gənclərin xüsusi fəallığı ilə seçilən bu tədbir türk xalqının hər zaman həmrəy olduğunu dünyaya bir daha nümayiş etdirdi.

Xocalı həqiqətlərinin dünyaya çatdırılmasında gənclər təşkilatlarının fəaliyyətini xüsusi olaraq qeyd etmək istərdim. Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu (ASAIF) bu istiqamətdə geniş fəaliyyət göstərir. Lobbiçilik və diaspora fəaliyyətləri ASAİF təşkilatının ən vacib fəaliyyət istiqamətlərindən sayılır. Lobbiçilik fəaliyyəti zamanı əsas hədəf Azərbaycanın tarixi, mədəniyyəti, inkişafı, ölkəmizi əlaqələndirən mövzular ətrafında dünya ictimaiyyətini məlumatlandırmaqdır. Məntiqi olaraq, fəaliyyətin əsas istiqamətini Dağlıq Qarabağ problemi təşkil edir.

Belə ki, azərbaycanlı tələbələrin təhsil aldığı nüfuzlu ali məktəblərdə "Azərbaycan günləri" və eyni zamanda "Erməni təcavüzünü durdurun" adlı aksiyalar ASAİF təşkilatının dəstəkləyəcəyi vacib tədbirlər sırasındadır.

Ötən il "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" mövzusunda Avropa ölkələrində təhsil alan azərbaycanlı tələbələrin Vyana Forumu gənclərimizin Qarabağ həqiqətlərini, Xocalı dəhşətlərini dünya birliyinə ədalətli şəkildə təqdim olunmasında mühüm bir tədbir kimi seçildi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Azərbaycanın Avstriyadakı səfirliyi, Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondu, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı İcması" İctimai Birliyi və ASAİF-in (Xaricdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin beynəlxalq forumu) təşkilatçılığı ilə keçirilmiş Forumda Ermənistan-Azərbaycan münasibətlərinə tarixi aspektdə nəzər salınıb, münaqişənin həlli yolları, onun hüquqi, humanitar və digər aspektləri, münaqişənin həllinə dair beynəlxalq ictimaiyyətin baxışları və Azərbaycanın ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında Avropada təhsil alan gənclərin töhfəsi mövzularında sessiyalar təşkil olunub.

Bu yaxınlarda isə start götürmüş ASAİF və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması ilə birgə həyata keçiriləcək layihə Ermənistanın Azərbaycan torpaqlarının işğal faktını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması fəaliyyətinə böyük töhfə vermiş olacaq. "Gənclər soyqırım istəmir" adlı aksiya çərçivəsində Qarabağ həqiqətlərinin dünyaya çatdırılması mövzusunda video çarxların hazırlanması və xarici mediada geniş şəkildə yayımlanması nəzərdə tutulur. Video çarxların hazırlanmasını hal-hazırda xaricdə təhsil alan və məzun olmuş tələbələrimiz həyata keçirəcək. Bununla da sözlə, siyasi yollarla deyilə bilməyən fikirləri gənclərimiz tərəfindən dünyaya təqdim olunacaq video müraciətlərlə reallaşdırmaq mümkün olacaq.

"Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı İcması" "Xocalıya ədalət" kampaniyası çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dünya ictimaiyyətinə

çatdırılması, Xocalı soyqırımına lazımi hüquqi qiymətin verilməsi məqsədi ilə virtual aləm – sosial şəbəkələrdə təbliğat kampaniyasına start verib.

Planlaşdırılan aksiyada xaricdə yaşayan, işləyən, təhsil alan gənclərdən İcmanın hazırlamış olduğu formata uyğun olaraq #justiceforkhojaly şüarı ilə özlərinin və ya əcnəbi dostlarının şəkillərini hazırlayaraq, kampaniyaya dəstək ola bilərlər.

"İRƏLİ" İctimai Birliyinin Xocalı soyqırımı ilə bağlı gənclərin maarifləndirilməsi və bu gün haqqında dünya ictimaiyyətinə informasiya ötürmək məqsədilə dünyanın əksər ölkələrinin qərarverici şəxslərinə elektron məktublar yazılıb, yerli və beynəlxalq elektron şəbəkələrdə təşkilat tərəfindən hazırlanmış "History of Tragedy" video klipi yerləşdirilib.

Dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımına dair Beynəlxalq Konfranslar, yürüşlər, müxtəlif aksiyalar keçirilib, Xocalı həqiqətlərini əks etdirən kitablar müxtəlif elm və təhsil ocaqlarının kitabxanalarına təqdim olunub.

Qeyd olunan istiqamətdə keçirilən mühüm tədbirlərin sırasında 26 fevral 2011-ci il tarixində "İRƏLİ" Gənclik Mərkəzində "İRƏLİ" İctimai Birliyinin İnformasiya Texnologiyaları Mərkəzi tərəfindən "Mənim Qarabağım, Mənim Azərbaycanım!" layihəsi çərçivəsində Xocalının işğalı gününə həsr olunmuş bloqun ( mykhojaly.wordpress.com ) təqdimatı olub.

Məlum olduğu kimi, Xocalı qətliamı və onun qurbanlarının anması və müharibə cinayətlərini tanıması məqsədilə Ağ Evin rəsmi saytında Biz xalqıq" (We the People) bölməsində yerləşdirilmiş petisiya faciənin 21-ci ildönümü ərəfəsində Xocalı soyqırımı və onun qurbanlarının anılması və ABŞ prezidentinin bununla bağlı bəyanat verməsi üçün imza toplanmasını nəzərdə tutur. Petisiyada deyilir ki, fevralın 26-da amerikalı azərbaycanlılar və ABŞ azərbaycanlıları şəbəkəsinin dostları 1990-cı illərdə baş vermiş ən dəhşətli hadisələrdən biri olan Xocalı qətliamının 21-ci ildönümünü qeyd edəcək.

Petisiyada "Amerika azərbaycanlıları, bizim bu ölkədə və bütün dünyada olan dostlarımız adından faciənin 21-ci ildönümü ərəfəsində Xocalı qətliamı, onun qurbanlarının anılması və prezidentin bununla bağlı bəyanat verməsində bizə kömək etməyiniz üçün sizə müraciət edirik"-deyə bildirilir.

Qeyd olunan aksiya ilə bağlı məlumatlar gənclərimiz tərəfindən sosial şəbəkələrdə geniş təbliğ olunaraq, səslərin toplanılmasında kömək edir. Bu ərəfədə, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (ARGTMŞ) təşəbbüsü ilə Xocalı soyqırımının ABŞ parlamentində müzakirəsinin təmini məqsədilə ilk dəfə olaraq ictimai yerlərdə və böyük ticarət mərkəzlərində həyata keçirilən səs toplama kampaniyası baş tutub. "100 000" səsdən biri sənin olsun!" kampaniyası çərçivəsində insanların çox olduğu ictimai yerlərdə xüsusi məntəqələrdə səsvermə üçün internetə çıxışı olan notebook, netbook və planşetlər quraşdırılıb. Məntəqələrin qarşısından keçən insanlara petisiya haqqında məlumat verilib. Daha sonra səsverməyə qoşulmaq və öz səsini vermək istəyənlərə səsvermə imkanı yaradılıb.

Beləliklə, yuxarıda deyilənlərdən göründüyü kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımına lazımi hüquqi qiymətin verilməsi işində gənclərimiz mütəmadi olaraq fəaliyyət aparırlar.

Sonda qeyd etmək istərdim ki, Xocalı hadisələrinin genosid kimi tanınması və qiymətləndirilməsi, həmçinin cinayətkarların cəzalandırılması üçün kifayət qədər hüquqi əsas vardır. Ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş əməllər beynəlxalq hüquqa müvafiq olaraq beynəlxalq cinayət – genosid kimi qiymətləndirilməlidir və beynəlxalq hüquqa əsasən genosid törədənlərin cəzalandırılması onun törədilməsi vaxtından asılı olmayaraq zəruridir. Müvafiq olaraq, azərbaycanlılara qarşı genosid törətmiş (istər cinayətin bilavasitə icraçıları, istərsə də təşkilatçıları) erməni və onların havadarları olan şəxslər, vəzifə mövqeyindən asılı olmayaraq (cinayətkarın dövlət başçısı və ya vəzifəli şəxs qismində çıxış etməsi ona immunitetdən istifadə etmək imkanı vermir) cinayət məsuliyyətinə cəlb edilməli, ya səlahiyyətli dövlətdaxili məhkəmədə, yaxud da beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər.

**"525-ci qəzet".-**2013.-20 fevral.-№32.-S.4.

## Azərbaycan-Amerika Alyansı ABŞ ictimaiyyətini Xocalı faciəsi haqqında məlumatlandırma kampaniyasına başlamışdır

Fevralın 18-də Azərbaycan-Amerika Alyansı ABŞ ictimaiyyətini Xocalı faciəsi haqqında məlumatlandırma kampaniyasına başlamışdır. Təşkilatın məlumatında bildirilir ki, 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində və onun ətrafında yaşayan dinc Azərbaycan sakinləri erməni silahlı dəstələri tərəfindən soyqırımına məruz qalmışdır.

Alyans əyani təşviqatın müxtəlif növlərindən istifadə etməklə Vaşinqton və Nyu-York sakinlərinə bu faciə barədə məlumat verir. Xocalı faciəsi haqqında yüzlərlə afişa və plakat metro stansiyalarında, avtobus dayanacaqlarında, avtobuslarda, sabit və səyyar reklam lövhələrində yerləşdirilmişdir. Bundan əlavə, gecə vaxtı xüsusi projektorlarla təchiz olunmuş avtomobillər Xocalı faciəsi haqqında illüminasiyalı afişaları binaların üzərində işıqlandıracaqdır.

Xocalı faciəsinə həsr edilmiş kampaniya dövründə bu faciə haqqında informasiya posterləri milli parkda və Nyu-Yorkun ən böyük dəmir yol vağzalında, həmçinin Nyu-Yorkda Tayms-Skverdə və BMT-nin binası yaxınlığında yerləşdiriləcəkdir.

Kampaniya bir neçə həftə davam edəcəkdir. Azərbaycan-Amerika Alyansı plakat kampaniyasından əlavə, Amerikada çıxan qəzet və jurnallarda bu mövzuda məqalələr dərc etdirəcəkdir. Dalbadal ikinci il keçirilən bu kampaniya erməni silahlı dəstələri tərəfindən Xocalı şəhərində törədilmiş mənfur əməllər barədə Amerika ictimaiyyətini və ABŞ administrasiyasını məlumatlandırmağa yönəlmişdir.

**Yusif BABANLI.**

**"Azərbaycan".-**2013.-20 fevral.-N 39.-S.1.

## Xocalı soyqırımının beynəlxalq cinayət olması təsdiqini tapır

### Artıq dünya ölkələri Azərbaycan həqiqətlərini qəbul etmək zorundadır

Ağ Evin rəsmi saytında Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan torpaqlarının 20 faizinin işğalına diqqət yönəltmək məqsədi ilə yerləşdirilən petisiyada səslərin sayı 100 minə çatıb. İndi bu barədə Ağ Ev administrasiyasına müraciət göndəriləcək. Müraciətdən sonra ABŞ rəhbərliyinin məsələ ilə bağlı hər hansı formada açıqlama verəcəyi gözlənilir. Bu arada Çexiya parlamentinin Deputatlar Palatasının Xarici Əlaqələr Komitəsi Xocalı soyqırımı haqqında qərar qəbul edib. Azərbaycan XİN-in mətbuat katibi Elman Abdullayev bildirib ki, sənəddə Xocalıda həyata keçirilən etnik təmizlik qınanır, törədilən cinayətlər soyqırım kimi qiymətləndirilərək pislənir və bir sıra ölkələrin Xocalı soyqırımını pislədiyi xatırladılır. Sənəddə Dağlıq Qarabağın da daxil olduğu Azərbaycan dövlətinin ərazi bütövlüyünə dəstək ifadə olunub. Xatırladaq ki, Çexiya parlament komitəsinin qərarı bu il Xocalı soyqırımı barədə beynəlxalq arenada qəbul olunan altıncı qərardır. Baş verən proseslər deməyə əsas verir ki, artıq Xocalı soyqırımının beynəlxalq cinayət olması öz təsdiqini tapmaqdadır. Artıq dünya ölkələri Azərbaycan həqiqətlərini qəbul etmək zorundadır. Qeyd edək ki, ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə əməliyyatı 20-ci əsrin sonlarında Ermənistanda yaşayan azərbaycanlılara qarşı həyata keçirilərək sonrakı proseslərdə Azərbaycanın Dağlıq Qarabağ ərazisində yerli sakinlərə -azərbaycanlılara qarşı soyqırım cinayətləri ilə müşayiət olunub. Bu soyqırım cinayətlərinin tərkib hissələrindən biri də Xocalı faciəsidir ki, indiyə qədər bəşəriyyət əleyhinə olan bu cinayət beynəlxalq səviyyədə hüquqi qiymətini ala bilməyib. Çünki ermənilərin Azərbaycan torpaqlarına təcavüzü nəticəsində ərazimizin 20 faizinin itirilməsi, bir milyondan artıq azərbaycanlının doğma yurdlarından zorla çıxarılması, minlərlə insanın öz həyatını itirməsi, uşaq, qoca və qadınların, ümumiyyətlə müharibəyə aidiyyatı olmayan dinc sakinlərin ən müxtəlif formalarda erməni terroru və zorakılığının qurbanına çevrilməsi faktını nə ermənilər, nə də beynəlxalq ictimaiyyət qəbul etmək istəmir.

Hüquqşünas Mirzə Manafovun sözlərinə görə, danılmaz faktdır ki, Dağlıq Qarabağ müharibəsində ermənilər bütün beynəlxalq hüquq normalarının, eləcə də müharibə qanunlarının ziddinə olaraq insanlığa və bəşəriyyətə qarşı cinayətlərə əl atıblar. Bəşəriyyət əleyhinə olan bu cinayətlər həm Azərbaycan qanunvericiliyində, həm də beynəlxalq hüquqda soyqırımı hadisəsi kimi hüquqi şərhini tapıb. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində soyqırım milli, etnik, irqi və ya dini qrupu bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, onların sağlamlığına, əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlüklə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə başa düşülür. Beləliklə, soyqırımın hüquqi aspektdə izahı bu kimi cinayətlərin ictimai təhlükəliliyi hər hansı milli, etnik, irqi və dini qrupun bütövlükdə və ya qismən məhv edilməsi təhlükəsinin yaranması, habelə həmin qrupların tarixi, mədəni, mənəvi dəyərlərinin yer üzündən silinib getməsi ilə xarakterizə olunur. İstər sülh, istərsə də müharibə şəraitində mülki əhaliyə qarşı geniş miqyaslı sistematik hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş əməllər insanlıq, sülh və bəşəriyyət əleyhinə olan cinayət hesab olunur və bu cinayət «əhalini məhv etmə» adlanır. Beynəlxalq hüquqa görə, soyqırım əməli yalnız milli, etnik, irqi və dini qruplara qarşı yönəldilir və hər hansı konkret məkan və coğrafi ərazi ilə əlaqələndirilə bilməz. Ona görə, ermənilərin əsrlər boyu azərbaycanlılara qarşı törətdikləri qətliamlar bütövlükdə azərbaycanlılara qarşı soyqırım kimi qiymətləndirilməli, Xocalı da daxil olmaqla ayrı-ayrı yaşayış məntəqələrində baş verən qətliamlar isə onun tərkib hissəsi kimi göstərilməlidir. Çünki, ermənilərin mülki əhaliyə qarşı yönəlmiş belə cinayətlərinin niyyəti azərbaycanlıları bir millət kimi məhv etmək olub. Bu bir faktdır ki, azərbaycanlılara qarşı törədilmiş soyqırım Ermənistan dövləti və hökuməti tərəfindən bilavasitə dəstəklənib və bu dövlətin müxtəlif strukturları tərəfindən təşkil edilib. Konkret olaraq, Qarabağın dağlıq və aran hissəsində dinc əhalini məhvə məruz qoyan silahlı qruplaşmaların əksəriyyəti məhz Ermənistan Respublikasının tabeçiliyində olub. Soyqırım əməllərinə bəraət qazandıranlar isə Ermənistan hökumətində təmsil olunanlar, dövlət başçıları və parlamentdir. Deməli, ermənilər tərəfindən azərbycanlıların soyqırımına yönəlmiş cinayət əməllərinin bilavasitə təşkilatçısı,

təhrikçisi və iştirakçısı Ermənistanın dövlət strukturları olub. Onun bildirdiyinə görə, ermənilərin əlində konkret hüquqi faktlar olmadığından və iddia etdikləri «erməni soyqırımı» BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım Cinayətlərinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiyaya uyğun gəlmədiyindən onlar soyqırım cinayətləri ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət etmək fikrindən vaz keçiblər. Ona görə də bütün güclərini yalançı «erməni soyqırımı»nın ayrı-ayrı dövlətlərin parlamentlərində tanınmasına yönəldiblər. Lakin parlamentlərdə soyqırımı faktının tanınması heç bir hüquqi nəticəyə malik deyil. Soyqırımın beynəlxalq cinayət kimi tanınması üçün xüsusi niyyətin olması zəruri faktor sayılır. Məhz soyqırımı cinayəti bu obyektiv cəhətinə görə, oxşar beynəlxalq cinayətlərdən fərqlənir. Soyqırımı cinayətini təşkil edən əməllərdən biri öz xarakterinə görə şüurlu, bilərəkdən və diktə edilən əməllərdir. Bu əməllər heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Bu məsələdə cinayətkarın fikrinin xüsusi istiqaməti və ya əməlin neqativ nəticələri ilə bağlı əvvəlcədən mövcud olan konkret niyyətin olması sübut olunmalıdır. Qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin odlu silahlarla güllləbaran edilməsi məhz soyqırımı niyyətini sübut edir.

Hüquqşünas onu da qeyd edib ki, soyqırımı cinayəti azərbaycanlı milli qrupuna qarşı yönəlməsidir ki, bunun üçün də tutarlı hüquqi əsaslar mövcuddur. Belə ki, sözügedən Konvensiya uyğun olaraq demək mümkündür ki, baş verən cinayətlər tanınan azərbaycanlı milli qrupa qarşı yönəlib, bu qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti olub. Onu da qeyd edək ki, Xocalı soyqırımının beynəlxalq cinayət kimi tanınması üçün kifayət qədər beynəlxalq hüquqi sənəd mövcuddur. Bunlar BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım Cinayətlərinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiyaya, Nürnberq Hərbi Tribunalının Nizamnaməsi, Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi, Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizanaməsi və Beynəlxalq Cinayət Məhkəməsinin Statutundan ibarətdi. Məhz bu sənədlərin müddəalarına əsasən ermənilər tərəfindən Xocalı əhalisi olan azərbaycanlılara qarşı törədilmiş bütün əməllər soyqırımı kimi qiymətləndirilə, beynəlxalq hüquq prinsiplərinə əsasən bəşəriyyətə qarşı cinayət hesab oluna bilər.

**Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir**

**"Olaylar".-**2013.-20 fevral.-№32.-S.15.

## Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması öz nəticələrini verir

**Hülya Məmmədli**

Soyqırımı tanıyan dövlətlərin sayının artması ilə yanaşı, Azərbaycan həqiqətlərini tanıdan beynəlxalq layihələrin miqyası da genişlənir

Azərbaycanın yaxın keçmişinin faciəli səhifələrindən biri olan Xocalı soyqırımı təkcə xalqımıza qarşı deyil, ümumilikdə insanlıq əleyhinə törədilmiş cinayətdir. Bu cinayəti törədənlərin cəzalandırılması, azərbaycanlılara qarşı həyata keçirilən bu soyqırımı aktı barədə beynəlxalq ictimaiyyətin məlumatlanması və bu soyqırımın dünyada qəbul olunması ölkəmiz üçün prinsipial önəm daşıyır. 2012-ci il fevralın 26-da Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Bakı küçələrindən Xocalı abidəsinə doğru on minlərlə insanın iştirakı ilə keçirilən yürüş Azərbaycan xalqının bu məsələdə prinsipiallıq nümayiş etdirdiyini, xalqımızın başına gətirilən bəlaları bir an belə olsun unutmadığını bir daha sübuta yetirdi.

Xatırladaq ki, Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul edib. Azərbaycan parlamenti, həmçinin, BMT-yə, dünya dövlətlərinə ünvanladığı müraciətdə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Məhz ölkə başçısının rəhbərliyi altında həyata keçirilən ardıcıl tədbirlər nəticəsində bu gün Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın xarici havadarlarının dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülüb, xarici dillərdə kitablar, sənədlər dərc olunub, Xocalı soyqırımı müxtəlif təşkilatlarda gündəmə gətirilib, bununla bağlı bir çox internet saytları yaradılıb. Dövlət başçısı, xüsusilə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələ kimi müəyyənləşdirib.

Sevindirici hal ondan ibarətdir ki, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlər son aylarda olduqca geniş miqyas alıb. Bu işdə Azərbaycan dövləti, müxtəlif ölkələrdəki səfirliklərimiz, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu, ölkə daxilindəki ictimai qurumlar, dünyanın dörd bir yanındakı diaspor təşkilatlarımız, ölkədə və xaricdə yaşayan soydaşlarımız qısası, Azərbaycanı sevən və ölkəmiz üçün çalışan hər bir kəs birlik nümayiş etdirərək prosesə qoşulub.

Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatları səviyyəsində görülən işlər çərçivəsində isə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, Heydər Əliyev Fondunun son bir neçə ildə həyata keçirdiyi "Xocalıya ədalət" kampaniyası öz miqyasına və təsir dairəsinə görə diqqətəlayiqdir. Xatırladaq ki, bu kampaniya Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilir. İƏT ölkələrində, Avropa məkanında, ABŞ-da, Rusiyada, ümumilikdə, 60-a yaxın ölkədə bu deviz altında keçirilən tədbirlər kampaniyanın miqyasından xəbər verir.

Qeyd edək ki, Azərbaycanın beynəlxalq miqyasda soyqırımı həqiqətlərinin tanınması ilə bağlı gördüyü işlər öz nəticələrini verməkdədir. Belə ki, artıq beynəlxalq ictimaiyyət Azərbaycan xalqının başına gətirilən bu faciəyə münasibətini ortaya qoyur. Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən, Ermənistanı təcavüzkar dövlət kimi tanıyan çoxsaylı qətnamələr qəbul edən İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan ilk beynəlxalq təşkilatdır. Öz növbəsində, ABŞ-ın Xocalı soyqırımını tanıyan və bu cinayəti pisləyən ştatlarının sayı hər il artmaqdadır. Belə ki, artıq Massaçusets, Texas, Nyu Cersi, Corciya və Meynin ardınca bu il Nyu-Meksiko və Arkanzas ştatları Xocalı qırğınını tanıyıblar. Onların bəziləri faciəni soyqırımı kimi tanıyıb. Bundan əlavə, ABŞ-ın Kaliforniya ştatı Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan qətnamə və proklamasiyalar qəbul edib.

Xocalı soyqırımı ayrı-ayrı dövlətlər səviyyəsində də tanınır. Yəni, 2011-ci ilin dekabr ayında Meksika, 2012-ci ilin fevral ayında Pakistan, aprelində isə Kolumbiya Xocalı soyqırımını rəsmən tanıyıb. Bir müddət

öncə isə Çexiya Respublikası Avropa İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlətə çevrilib. Fevralın 7-də bu ölkənin ali qanunvericilik orqanının Deputatlar Palatasının Beynəlxalq Əlaqələr Komitəsi 21 il əvvəl "erməni hərbi bölmələri tərəfindən Azərbaycanın işğal olunmuş Xocalı şəhərində 613 müdafiəsiz dinc sakinin vəhşicəsinə qətlə yetirilməsi ilə törədilmiş qırğına görə" Ermənistanı pisləyən qətnaməni yekdilliklə qəbul edib. Qəbul edilmiş sənəddə o da qeyd edilir ki, "Azərbaycan torpaqlarının qonşu Ermənistan tərəfindən işğalına son qoyulmasına çağıran BMT-nin Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri indiyədək yerinə yetirilməyib. BMT Baş Məclisi, Avropa Parlamenti, Avropa Şurası və ATƏT-in Parlament Assambleyası öz qətnamələrində Azərbaycan Respublikasının Dağlıq Qarabağ da daxil olmaqla suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirlər".

Sənəddə Xocalıda törədilmiş qırğının insanlığa qarşı cinayət hesab olunması öz əksini tapıb. Beləliklə, Çexiya parlamenti Avropa İttifaqında Ermənistanı Xocalıda bəşəriyyət əleyhinə törətdiyi cinayətlərə görə pisləyən ilk qanunverici orqandır.

Bu və digər faktlar beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətlərinə verdiyi qiymətin göstəricisi olmaqla yanaşı, ölkəmizin informasiya sahəsində qələbəsi, eləcə də, diaspor siyasətinin uğurudur. Müxtəlif dövlət və ştatların Xocalı soyqırımını tarixi gerçəklik kimi tanıması, Azərbaycanın dövlət və ictimai qurumlar səviyyəsində illərlə bu istiqamətdə apardığı davamlı fəaliyyətin nəticəsidir. Bu o deməkdir ki, artıq beynəlxalq ictimaiyyət ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı və digər vəhşiliklərlə bağlı daha yaxşı məlumatlanıb və bu cinayətlərə öz münasibətini ortaya qoyur. Beynəlxalq ictimaiyyətin həqiqətləri bilməsi və təsdiqləməsi isə tarixi təhrif edən yalan məlumatların sürətlə yayılmasının və möhkəmlənməsinin qarşısını alır.

Sözsüz ki, Azərbaycanın bu sahədə artan fəallığı, ölkəmizin informasiya müharibəsində erməni diasporunun və lobbisinin fəaliyyətini geridə qoyması işğalçı ölkə rəhbərliyinin təşviş və narahatlığını da artırmaqdadır. Çünki işğaldan keçən illər ərzində Azərbaycan xalqı olanları nəinki unutmur, əksinə, Qarabağsız böyüyən yeni nəsil torpaqlarımızın azad olması uğrunda hər bir sahədə - siyasi, ideoloji, hərbi sferalarda əlindən gələni etmək üçün daha böyük səy göstərir. Bütün bunlar təbliğat maşınını işə salaraq yalan dolu informasiyaları bütün dünyaya yaymaqla özünü məzlum xalq kimi təqdim etməyə çalışan ermənilərin planlarını alt-üst edir. Çünki Azərbaycanın məqsədyönlü və həqiqətə söykənən təbliğat strategiyası əslində kimin soyqırıma məruz qaldığını tarixi faktlar əsasında açıq şəkildə ortaya qoyur.

Bu il Xocalı soyqırımının ildönümü ərəfəsində beynəlxalq səviyyədə görülən işlər isə miqyasına və effektliliyinə görə əvvəlki illərlə müqayisədə daha da təkmilləşib, həmçinin, yeni metodlardan geniş istifadə olunur. Belə ki, Xocalı faciəsinə ABŞ hökumətindən münasibət bildirilməsi məqsədilə Ağ Evin saytında yerləşdirilən petisiya lazım olan 100000 səs artıqlaması ilə toplanıb. Eyni zamanda, Azərbaycanın ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalına diqqəti çəkən və Minsk qrupunun üzvü kimi ABŞ-ın rolunu gücləndirməsinə çağıran petisiyaya da lazım olan eyni miqdarda səs artıq toplanıb və hər iki petisiyanı təsdiqləyənlərin sayı artmaqda davam edir.

Bundan başqa, ABŞ-da Azərbaycan-Amerika Alyansının təşkilatçılığı ilə həyata keçirilən multimedia layihələri çərçivəsində Vaşinqtonda, Kolumbiya dairəsində və Nyu-Yorkda "Xocalı... Azərbaycana qarşı insan faciəsi" başlıqlı plakatlar metroda, avtobus dayanacaqlarında, stasionar və hərəkət edən reklam sipərlərində yerləşdirilib. Həmçinin, Vaşinqtondakı binalara və Nyu-Yorkda BMT-nin yerləşdiyi binaya Xocalı hadisələri haqqında məlumatları özündə əks etdirən təsviri proyeksiya edilir. Xocalı soyqırımını dünya ictimaiyyətinə tanıtmaq məqsədilə bənzər kampaniya bu il Almaniyada da keçirilir.

Bütün bunlar Azərbaycanın informasiya məkanında nə qədər aktivləşdiyinin və erməni lobbisi ilə müqayisədə üstünlüyü ələ aldığının göstəricisidir. Əminliklə demək olar ki, dövlət, vətəndaş cəmiyyəti və diaspor təşkilatlarının fəaliyyətinin uğurlu əlaqələndirilməsi və bir məqsədə hədəflənməsi sayəsində təmin olunan bu üstünlük Azərbaycan həqiqətlərinin dünya miqyasında tanınmasında yeni-yeni uğurlara yol açacaq.

**"Yeni Azərbaycan".**-2013.-20 fevral.-№32.-S.5.

## Dünya Xocalıya hüquqi qiymət verməlidir!

**Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində səylər davam etdirilir. Artıq tarixin ən qanlı səhifələrindən biri kimi bəşəriyyətə qarşı yönəlmiş bu cinayəti ittiham edən çağırışların sayı artmaqdadır. Hələ ötən il Meksika və Pakistan parlamentləri Xocalı soyqırımına dair sənəd qəbul etdi, İslam Əməkdaşlığı Konfransı Təşkilatı Xocalı soyqırımını tanıdı, Texas ştatında Xocalı qətliamının 20-ci ildönümü ilə əlaqədar 12R448 saylı qətnamə layihəsi qəbul olundu.**

Almaniya Bundestaqının petisiya daimi komitəsi də Xocalı qətliamı ilə bağlı sənəd qəbul edib. Pakistan Senatının Xarici Əlaqələr Komitəsi də Azərbaycanın ərazisinin 20 %-nin işğalı və ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı ilə bağlı yekdilliklə qətnamə qəbul edib. Bu ilin ilk ayında isə ABŞ-ın Nyu Meksiko ştatının Senatı, Massaçusets ştatının Nümayəndələr palatası da Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar qətnamə qəbul edib. İslam Konfransı Təşkilatı Parlament Assambleyası da təşkilata üzv olan 51 ölkənin parlamentlərini Xocalı soyqırımını insanlığa qarşı cinayət kimi tanımağa çağıran qətnamə qəbul edib.

Xocalı soyqrımını tanıyan növbəti ştat isə Arkanzas ştatının Nümayədələr Palatası olub.

Qeyd edək ki, «soyqırım» anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnamə ilə qəbul etdiyi «Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında» Konvensiya ilə müəyyən edilib. Konvensiyada hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə həyata keçirilməsi soyqırım cinayəti kimi göstərilib. Soyqırım cinayəti üçün xüsusi niyyətin olması zəruri element sayılır.

Bu obyektiv cizgi soyqırım cinayətini digər anoloji beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırım cinayətini təşkil edən əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda, belə bir hərəkətin törədilmə niyyətinin vaxtı və onların mümkün nəticələrinin ümumi dərki onların soyqırım kimi tövsif olunması üçün kifayət deyil. Burada hərəkətin mənfi nəticələri ilə bağlı cinayətkar qərəzin və ya konkret niyyətin xüsusi istiqamətini üzə çıxarmaq tələb olunur. Xilas olmağa can atan Azərbaycan mülki əhalisinin əvvəlcədən xüsusi olaraq hazırlanmış pusqu yerlərindən avtomatlardan, pulemyotlardan və digər silah növlərindən atəşə tutulması soyqırım niyyətini sübut edir. Bu cinayətin məhz azərbaycanlı milli qrupuna qarşı yönəlmiş olduğu göz önündədir.

Beynəlxalq məhkəmə «Soyqırım cinayətlərinin qarşısının alınması və ona görə cəzalar» Konvensiyasının əsasında duran prinsipləri bütün dövlətlər üçün məcburi xarakterli normalar kimi tanımışdır.

Beləliklə, aşağıdakı sənədlər Xocalı qırğınını beynəlxalq hüquq əsasında soyqırım cinayəti aktı kimi tövsif etməyə imkan verir:

1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli «Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar» Konvensiyası.
2. Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (hərçənd Nizamnamədə soyqırım cinayətinə birbaşa isnad edilməsə də, soyqırımı təşkil edən hərəkətlər onda bəşəriyyətə qarşı cinayətlər və hərbi cinayətlər kimi tövsif olunur).
3. Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi (maddə 4).
4. Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi (maddə 1).
5. Beynəlxalq Cinayət Məhkəməsinin statutu (maddə 6).
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103).
7. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli Fərmanı.

Onu da qeyd edək ki, Azərbaycan MEA İnsan Haqları İnstitutunun Ekspert Şurası tərəfindən qəbul edilmiş «Xocalı faciəsi beynəlxalq cinayət olaraq — Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı məqsədyönlü siyasətinin tərkib hissəsidir» başlıqlı sənəd Milli Məclisə, Türkiyə, Gürcüstan, Rusiya və digər dövlətlərin parlamentlərinə, BMT İnsan Haqları üzrə Ali Komissarlığı, Avropa Şurasının Parlament Assambleyası, Avropa Şurasının İnsan Haqları üzrə Baş Direktoratı, ATƏT-in Parlament Assambleyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosuna, eləcə də insan haqları üzrə milli və beynəlxalq təşkilatlara, xarici ölkələrdəki Azərbaycan diasporu mərkəzlərinə göndərilib.

Bəs Xocalı soyqrımının hüquqi cəhətdən tanınması Ermənistan əleyhinə hansı hüquqi nəticələrə yol aça bilər?

**Hüquqşünas Kamran Məmmədovun** fikrincə Xocalı soyqırımının dünyada tanınması nəticəsində Ermənistandan bir sıra beynəlxalq hüquq normaları çərçivəsində cavab verməsi tələb olunacaq: «Beynəlxalq hüquq soyqırım cinayəti ilə bağlı müəyyən edib ki, soyqırım cinayəti törətmiş şəxslərin cinayət təqibi və cəzalandırılması qaçılmazdır, cinayət tərkibi təkcə soyqırım aktının törədilməsi deyil, həm də soyqırım

törədilməsi məqsədi ilə sui-qəsd, soyqırımın törədilməsinə birbaşa və açıq şəkildə təhrikçilik, soyqırım törədilməsinə qəsd və soyqırımda iştirakdır. Eyni zamanda soyqırım törətmiş şəxslərə universal yurisdiksiyanın prinsipləri tətbiq edilir, soyqırım cinayəti törədilərkən əmrin icrasına istinad etmək məsuliyyətdən azad etmir, rəhbərlər soyqırım cinayətinin qarşısının alınması üzrə hərəkətləri həyata keçirmədiklərinə görə məsuliyyət daşıyırlar. Soyqırım cinayətlərinə cinayət məsuliyyətinin tətbiqinə cəlbetmə müddəti tətbiq edilmir, soyqırım cinayətinə münasibətdə qanunun retroaktiv tətbiqinə yol verilir. Soyqırım cinayəti törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilmələri üçün tələb edən ölkəyə verilməlidirlər. Beləliklə, Xocalı şəhərində əhaliyə — ermənilər tərəfindən etnik azərbaycanlılara qarşı törədilmiş hərəkətlər beynəlxalq hüquqi sənədlərə uyğun olaraq soyqırım kimi tövsif olunur. Bu qətliam beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq bəşəriyyətə qarşı cinayətdir». Hüquqşünas qeyd edib ki, işğalçı Ermənistan Xocalıda azərbaycanlılara qarşı törədilmiş sayqırıma görə cavab verməli və zərərçəkmişlərə təzminat ödəməlidir.

**Ekspert Elnur Eltürk** isə bildirib ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin Ermənistan ordusu tərəfindən işğalı ilə bağlı 1993-ci ilin aprelində qəbul etdiyi 822 saylı, iyulda qəbul etdiyi 853 saylı, oktyabrda qəbul etdiyi 874 saylı və noyabrda qəbul etdiyi 884 saylı qətnamələrə Ermənistan dövləti tam etinasızlıq göstərmiş və bununla da beynəlxalq birliyin tələblərinə məhəl qoymayıb: «Qarabağ probleminin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl, prinsipial və qətiyyətli siyasi xətt, Azərbaycanın konstruktiv mövqeyi dünya dövlətlərinə yaxşı bəllidir. Problemin sülh və danışıqlar yolu ilə həllinin əsas istiqamətləri 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Sammitində dünyanın 53 dövləti tərəfindən bəyənilib və dəstəklənib. Biz inanırıq ki, XXI yüzilə qədəm qoyan xalqların xoşbəxt yaşamaları naminə, ədalət naminə, yüksək insani dəyərlərin təntənəsi naminə dünya dövlətləri, parlamentləri, beynəlxalq təşkilatlar ədalətin bərpasını dəstəkləyəcəklər. Qarabağ probleminin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarı olmaqla, biz bir daha inandığımızı bildiririk ki, dünya dövlətlərinin, parlamentlərinin, beynəlxalq təşkilatların birgə səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq və qaçqınlar və məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdacaqlar».

Ekspertə görə soyqırımın beynəlxalq cinayət kimi tanınması üçün həmin qətliamın törədilməsində xüsusi niyyətin olması zəruri faktor sayılır: «Məhz soyqırımı cinayəti bu cəhətinə görə, oxşar beynəlxalq cinayətlərdən fərqlənir. Xocalıda baş verənlərlə bağlı digər bir məqam soyqırım cinayəti azərbaycanlı milli qrupuna qarşı yönəlib. Məqsəd bu qrupun tamamilə və ya qismən məhv edilməsi olub».

**Cavid.**

**“Xalq Cəbhəsi”.-**2013.-21 fevral.-N 33.-S.5.

## Qarabağ həqiqətləri, Xocalı faciəsi!

### Bəşər tarixinə qanla yazılan günləri dünyaya necə tanıdırıq?

**Bəşəriyyət tarixinin ən müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti bir faciə ilə Xocalıda üzləşdi. 1992-ci ilin 26 fevralı təkcə Azərbaycan xalqının yox, həm də bütün bəşəriyyətin tarixinə qanla yazılan gün oldu.**

Sovet imperiyasının süqutu ilə yaranan mürəkkəb ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə bərpa edən Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması yeni tariximizin qara və qanlı səhifələrindəndir. Əslində, tarixə nəzər salanda Azərbaycan xalqının və ümumiyyətlə, türklərin tarixində ermənilər tərəfindən törədilmiş bu kimi qanlı hadisələrın və qırğınların sayı onlarcadır. Amma müəyyən zaman kəsiyində biz bu tarixi həqiqətlərin dünya birliyinə çatdırılmasında ləngiməklə sanki düşmənlərimizə daha geniş bir meydan vermişik. Şübhəsiz ki, bu məsələdə dövrün diqtə etdiyi bir sıra obyektiv reallıqlar da bizim imkanlarımızı məhdudlaşdırırdı.. Bəs bu gün vəziyyət necədir? Bu sahədə aparılan işlərin səviyyəsi bizi qane edirmi və ya daha nələrin üstündə dərindən fikirləşməliyik?

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Cavanşir Feyziyev bildirir ki, Ermənistan həmişə olduğu kimi bu gün də öz destruktiv siyasətini davam etdirərək, məsələnin sülh yolu ilə həllinə imkan verməməkdədir. Eyni zamanda, münaqişə zonasında törətdiyi ciddi təxribatları ilə vəziyyəti daha da mürəkkəbləşdirməyə çalışır. İndi bütün dünya anlayır ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində mövcudluğu münaqişənin həlli qarşısında duran əsas maneədir və Azərbaycan tərəfi də bu məsələni danışıqlar zamanı əsas arqument kimi qaldırır. 1990-cı ildən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Dağlıq Qarabağda Xocalı aeroportunun açılması istiqamətdə atılan hər bir addım beynəlxalq birlik tərəfindən ciddi şəkildə qınanılmaqdadır. Bu barədə Avropa Parlamentinin açıq mövqeyi var: bu məsələ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ciddi ziyan vurmaqla bərabər, beynəlxalq hüquqnormalarına ziddir, BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsini və Çikaqo Konvensiyasının şərtlərini də pozur. Xocalı aeroportunun Ermənistan tərəfindən açılmasının ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə keçirilən sülh danışıqlarına olduqca mənfi təsiri olacaq. Bundan əlavə, Ermənistan rəhbərliyinin məsuliyyətsiz təşəbbüsü bütövlükdə AB-nin sülh prosesində göstərdiyi sülhyaratma cəhdlərinə hörmətsizlik kimi qəbul edilir. Bu planın həyata keçməsi bütün regionda gərginliyin artmasına gətirib çıxaracaq. Bu fikirləri dünyanın bütün aparıcı dövlətləri və tanınmış siyasətçiləri bölüşürlər. Amerikanın siyasət mütəxəssisləri, Böyük Britaniyanın, Almaniyanın, hətta bir çox hallarda Ermənistana dəstək verən Fransanın tanınmış siyasi xadimləri Ermənistanı bu təxribatdan çəkinməyə çağırmışlar. O cümlədən, bu günlərdə mətbuatda daha bir dostumuzun mövqeyi məni xeyli sevindirdi. Fransa Senatının üzvü Natali Qule Ermənistan hökumətinin Xocalı aeroportunu açmaq cəhdini ciddi bir təxribat kimi dəyərləndirmişdir. Dəfələrlə Azərbaycanda olan və reallıqları yaxşı bilən Natali xanımın mövqeyi həmişə ədalətli olmağıyla yanaşı, həm də prinsipiallığı ilə diqqəti çəkir. İndi onun bu məsələdə də adekvat mövqe nümayiş etdirməsi məhz bu prinsipiallıqdan doğur. Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistanın bu addımının münaqişənin sülh yolu ilə həllinə zərbə vuracağını deyən Natali xanım Xocalıda törədilmiş qətliamı əsl soyqırımı adlandırır və söyləyir ki, bu faciə zamanı həlak olanların xatirəsini hər zaman ehtiramla anacaq. Özünü Azərbaycanın fəxri vətəndaşı hesab etdiyini deyən senator istənilən platformada Azərbaycanı tanıtmağa və onun haqlı mövqeyini müdafiə etmək üçün əlindən gələni edəcəyini həmişə vurğulayır. Hadisələrin əsl mahiyyətini bilən və Azərbaycanın ədalətli mövqeyini dəstəkləməyə hazır olan dostlarımızın sayı durmadan artır. Beynəlxalq arenada mövqelərimizin möhkəmlənməsi üçün açdığımız mücadilə tarixi çox kiçik bir dövrdür. Ermənilər qondarma "erməni soyqırımı"nın tanınmasına mütəşəkkil şəkildə hələ yarım əsr bundan əvvəl başlayıblar və hazırda dünyanın 21 ölkəsində istəklərinə nail olublar. Biz isə bu prosesə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kompaniyası çərçivəsində yeni başlamışıq və artıq Xocalı soyqırımını tanıyan ölkələrin sayı ilbəil artmaqdadır. Ağ Evin rəsmi saytında Dağlıq Qarabağ və Xocalı soyqırımı ilə bağlı imzatoplama kampaniyasının uğurlu nəticələri də bütün ictimaiyyətə məlumdur. Əminəm ki, bu istiqamətdə aparılan bütün fəaliyyətlərin nəticəsi olaraq tezliklə daha mötəbər dairələrdə sözümüzü demək və xalqımızın haqlı mövqeyini lazımi səviyyədə qəbul etdirmək imkanı qazanacağıq.

Fəlsəfə elmləri doktoru, professor Oruc Abdullayevin fikirincə, Ermənistanın destruktiv mövqeyi həmişə Dağlıq Qarabağ münaqişəsinin həllinə imkan verməyib.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması diqqət yetirilən əsas məsələlərdəndir. 2012-ci ildə Amerika Azərbaycanlıları Şəbəkəsinin təşəbbüsü ilə ABŞ-ın kütləvi informasiya vasitələrində Azərbaycana

həsr olunmuş 100-ə qədər məqalə dərc olunmuşdur. "20 Yanvar" faciəsinin 22-ci ildönümü, Xocalı soyqırımının 20-cu ildönümü və 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar İsveç, İsveçrə, Finlandiya, Norveç, Niderland Krallığı, Böyük Britaniya, Belçika, Latviya, Litva, Estoniya, Rusiya Federasiyası, Ukrayna, Belarus, Bolqarıstan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Gürcüstan, ABŞ, Kanada, Yaponiya, Yeni Zelandiya, Avstraliya, Misir, Cənubi Koreya, Almaniya, Fransa, Çexiya, Macarıstan, Rumıniya və s. ölkələrdə müxtəlif formatlı tədbirlər təşkil edilmişdir.

Ən nəhayət günümüzun daha bir reallığı göz önündədir: Arkanzas ştatının Senatı Xocalı faciəsini tanıdı. Dağlıq Qarabağda Azərbaycan əhalisinin kütləvi qətliamını tanıdan qətnamə bizim xarici siyasətimizin uğuru olmaqla, həm də ardıcıl dövlət siyasətinin bəhrəsi olaraq diqqəti cəlb edir. Xocalı soyqırımının Arkanzas ştatının parlamenti tərəfindən tam tanınması ABŞ-da ikinci hadisədir. Arkanzas Nyu-Meksikodan sonra ikinci ştatdır ki, Xocalı faciəsinin tanınması üzrə qətnamə qanunverici orqanın hər iki palatasında qəbul edilmişdir. Xatırladaq ki, Nyu-Meksiko parlamenti Xocalı faciəsinə dair qanun layihələrini 2013-cü ilin yanvarında qəbul etmişdir.

Bu məsələ ilə əlaqədar fikirini bildirən Türkiyənın İzmir şəhərində yaşayan həmyerlimiz, Dünya Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvü, iqtisad elmlər doktoru Asif Qurbanov Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda Türkiyənin nə edə biləcəyinə və Azərbaycanın Türkiyədən nə istədiyinə Türkiyə hökumətinin yetərincə kömək göstərdiyini yüksək dəyərləndirir. O, söyləyir ki, 1995-ci ildən bu yana Türkiyədə Xocalı soyqırımı ilə bağlı müxtəlif miqyaslı tədbirlər, yerli və beynəlxalq konfranslar, onlarca mitinqlər təşkil etmiş və keçirmişik. Bu tədbirlərdə Türkiyənin cəmiyyət tərəfindən birmənalı olaraq qəbul edilən və kifayət qədər siyasi çəkisi olan ziyalılar iştirak etmişlər. Vacib və önəmli görüşlərimiz gerçəkləşib. 2012-ci ilin ilin yanvar ayında Dünya Azərbaycanlıları Konqresi idarə heyətinin üzvü kimi Türkiyə Böyük Millət Məclisinin sədri, hörmətli Cəmil Çiçəklə görüşmüş və bir sıra mövzularla bərabər Xocalı soyqırımının TBMM-də gündəmə gəlməsi barəsində görüşümüz oldu. Mən onda hazırladığım materialları TBMM-ə təqdim etmişəm. Hər bir TBMM millət vəkillərinə Xocalı faciəsini ortay qoyan CD-lər vermişəm. Bu barədə AKP qrup başqan vəkili Mustafa Elitaş, CHP başqan vəkili Emine Ülker Tarhan və MHP qrup başqan vəkili Mehmet Şandırla da görüşmüşəm. Bildiyim bir həqiqət var ki, bu işlər daha böyük bir temp ilə davam etdirilməlidir.

2012-ci ildə Leyla xanım Əliyevanın rəhbərliyi ilə keçirilən "Xocalıya Ədalət" kampaniyası bütün dünyaya səs saldı. Dünyanın 150-dən çox şəhəri, 50-dən çox müxtəlif ölkəsi fevralın 25-26-da Azərbaycan həqiqətlərindən xəbər tutmuş oldu.

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında xaricdə yaşayan soydaşlarımızın müstəsna rolu var. Lobbiçilik işinin daha da səmərəli olması üçün diaspor təşkilatlarının fəaliyyət göstərdikləri ölkənin media qurumları ilə yaxınlıq çox vacibdir. Bizdə bu barədə işlər hələ zəifdir və görülən işlərdə medianın rolu da yüksək deyil. Media ilə işləyən mərkəzimiz yoxdur. İnformasiya müharibəsində qalib gəlmək üçün dünyanın nüfüzlu media qurumlarında azərbaycanlı jurnalistlərin təmsil olunması müasir dövrümüzdə diplomatların, iqtisadçıların yetişdirilməsi qədər lazımlı məsələlərdəndir.

Azərbaycanda çalışan iş adamı Kaya Karslı söyləyir ki, son iki yüz il ərzində Cənubi Qafqaz regionunda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar bir neçə dəfə öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalmışlar.20 ildən bəri davam edən Dağlıq Qarabağ münaqişəsini dondurulmuş münaqişə adlandırmaq olmaz, çünki dinc əhali hələ də həlak olur. Bu problem beynəlxalq məsələdir, çünki onun həll edilməmiş qalması təkcə regiona deyil, bütün dünyaya ziyan vurur. Bir daha bildirirəm ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, uzun sürən münaqişədir. Onu aradan qaldırmaq cəhdləri dondurulmuşdur. Təəssüflə qeyd edilmişdir ki, ATƏT-in Minsk qrupunun fəaliyyəti münaqişə zonasında vəziyyəti dəyişməmişdir.

Üstündən illər keçsə də, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki Ermənistan silahlı dəstələri Ermənistan prezidenti Serj Sarkisyanın, Ermənistanın keçmiş rəhbəri Robert Koçaryanın və digər erməni liderlərinin rəhbərliyi və keçmiş SSRİ-nin Xankəndidə yerləşən, o dövrün müasir döyüş silahları ilə silahlanan 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırımı cinayəti hər bir türkü dəhşətə gətirir. 613 dinc sakinin, o cümlədən 63 uşaqın, 106 qadının, 70 qocanın yalnız azərbaycanlı olduğuna görə xüsusi amansızlıq və işgəncələrlə öldürülməsi adi fakt kimi qarşılanmır.

Beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymayan və destruktiv mövqe tutan Ermənistan işğal edilmiş Azərbaycan ərazilərində qanunsuz fəaliyyətini davam etdirməkdədir. Bu cür hallar təkcə Azərbaycan üçün deyil, eyni zamanda, region və bütövlükdə, beynəlxalq aləm üçün çox təhlükəlidir.

"Erməni Araşdırmalar Mərkəzi"nin rəhbəri, fəlsəfə doktoru Qafar Çaxmaqlı deyir ki, Xocalı soyqırımının müxtəlif ölkələrdə, o cümlədən ABŞ-ın ştatlarında tanınması arzularımızın həyata keçməsi deməkdir. Arkanzas

Ştatının Nümayədələr Palatasında Xocalıda baş verənlərin soyqırımı kimi tanınmasını təqdir edirəm və davamını arzulayıram. Azərbaycan diplomatiyası erməni diplomatiyası qarşısına yalnız Xocalı soyqırımı ilə çıxa bilər. Xocalı soyqırımı yaxın tariximizdə baş verən, haqqında kifayət qədər faktları olan soyqırımıdır və əlimizdəki böyük bir sübutdur. Biz bundan istifadə etməliyik.

Mən xeyli vaxtdır ki, Türkiyədə işləyirəm. Türkiyə yalnız bir toplumdan ibarət deyil, burada dinçilər, sosialistlər, kommunistlər var. Hətta keçən il Türkiyədə Xocalı soyqırımı ilə bağlı tədbirlər keçiriləndə buna qarşı çıxanlar da olmuşdu, "erməni düşməndir" deyənlərə də qarşı çıxanlar var idi. Bunu normal qarşılamaq lazımdır. Cəmiyyətdəki ayrı-ayrı təbəqələri Xocalı soyqırımına inandırmaq lazımdır. Xocalı soyqırımı ilə bağlı akademik çevrələrdə birmənalı fikir var. Ayrı-ayrı qəzetlər, müxtəlif qruplara işləyən adamlar fərqli düşünə bilərlər. Bunu da normal qarşılamaq lazımdır. Təbii ki, Türkiyədə də, başqa ölkələrdə də buna qarşı çıxanlar, çağırışlar olacaq, amma biz işimizi görməliyik. Məsələnin ikinci tərəfi də var ki, bu cür yanaşmalardan nəticə çıxarmalıyıq. Türkiyədə qarşımıza həmişə bu məsələni qoyurlar ki, ermənilər 2-3 milyondur, siz isə 10 milyona yaxınsınız, nəyə görə ermənilər torpaqlarınızı işğal edib və siz yenidən müharibə etmirsiniz. Amma onların bir çoxu məsələnin kökünü, torpaqların əslində, kim tərəfindən işğal edildiyini bilmir. Bu fikri söyləyənlər bəzi hallarda haqlı görünə bilərlər. Azərbaycanın çox güclü potensialı var, əhalisi və ərazisi çoxdur. Bunlar doğrudan da düşündürücü məsələlərdir, düşünməyimizə ehtiyac var.

Türkiyə-Ermənistan sərhədlərinin açılmasına münasibətlər yəqin ki, yaddan çıxmayıb. 2009-2010-cu illərdən sonrakı hadisələr göstərdi ki, sərhədlərin açılmasını istəyənlər ilə istəməyənlər arasında dağlar qədər fərq var. Qarsda, İqdırda belə bir fikir ortaya atmışdılar ki, sərhədlər açılsa, bu bölgələr inkişaf edə bilər. Qars bələdiyyəsinin başçısı imza da toplayaraq, Baş nazirə göndərmişdi. Türkiyə cəmiyyətinin özündə də, Ankarada, İstanbulda sərhədlərin açılmasının tərəfdarları var idi. Amma sərhədlərin açılmasının əleyhinə olanların sayı o qədər oldu ki, bu məsələ gündəmdən çıxdı. Bundan başqa isə, ən önəmlisi Türkiyənin dövlət siyasəti var: sərhədlər işğal olunmuş Azərbaycan torpaqları azad olunandan sonra açıla bilər. Digər tərəfdən isə ermənilərin Türkiyəyə qarşı iddiaları var. Ermənilər bu iddialarından da əl çəkməyiblər. Hesab edirəm ki, həm dövlət, həm də ictimaiyyət səviyyəsində birgə mübarizədə bir sıra çatışmamazlıqlar qalmaqdadır. Ayrı-ayrı şəxslər, qurumlar öz səviyyələrində təbliğatlarını qururlar və bu, dövlətin ayrı-ayrı qurumlarının apardığı siyasətə bəzən uyğun gəlir, bəzən də yox... Hesab edirəm ki, erməni təbliğatına qarşı Azərbaycan və Türkiyənin birgə mübarizə aparmasına heç nə mane olmur. Azərbaycan və Türkiyənin hədəfləri, düşməni və ideologiyası da eynidir. Təbii ki, bundan narahat olmaq və məsələyə çox ciddi yanaşmaq lazımdır. Xocalı soyqırımının Meksikada, Avstraliyanın bir ştatında, nəhayət, ABŞ-ın Arkanzas ştatında qəbul olunması qondarma "erməni soyqırımı"na qarşı bir alternativdir. Sonuncu hadisəni, o cümlədən bu qəbildən olan bütün hadisələri alqışlamaq, təqdir etmək lazımdır.

Müstəqillik tarixi o qədər də böyük olmayan Azərbaycan dövlətinin bu gün apardığı ardıcıl xarici siyasət Ermənistanı tam ifşa etməkdədir. Heç şübhəsiz ki, bu iş Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həllinə imkan verməyən destruktiv mövqeyinin sarsıdana və Xocalı soyqırımı bütün dünyada siyasi və hüquqi dəyərini alana qədər davam etdiriləcəkdir. İndi dünyanın hər bir yanında-ABŞ-da, Rusiya və Çində, Avropada, Ərəb ölkələrində, hətta uzaq Avstraliyada Azərbaycanın diaspor təşkilatları qurularaq, həqiqətlərimizin təbliği, Vətənin tanıdılması işi uğurla həyata keçirilməkdədir. Dünyanın müxtəlif ölkələrində məskunlaşan yüzlərlə diaspor nümayəndəsi də yaxşı bilir ki, onun arxasında Azərbaycan kimi güclü bir dövlət dayanıb.

**Namiq ƏHMƏDOV**

"**Xalq qəzeti**".-2013.-21 fevral.-N 40.-S.5.

## Litvada Xocalı faciəsi haqqında filmin təqdimatı keçirilmişdir

Litvanın böyük kinoteatrlarından olan "Vinqisdə" Xocalı faciəsi ilə bağlı ictimaiyyət üçün fərdi təhqiqat aparan litvalı və skandinaviyalı rejissorların hazırladığı "Sonu olmayan dəhliz" ("Endless corridor") sənədli filminin təqdimatı keçirilmişdir.

"Xocalıya ədalət" beynəlxalq kampaniyasının Litva üzrə əlaqələndirmə qrupundan AzərTAc-a bildirmişlər ki, bu ekran əsəri xarici rejissorların Xocalı mövzusu ilə bağlı çəkdikləri ilk sənədli filmdir.

Təqdimat mərasimində Litvanın aparıcı KİV-lərinin nümayəndələri, parlamentin deputatları, dövlət və hökumət rəsmiləri, diplomatik korpusun təmsilçiləri, Azərbaycanın bu ölkədəki səfiri Həsən Məmmədzadə və tanınmış kinematoqrafçılar iştirak etmişlər.

Mərasimi açan rejissor Mindaqus Urbanoviç bildirmişdir: "Biz çalışdıq avropalı tamaşaçılara Qarabağ müharibəsinin ən dəhşətli səhifəsini - təəssüf ki, Qərbdə az tanınan Xocalı faciəsini göstərək".

Filmin prodüseri Andryus Brokas isə demişdir: "Biz üç ildən çox işlədik. Bu müddət ərzində yaradıcı qrupumuz Ermənistandan qovulması faktı da daxil olmaqla bir çox çətinlikləri dəf etmişdir. Amma bütün bunlara baxmayaraq, işimizi yekunlaşdıra bildik".

"Xocalı mənim həyatımı dəyişdi" - deyən ekran əsərinin əsas qəhrəmanlarından biri, jurnalist-tədqiqatçı Riçards Lopaytis filmdən sonra başqa adam olduğunu qeyd etmişdir. O vurğulamışdır ki, onun tədqiqatının məqsədi Azərbaycan xalqının başına gətirilmiş bu dəhşətli hadisə ilə bağlı insanların gözlərini açmaq və kütləvi qırğını törədənləri tövbə etməyə çağırmaqdır.

Ekran əsərinin nümayişi xüsusi olaraq film üçün bəstələnmiş rekviyemin canlı səslənməsi ilə başlamışdır. Nümayişi zamanı sıravi tamaşaçılar hisslərini gizlədə bilməmiş, göz yaşları axıtmışlar.

Filmi izlədikdən sonra fikirlərini bölüşən festivalın direktoru Vida Ramaşkiene demişdir: "Bu ekran əsəri məni sarsıtmış və yeni kəşf olmuşdur. Biz hamımız Dağlıq Qarabağ münaqişəsindən xəbərdarıq, amma bu epizod faciənin bütün dərinliyini və azərbaycanlıların əzablarını hiss etməyə və məsələyə yeni prizmadan baxmağa bizləri məcbur etmişdir. Film əla alınmışdır və biz onu beynəlxalq kino müsabiqələrinin proqramına daxil etmişik".

Filmin daha bir qəhrəmanı, moskvalı jurnalist Viktoriya İvleva demişdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecədən sonra onun həyatında əsaslı dəyişikliklər baş vermişdir. Bu faciədə o, cəmi iki gün əvvəl dünyaya gəlmiş qız uşağını xilas etmiş və bunu həyatının ən əhəmiyyətli hadisəsi kimi qiymətləndirmişdir.

Ekran əsəri erməni hərbi hissələri tərəfindən işğal olunmuş və məhv edilmiş Xocalı şəhəri ilə bağlı tədqiqatdan ibarətdir. Filmdə həmin dəhşətli gecədə möcüzə nəticəsində xilas olmuş iki Xocalı sakininin taleyindən də bəhs edilir. Bu filmin siqnal versiyasının təqdimatı "Xocalıya ədalət" beynəlxalq kampaniyasının dəstəyi ilə Bakı və Moskva şəhərində keçirilmişdir.

"Xocalıya ədalət" beynəlxalq kampaniyası 2008-ci il mayın 8-də, Şuşanın işğalı günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən irəli sürülmüşdür. Hazırda faciəyə siyasi-hüquqi qiymətin verilməsinə yönəlmiş bu kampaniya dünyanın 35-dən çox ölkəsində uğurla həyata keçirilir.

**"Azərbaycan".**-2013.-22 fevral.-N 41.-S.5.

## Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar Azərbaycanın Misirdəki səfirliyində anma mərasimi keçirilmişdir

Xocalı faciəsinin 21-ci ildönümü ilə əlaqədar Azərbaycanın Misirdəki səfirliyində anma mərasimi keçirilmişdir.

Mərasimdə Misirin kütləvi informasiya vasitələrinin nümayəndələri, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar, misirli gənc fəallar və tələbələr iştirak etmişlər.

Tədbiri açan səfir Şahin Abdullayev 1980-ci illərin sonundan başlayaraq Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları və törətdiyi terror əməlləri haqqında ətraflı danışmışdır. Diplomat SSRİ-nin dağılmasından sonra Ermənistanın Azərbaycana qarşı müharibəyə başladığını və Xocalı şəhərinin bu qanlı təcavüzün ilk hədəflərindən biri olduğunu vurğulamışdır. Xocalıya hücumda Xankəndidə yerləşən Sovet İttifaqının 366-cı alayının hərbi texnikasının və şəxsi heyətinin də iştirak etdiyini deyən səfir bu qətliamın insanlıq əleyhinə cinayət olduğunu bildirmiş, hazırda Ermənistan rəhbərliyində olan şəxslərin bu əməllərə görə məsuliyyət daşıdığını diqqətə çatdırmışdır. Mərasim çərçivəsində Xocalı faciəsinə həsr olunmuş "Məhv edilmiş şəhər" sənədli filmi nümayiş etdirilmiş, səfirliyin bəyanatı yayılmış, Xocalı şəhidlərinin xatirəsi sükutla anılmış, fotoguşə təşkil olunmuş, kitablar və digər çap materialları yayılmışdır.

Tədbir Misirin "Qahirə-3" dövlət televiziyası tərəfindən işıqlandırılmışdır.

Xocalı soyqırımı ilə əlaqədar səfirlik tərəfindən həyata keçirilən silsilə tədbirlər çərçivəsində "Qahirə-3" televiziya kanalında faciəyə həsr edilmiş 30 dəqiqəlik sənədli film nümayiş olunmuşdur. Həmçinin "Youm7", "Tahrirnews", "Əl-Dustur" və "Əl-Məsəyə" və digər qəzetlərdə məqalələr dərc etdirilmişdir.

Səfirlik bu istiqamətdə fəaliyyətini davam etdirir.

**Asya HACIZADƏ,**
**AzərTAc-ın xüsusi müxbiri**

**“Azərbaycan”.-**2013.-22 fevral.-N 41.-S.5.

## ABŞ səfiri Riçard MORNİNQSTAR: "Xocalı faciəsi ilə bağlı Ağ Evin rəsmi saytında yerləşdirilən petisiyaya cavab verilməsi istiqamətində iş gedir"

### Qarabağ münaqişəsinin Azərbaycan vətəndaşları üçün nə qədər ürək ağrıdan bir məsələ olduğunu yaxşı anlayırıq

**"Xocalı faciənin 21-ci ildönümü ərəfəsində Ağ evin rəsmi internet səhifəsində yer alan "Biz xalqıq" (We the People) bölməsində Xocalı soyqırımı qurbanlarının anılması və ABŞ prezidentinin bununla bağlı bəyanat verməsi məqsədilə yerləşdirilən petisiya üçün lazımi sayda imza toplanılmışdır. Hazırda həmin müraciətə cavab verilməsi istiqamətində iş gedir. Bu barədə indi nə isə demək hələlik tezdir". APA-nın xəbərinə görə, bu sözləri Kürdəmirə səfər edən ABŞ-ın Azərbaycandakı səfiri Riçard Morninqstar jurnalistlərə açıqlamasında demişdir.**

Səfir Xocalıda günahsız qadınlar, uşaqlar və qocaların qətlə yetirildiyi barədə məlumata malik olduğunu bəyan etmişdir: "İnsanların bu ağrı-acısını yaxşı başa düşürük. Sizi əmin etmək istəyirəm ki, biz Qarabağ münaqişəsinin Azərbaycan vətəndaşları üçün nə qədər ürək ağrıdan bir məsələ olduğunu yaxşı anlayırıq. Azərbaycan xalqının yaşadığı bu ağrı-acılar, çətinliklər barədə ətraflı məlumatımız var. Münaqişə 20 ildən çoxdur ki, davam edir. Bu münaqişənin həlli prosesi mürəkkəb və çətindir. Biz Minsk qrupu çərçivəsində əlimizdən gələni edirik ki, bu məsələ öz həllini sülh yolu ilə tapsın. Mən bu məsələ ilə bağlı Azərbaycanın yüksək vəzifəli şəxsləri və Minsk qrupunun ABŞ-dan olan həmsədri ilə sıx əməkdaşlıq şəraitində işləyirəm. Bu prosesdə irəliləyişin əldə edilməsi üçün yeni ideyaların ortaya qoyulması istiqamətində işləyirik. Münaqişənin nizamlanması bütün tərəflərin marağındadır. Amma gördüyünüz kimi bu, mürəkkəb və çətin prosesdir. Biz birgə işləyərək bu problemlərin sülh yolu ilə həll edilməsi üçün fəaliyyətimizi davam etdirməliyik. Bu istiqamətdə səylərimizi bir az da artırmalıyıq".

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı ilə görüşdə məcburi köçkünlərlə bağlı söhbət apardığını bildirən səfir Riçard Morninqstar qeyd etmişdir ki, Azərbaycan hökuməti məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün xeyli iş görmüşdür: "Amma ümidvarıq ki, bu problem yaxın gələcəkdə öz həllini tapacaq və məcburi köçkünlər də öz doğma yurd-yuvalarına qayıda biləcəklər".

**"Xalq qəzeti".-**2013.-22 fevral.-N 41.-S.6.

## Xocalı soyqırımı erməni vandalizminin dəhşətli səhifəsidir

**Tarix boyu Azərbaycan xalqı ağır faciələrlə üzləşmiş, haqsızlıqlarla qarşılaşmışdır. Xalqımızın başına gətirilən belə faciələrdən biri də məhz Xocalı soyqırımıdır. Sovetlər dönəmində Xocalı adına rəsmi mətbuatda, demək olar ki, rast gəlinmirdi. Təəsüfflər olsun ki, Xocalı tarixə "Xocalı faciəsi" kimi düşdü. Xalqımız haradan biləydi ki, müdhiş Qanlı Yanvar gecəsindən sonra onu, Xocalı soyqırımı kimi faciə də gözləyir.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları və uzun illər dünya ictimaiyyətinə "sülhsevər" ordu kimi təqdim edilən Sovet Ordusunun Xankəndidəki 366-cı motoatıcı alayı Azərbaycanın Xocalı şəhərini sakinləri ilə birlikdə büsbütün məhv edərək, insanlığa silinməz ləkə olan soyqırımı aktını törətdilər.

Bu o dövr idi ki, Azərbaycan 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini yenicə elan etmişdi. Özünə hələ ordu yarada bilməyən yeni dövlətin başına tarixdə görünməmiş bir faciə gətirildi.

Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüşdü. 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qoyulmuşdular. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışdılar. Təsəvvür edin ki, bütün ailə üzvləri öz doğma evlərində şirin yuxuda ikən qəfildən divar yarılır və zirehli texnika içəriyə daxil olur, müxtəlif çaplı silahlardan atəş açılır və günahsız insanlar qanlarına qəltan edilirlər.

Misli görünməmiş bu soyqırımı, kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə xalqımıza deyil, bütün insanlığa qarşı irimiqyaslı cinayət idi. Lakin çox təəssüflər olsun ki, bu faciənin qarşısının alınması üçün respublikanın həmin dövrdəki rəhbərliyi tərəfindən, nəinki zəruri tədbirlər görülmədi, əksinə, faciə haqqında məlumat ictimaiyyətdən gizlədildi.

27 fevral 1992-ci il tarixdə rəsmi mətbuatda "Xocalıda vəziyyət haqqında" Azərbaycan Respublikası Prezidenti mətbuat xidmətinin məlumatı dərc edilmişdi. Xocalı yaşayış məntəqəsi yerlə yeksan edildiyi, 613 nəfər dinc azərbaycanlı qəddarcasına qətlə yetirildiyi halda, yalnız iki sakinin həlak olması göstərilmişdi(?!). Məlumatda daha sonra göstərilirdi ki, Xocalının erməni birləşmələri tərəfindən tutulması haqqında vahiməli şayiələr həqiqətə uyğun deyildir.

Hələ bu azmış kimi, 29 fevral 1992-ci il tarixdə MDB birləşmiş silahlı qüvvələri baş komandanı, aviasiya marşalı Yevgeni Şapoşnikovun Azərbaycan və Ermənistan respublikalarının rəhbərlərinə teleqramı barədə məlumat da dərc edilmişdi. Teleqramda qeyd edilirdi ki, "görülən müsbət tədbirlərə baxmayaraq, Dağlıq Qarabağ ətrafında vəziyyətdə dinc yolla nizamlanmağa doğru meyillər yoxdur". Məntiqə baxın, Xocalı yaşayış məntəqəsinin yerlə yeksan edilməsinə, günahsız insanların kütləvi surətdə, qəddarcasına öldürülməsinə teleqramda "görülən müsbət tədbir" kimi qiymət verilirdi (?!). Teleqramda daha sonra göstərilirdi ki, Baş komandan 366-cı motoatıcı polku Dağlıq Qarabağ ərazisindən çıxarmağı əmr etmişdir. Lakin artıq gec idi. 366-cı motoatıcı polk öz mənfur niyyətini həyata keçirmişdi...

Bəli, həmin vaxtdan artıq 21 il keçir və hamını belə bir haqlı sual düşündürür: Bu faciənin qarşısını almaq mümkün idimi?!

Cavab isə birmənalıdır: Əlbəttə mümkün idi. Ümummilli lider Heydər Əliyevin xəbərdarlıqlarına vaxtında əməl edilsəydi, Xocalı köməksiz qalıb şəhid olmazdı.

Ümummilli lider Heydər Əliyev müdrikcəsinə demişdir: "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır".

Ölkəmizin həmin ağır vaxtlarında dahi şəxsiyyət Heydər Əliyev respublika rəhbərliyində olsaydı, nəinki Xocalı faciəsinin, hətta bundan əvvəl baş vermiş 20 Yanvar faciəsinin, həmçinin, bundan sonra, torpaqlarımızın 20 faizinin itirilməsinin, xalqımızın başına gətirilmiş digər faciələrin də, şübhəsiz ki, qarşısı alınmış olardı.

Xocalı faciəsi kimi kütləvi və amansız qırğın aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlıq əleyhinə törədilmiş qəddar cinayət aktıdır. Erməni millətçiləri Xocalıda bu soyqırımı əməlini törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq və dinc insanları məhv etmək niyyəti güdmüşlər.

Erməni təcavüzü nəticəsində respublikamızın torpaqlarının 20 faizi işğal edilərək 900 yaşayış məntəqəsi zəbt edilmiş, 4366 sosial obyekt, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana, 1831 kino qurğusu, 855 məktəbəqədər müəssisə, 656 poliklinika, ambulatoriya, aptek və digər tibb müəssisəsi, xalqın ibadət yeri olan 10 məscid dağıdılmışdır. Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi, bütün var-dövləti orada qalmışdır. Bununla da respublikamıza təxminən 50 milyard ABŞ dollarından artıq ziyan dəymişdir.

Kütləvi informasiya vasitələrində gedən məlumatlardan göründüyü kimi, ermənilər işğal edilmiş ərazilərdə ötən illərdə ardıcıl kütləvi yanğınlar törətmişlər. Bunların isə respublikamızın flora və faunasına, bir sözlə ekoloji durumuna ciddi zərərini nəzərə alsaq, ölkəmizə vurulan ziyanın məbləği ilbəil, aybay deyil, günbəgün artır. Ümumiyyətlə, bütün bunları nəzərə alsaq respublikamıza vurulmuş ziyanın məbləği 60 milyard ABŞ dollarından artıqdır.

Bu işğalın yalnız maddi nəticəsidir. Bəs mənəvi zərər?!. Atalar demişkən: "Qılınc yarası sağalar, söz yarası sağalmaz". Bu doğrudan da, belədir. Mənəvi ziyanı isə heç nə ilə kompensasiya etmək mümkün deyil.

Ümummilli lider Heydər Əliyev 15 iyun 1993-cü il tarixdə hakimiyyətə qayıtdıqdan sonra, ölkə başçısı kimi bütün xarici səfərlərində dövlət rəsmiləri ilə, iş adamları ilə, ictimaiyyətin nümayəndələri ilə görüşlərində yorulmaq bilmədən Qarabağ həqiqətlərini onlara çatdırmış və beynəlxalq aləmdə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi, bu ərazinin tarixən Azərbaycan torpaqları olması haqqında obyektiv fikrin formalaşdırılmasına çalışmışdır.

Nə qədər ki, Xocalı faciəsi qondarma "Dağlıq Qarabağ problemi" ilə əlaqədardır, bununla bağlı bir məqamı da qeyd etmək, xüsusilə, yerinə düşər. Xalqımız bu problemin beynəlxalq hüquq normalarına müvafiq, dinc yolla yaxın vaxtlarda ədalətli həllini səbirsizliklə gözləyir. Lakin Qarabağ probleminin dinc yolla həlli istisna olduğu halda, şübhəsiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, torpaqlarımızın müharibə yolu ilə geri qaytarılması xalqımızın təbii, ayrılmaz və konstitusiya hüququdur.

Çox təəssüflər olsun ki, Xocalı qətliamından 21 il keçməsinə, hazırda 6 ölkə tərəfindən Xocalı soyqırımı tanınmasına baxmayaraq, bütövlükdə beynəlxalq ictimaiyyət tərəfindən bu soyqırımına lazımı qiymət verilməmiş və bunu törədən cinayətkarlar bu günə qədər öz layiqli cəzalarını almamışlar. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) quruma üzv ölkələrin dövlət başçılarının iştirakı ilə bu ilin fevralın 6-7-də Misirin paytaxtı Qahirə şəhərində keçirilən Xll sessiyası Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı törədilmiş cinayət kimi tanımışdır. Bütün bunlara baxmayaraq, dünyada hələ də ikili standartlar mövcuddur.

**İlham ABBASOV,**
Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru,
hüquq üzrə fəlsəfə doktoru, baş ədliyyə müşaviri

"**Xalq qəzeti**".-2013.-23 fevral.-N 42.-S.3.

## Xocalı faciəsi xalqımızın qan yaddaşıdır

Azərbaycan xalqının tarixinə qanlı sətirlərlə həkk olunmuş hadisələrdən biri Xocalı faciəsidir. Bəşəriyyət tarixində ən qanlı cinayətlərdən biri kimi yaddaşlarda silinməz izlər salmış Xocalı faciəsini damarlarında azərbaycanlı qanı axan hər bir Vətən övladı heç vaxt unutmayacaqdır. Xocalı faciəsi bizim qan yaddaşımızdır.

Xalqımızın tarixində bu cür qanlı hadisələr, məhrumiyyətlər çox olmuşdur. Amma Xocalı müsibəti onların içərisində xüsusi yeri tutur. Xalqımızın həmin günlərdə keçirdiyi iztirabların canlı şahidiyəm. Elə bir dövr idi ki, adi məktəblidən tutmuş respublikanın görkəmli ziyalılarına kimi hamı həyəcanlı idi, faciənin təsirindən şok halına düşmüşdü. Ən ağrılı cəhət o idi ki, ölkəyə rəhbərlik edənlər bu faciə ilə bağlı ortaya konkret mövqe qoya bilməyərək xalqın sorğularına qənaətləndirici cavab verməmişdilər. 1992–ci il fevralın 25–dən 26–na keçən gecə amansız qatil güllələrindən yüzlərlə günahsız insan qurban getdi, xeyli adam müxtəlif dərəcədə xəsarət aldı.

Xocalı 1992–ci il yanvarın 28–də rayon statusu almışdı. Rayon mərkəzi Xocalı isə 7 minlik əhalisinə görə Dağlıq Qarabağın ikinci mühüm şəhəri olmaqla, strateji və taktiki cəhətdən mühüm əhəmiyyətə malik idi. 1991–ci ildən başlayaraq şəhərdə geniş miqyasda tikinti işləri aparılırdı, digər qonşu yaşayış məntəqələrindən və Ermənistanın özündən didərgin düşmüş soydaşlarımızın böyük bir qismi burada yerləşdirilirdi. Bir sözlə, Xocalıya, onun infrastrukturunun inkişaf etdirilməsinə böyük diqqət yetirilirdi. Bunu isə erməni yaraqlıları yaxşı görürdülər, onlar tez–tez yerli sakinləri və məcburi köçkünləri hədələyir, şəhərdən çıxmağı tələb edirdilər.

Ermənilər Xocalıda soyqırımı törətdilər. Yaxşı ki belə ağır zamanda Xocalının sərkərdəsiz, ordusuz qalmış mərd oğulları vardı və onlar son ana qədər şəhərin müdafiəsində durdular. Ancaq düşmən güclü idi, təpədən — dırnağa qədər silahlanmış, şəxsi heyətinə əsasən ermənilərin və keçmiş Sovet Ordusunun zabitlərinin başçılıq etdiyi 366–cı alayın bölmələri Xocalını yerlə–yeksan etdilər, dinc əhalini qana boyadılar. Ermənilər 366–cı alayın köməyilə qanlı faciə törədərək əslində soyqırım aktını həyata keçirtmişdilər.

Sonralar məlum oldu ki, Xocalı müsibətini törədənlərin başında Ermənistanın indiki rəhbərləri, o cümlədən Serj Sarkisyan dursupport. Ən qəribəsi də odur ki, bu adam dövlət rəhbərinə yaraşmayan bir təşəxxüslə həmin hadisədə şəxsən iştirak etdiyini etiraf etmişdir. Deməli bütün baş verənlər əvvəlcədən düşünülmüş planlar imiş, erməni cəlladları növbəti dəfə əllərini qana batırmaq üçün məqam axtarırmışlar.

Mən o zaman hadisələrin canlı şahidi olmuş neçə–neçə insanla bu barədə söhbət etmişəm. Xocalının müdafiəsi o zamankı respublika rəhbərliyini qətiyyən narahat etmirdi. Ermənilərin niyyətlərini yaxşı bilən Xocalı camaatı bəzi müdafiə tədbirlərini görürdülər. Lakin bu bir faktdır ki, erməni qüvvələri həm sayca, həm də hərbi texnika və silah–sursat sarıdan üstün idilər. Şəhər müasir toplardan, ağır texnikadan atəşə tutulur, arasıkəsilməz həmlələrə məruz qalırdı. Mərkəzdə isə hakimiyyət davası gedirdi, iqtidardakı qüvvələr ən əvvəl öz hakimiyyətlərini qoruyub saxlamaq hayında idilər, Xocalının taleyi başlı–başına buraxılmışdı. Xocalıdan əvvəl də Dağlıq Qarabağda bütöv kəndlər yandırılıb yerlə–yeksan edilirdi, dinc vətəndaşlar qətlə yetirilirdi. Bakıdan isə səs gəlmirdi, lazımi təcili tədbirlər görülmürdü. O müdhiş günlərdə Əlif Hacıyev kimi qəhrəman oğulların təkidlərinə baxmayaraq, müdafiə nazirliyinin bir nəfər nümayəndəsi belə şəhərə gəlməmişdi. Şəhərdə hələ 3 min nəfər əhalinin qaldığı yaxşı məlum olsa da, onları çıxarmaqdan ötrü buraya bircə vertolyot da göndərilməmişdi. Bu isə ermənilərin öz bədnam niyyətlərini daha rahat reallaşdırmalarına münbit şərait yaradırdı. Xocalılar yalnız öz məhdud qüvvələri ilə müdafiə olunurdular. Şəhərin müdafiəsində yalnız ov tüfəngləri və avtomatlarla silahlanmış yerli özünümüdafiə dəstələri, az sayda milis nəfərləri dayanmışdılar.

Xocalı faciəsindən 21 il keçir. Bu müddətdə Azərbaycan xalqı öz tarixi–milli ənənələrinə, günahsız qurbanların xatirəsinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Bu tarixi məqamda nə qədər ağır hüzn və kədər içində olsaq da, əminik ki, xalqımız üçün həmin o ağır məqamda onun fədakar oğlu, və dahi rəhbərimiz Heydər Əliyev hakimiyyətdə olsaydı, Xocalı faciəsi kimi müdhiş bir hadisə baş verməyəcəkdi. Ulu öndərimiz hakimiyyətə qayıtdıqdan sonra faciəyə hüquqi–siyasi qiymət verilməsinə nail oldu, əsil həqiqətlər öz yerini tapdı. Ulu öndərimizin layiqli davamçısı cənab İlham Əliyev Xocalı faciəsinin xatirəsinin əziz tutulması, onların ailələrinin və övladlarının təsginliyi üçün çox iş görür.

İnanırıq ki, beynəlxalq qurumlar vaxtında qətiyyət nümayiş etdirsəydilər, müəyyən olunmuş sanksiyalar tətbiq edilsəydi, problemlərin həlli bu qədər uzanmazdı. Beynəlxalq hüquq normaları yetərincə işləsəydi, haqq işimiz çoxdan qələbə çalardı. Bizim güzəştlər limitimiz çoxdan bitib, verdiyimiz şəhidlərin qanını hələ unutmamışıq. Qurbanlarımız çox böyükdür, daha bağışlamalı heç nəyimiz yoxdur. Torpaqdan heç vaxt pay olmur, əgər ermənilər sülh şərtlərimizlə razılaşmasalar, səngərlərə atılmalıyıq. Respublikamızın bütövlüyünü bərpa etməyə qadir olan ordumuz, bu ordunu təmin edəcək iqtisadiyyatımız var. İnanırıq ki, bu sözü deyəcəyik! Elə deyəcəyik ki, düşmənlərimiz nəticə çıxaracaqlar, bir daha üstümüzə gəlməyəcəklər.

Ədalət əvvəl–axır öz yerini tutacaq, qanlı cinayətlərin günahkarları hökmən tarixin məhkəməsi qarşısında cavab verəcəklər. Məlum olduğu kimi, son günlərdə Xocalı soyqırımının tanınması məqsədilə Ağ Evin ünvanına imza toplanması kampaniyası başa çatmışdır. Haqq–ədalətin müdafiəçisi və təminatçısı kimi çıxış edən ABŞ hakimiyyəti bu barədə öz sözünü deyəcəkdir.

Xocalı faciəsi sadəcə olaraq tarixə çevrilməmişdir, bu tarixçəni hər dəfə vərəqlədikcə sanki yaralarımızın qaysağı qopur, qəlbimiz göynəyir. Amma bir təsəllimiz var ki, xalqımız o zaman da sınmadı, əyilmədi.

**Sabir MUSTAFAEV**

**“Respublika”.-**2013.-23 fevral.-N 42.-S.7.

## İlham Əliyev: "Xocalı soyqırımını həyata keçirənlər layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq"

### Bu gün Xocalı soyqırımından 21 il ötür

**XX əsrin faciəsi kimi bəşər tarixinin qara səhifəsinə yazılmış Xocalı soyqırımı artıq bu gün demək olar ki, bütün dünyada, beynəlxalq təşkilatlarda anılmaqdadır. Prezident İlham Əliyevin bununla bağlı imzaladığı Sərəncama əsasən "Xocalıya ədalət", "Xocalını tanı" və bu kimi geniş tədbirlərin beynəlxalq səviyyədə keçirilməsi, xüsusilə, Heydər Əliyev Fondunun bu istiqamətdə ardıcıl fəaliyyət göstərməsi deyilənlərin bariz nəticəsidir.**

Bütün bu əhəmiyyətli tədbirlər çərçivəsində Prezident İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti də bir çox mühüm məqamları özündə əks etdirir.

Son iki əsrdə erməni millətçilərinin tarixi Azərbaycan torpaqları hesabına "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətdiyini vurğulayan dövlət başçısı, onu da qeyd edib ki, XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı bu təcavüzkar siyasətin ən qanlı səhifəsidir: "**Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür**".

Prezident İlham Əliyev, həmçinin, qeyd etmişdir ki, Azərbaycan dövləti erməni faşistlərinin törətdiyi Xocalı faciəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə soyqırımı kimi tanıdılması istiqamətində iyirmi ilə yaxındır ki, məqsədyönlü və sistemli iş aparır. Belə ki, son illərdə "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə hakimiyyət strukturları ilə birgə səmərəli fəaliyyət göstərirlər. Və bununla da ermənilərin mifləri və yalanları ifşa olunur: "Artıq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı bu faktı "insanlığa qarşı törədilmiş kütləvi cinayət" hadisəsi kimi tanımış və üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırmışdır. Pakistan və Meksikanın parlamentlərində bu qətliamın soyqırımı aktı kimi tanınması barədə qətnamə qəbul edilmişdir".

Ölkə başçısı respublikamızın hazırda dünya təhlükəsizlik sistemində və beynəlxalq terrorizmə qarşı mübarizədə mühüm rol oynadığını bildirib və vurğulayıb ki, harada baş verməsindən asılı olmayaraq, Azərbaycan dövləti hər cür irqi ayrı-seçkiliyi, etnik və dini zəmində düşmənçiliyi bütövlükdə bəşər cəmiyyətinə qarşı cinayət hesab edir: "**Dövlətimiz bundan sonra da Xocalı soyqırımına, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına obyektiv qiymət verilməsi və tarixi-hüquqi ədalətin bərpası üçün öz fəaliyyətini davam etdirəcək, bütün siyasi və hüquqi vasitələrlə belə hallara qarşı barışmaz mübarizə aparacaqdır**".

Bu gün heç bir qüvvə Azərbaycanın artan qüdrətinin, inkişafının qarşısını almaq gücündə deyil. Xüsusilə, Ermənistanın bu mövqeyi hər dəfə iflasa uğramaqdadır. Prezident İlham Əliyev bildirmişdir ki, Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir: "**Bu ümummilli hüzn günündə bir daha Xocalı faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Sizi əmin etmək istəyirəm ki, Xocalı soyqırımını həyata keçirənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək, layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır**".

**R.HÜSEYNOVA**

**"Səs".**-2013.-26 fevral.-N 36.-S.3.

## Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzi Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirir

İdeoloji təbliğatın mühüm əhəmiyyət kəsb etdiyi müasir zamanda Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzi birgə layihə çərçivəsində Azərbaycan həqiqətlərini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmağa xüsusi önəm verir.

Heydər Əliyev Fondundan AzərTAc-a bildirmişlər ki, bu məqsədlə Xocalı soyqırımının ildönümü ərəfəsində dünyanın 25 ölkəsində keçiriləcək aksiyalara dəstək məqsədilə xüsusi hazırlanmış ekspozisiya və ingilis dilində bukletlər göndərilmişdir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri vasitəsilə ABŞ, Cənubi Afrika Respublikası, Koreya Respublikası, Belarus, Çexiya, Fransa, Gürcüstan, İndoneziya, İsveç, İngiltərə, İsrail, İordaniya, Kanada, Qətər, Qazaxıstan, Özbəkistan və Yaponiyada təqdim olunan 17 ekspozisiya və nəşrlərlə yanaşı, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İran, İspaniya, Macarıstan, Səudiyyə Ərəbistanı, Türkiyə və Türkmənistan ictimaiyyəti də Xocalıda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qanlı cinayət və vandalizm aktları barədə geniş məlumat əldə edəcəklər. Sərgi ekspozisiyalarında Xocalının işğalı zamanı Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində faciə haqqında dərc edilmiş materiallar təqdim olunacaqdır. Bununla yanaşı, anma mərasimlərində Xocalı soyqırımından bəhs edən filmin nümayişi nəzərdə tutulur. Heydər Əliyev Mərkəzinin yeni hazırladığı "Xocalı soyqırımı" və Heydər Əliyev Fondunun "Qarabağ həqiqətləri" bukletlərində XX əsrin sonunda insanlıq əleyhinə törədilmiş soyqırımı ilə yanaşı, Qarabağın tarixi, münaqişənin başlanması, Ermənistanın təcavüzünün nəticələri, erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti barədə ətraflı məlumat əks olunmuşdur.

Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn bu tədbirlərə müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunurlar.

**“Azərbaycan”.-**2013.-26 fevral.-N 44.-S.8.

## Xocalı soyqırımından 21 il ötür

**Soyqırımı akt nəticəsində 613 Xocalı sakini qətlə yetirilib, 487 nəfər, o cümlədən 76 uşaq yaralanıb, 1275 nəfər əsir götürülüb**

**Ermənilərin Azərbaycanın Xocalı şəhərində törətdiyi soyqırımının 21 ili tamam olur.**

APA-nın məlumatına görə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək, burada yaşayan dinc əhaliyə - azərbaycanlılara qarşı soyqırımı törədib.

Erməni silahlı birləşmələri SSRİ dövründən Xankəndi şəhərində dislokasiya olunmuş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə 1992-ci il fevralın 25-də Xocalı şəhərinə hücuma keçib. Mühasirəyə alınan şəhərin 2500 sakini xilas olmaq üçün Ağdam istiqamətində hərəkət edib. Lakin pusquda dayanan ermənilər dinc sakinləri gülləbaran ediblər. Əsrin faciəsi olan Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Rəsmi hesablamalara görə, qanunsuz erməni silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına 140 milyon manatdan (təxminən 170 milyon ABŞ dolları) artıq ziyan vurulub.

Xocalı soyqırımının ildönümü hər il Azərbaycan və dünyanın bir çox ölkələrində hüznlə qeyd olunur. Azərbaycan səfirlikləri və diaspor təşkilatları hər il fevralın 26-da fəaliyyət göstərdikləri ölkələrdə anım mərasimləri təşkil edir, konfranslar keçirirlər. Bu tədbirlərdə ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən foto-stendlər, sənədli filmlər nümayiş olunur, soyqırımı həqiqətlərini əks etdirən kitablar sərgilənir.

2009-cu ilin fevralından isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya Ədalət” kampaniyası keçirilir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsi və beynəlxalq səviyyədə anılmasını təmin etməkdir. Kampaniyanın beynəlxalq əlaqələndirilməsi www.justiceforkhojaly.org saytı vasitəsilə aparılır.

“**525-ci qəzet**”.-2013.-26 fevral.-N 36.-S.1,3.

## Şahidlərin şahidliyi

**“Xocalı faciəsinin genosidi xatırlamasına heç bir şübhə yeri yoxdur", - bu sözləri Azərbaycan xalqının qatı düşməni, Qarabağ-Xocalı fəlakətlərinin əsas müəlliflərindən biri olan M.Şahnazarov deyib. Şahnazarovun özü hələ 20 il bundan əvvəl Xocalı faciəsini əsl genosid adlandırmışdı. Həmin qanlı olayların ilhamçısı Zori Balayan da bu fikirdədir. O, "Ruhumuzun dirilməsi" adlı "əsərində" yazıb: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu 13 yaşındakı türkə onların atalarının bizim uşaqlara elədiklərini etdim. Onun başından, sinəsindən və qarnından dərisini soydum... Xaçatur təzəcə ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklərlə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha üç türk uşağına elədik... Ertəsi gün bir kilsəyə gedərək 1915-ci ildə ölənlərimiz və ruhumuzun dünən gördüyümüz çirkabdan təmizlənməsi üçün dua etdik. Ancaq biz Xocalını vətənimizin bir parçasını işğal edən 30 min nəfərlik çirkabdan təmizləməyi bacardıq".**

Namərdlər həyasızcasına hər şeyi bax bu cür açıq-aydın ifadə edirdilər! Bu, şəksiz-şübhəsiz həqiqətin dünya miqyasında heç olmasa qismən tanınması üçün azı 20 il lazım gəldi. Bu qanlı faciə Meksikada, Pakistanda, Kolumbiyada, ABŞ-ın bir neçə ştatında tanınıb. Qahirə şəhərində İslam Əməkdaşlıq Təşkilatı üzv dövlətlərinin 39-cu zirvə toplantısında ilk dəfə olaraq Xocalı soyqırımı kimi qeyd olunub. Amerikada 100 mindən artıq imzanın toplanması daha böyük ədalətin yaxınlaşmasından xəbər verir. Təbii ki, bütün bunlar Prezident İlham Əliyevin sistemli surətdə yeritdiyi müdrik xarici siyasətin nəticəsidir.

Xocalı soyqırımının hələ neçə-neçə açılmamış səhifəsi var. Məhəmməd Şükürov Xocalı soyqırımının canlı şahidi olub. Taleyi minlərlə xocalılının taleyinə bənzəyirdi. Faciə zamanı anası Əntiqə Şükürovanı, əmisi Rəşid Kərimovu itirib. Qardaşları Akif və Vaqif də şəhid olublar. Qanlı günlərin hər biri onun gözü önündən, qəlbindən keçib. Məcburi köçkün həyatı yaşayır, Xocalı təhsil şöbəsində işləyirdi. Ötən günlər həmişə qəlbini dağlayır, üzə vurmasa da, için-için ağlayırdı. Xocalı soyqırımının iyirminci ildönümü ərəfəsində "Xocalı: Daş yaddaşım, qan yaddaşım" adlı sənədlər toplusunu hazırlayaraq nəşr etdirmişdi.

Bu günlərdə yenə onunla görüşmək istədim. Eşitdiyim acı xəbər məni sarsıtdı. Dedilər, qəfil qəzada dünyasını dəyişib. Ürəyi həsrətli, qəlbi nisgilli getdi. Onun yana-yana söylədiyi söhbətləri xatırlayıram. O illərin canlı şahidi deyirdi ki, bu qanlı faciə olmaya da bilərdi. Biz mərdi-mərdanə dayanmışdıq. Xocalı o zamankı ölkə rəhbərliyinin biganəliyinə, vaxtında qətiyyətli tədbir görmədiyinə görə əldən getdi. Ermənilərin bu yerlərə ilk irimiqyaslı hücumu 1988-ci il sentyabrın 18-də olub. Həmin gün Xankəndidəki nümayişdən çıxan beş minə qədər ermənininin bir qismi piyada, bir qismi maşınlarla Xocalıya hücum etdi. Şəhərə azca qalmış hücumdan xəbər tutan xocalılılar onların qarşısını aldılar və ermənilərə layiqli cavab verdilər.

Vəziyyətin getdikcə gərginləşdiyini görən xocalılılar könüllü müdafiə dəstələri yaradırdılar. O zaman Xocalının müdafiə qüvvələrinin ixtiyarında çox az sayda avtomat, bir ədəd top, iki ədəd "Alazan" tipli raket qurğusu var idi. Kəşfiyyatçı xəbər gətirdi ki, həmin dövrdə Xocalının ətrafında, ermənilər yaşayan kəndlərdə - Daşbulaq, Mehdikənd, Ballıca, Pirəməki, Noraguğ və Mirzəcanda onların 515 nəfər canlı qüvvəsi, 3 "Alazan" raketi, 10 zirehli transportyoru, 3 PDM-i və bir neçə tankı var idi. Bu az imiş kimi, 1992-ci ilin yanvar ayında Paris yaxınlığında məxfi təlim düşərgəsi yaratmış ASALA erməni terrorçu təşkilatının 26 üzvü mayor Aşin Simonyanın başçılığı ilə Xankəndiyə gəldi. Digər ölkələrdən də terrorçuların quldur dəstələri cəlb olunurdu.

M.Şükürov deyirdi ki, fevral ayının 12-si və 13-də Xocalı qonşu erməni kəndləri tərəfindən atəşə tutuldu və çox keçməmiş eşitdik ki, erməni hərbi qüvvələri Xankəndidən Xocalıya tərəf irəliləyirlər.

Fəlakət göz qabağında idi. Heç olmasa dinc əhalini qorumaq lazım idi. Belə gərgin bir vaxtda, fevralın 13-də Xocalı İcra Hakimiyyətinin sabiq başçısı Elman Məmmədovun səyi ilə sonuncu vertolyotlar gəldi. Onların köməyi ilə 300 nəfər qoca, qadın, uşaq mühasirədən çıxarıldı. Vertolyotlar bir çox səbəbdən istənilən vaxtda uça bilmirdi. Ermənilər yanvar-fevral aylarında Xocalı və Şuşaya gələn yeddi sərnişin vertolyotunu gülləyə tutmuşdular. 1992-ci il yanvarın 28-də Şuşa şəhəri səmasında içərisində 44 nəfər dinc azərbaycanlının olduğu mülki vertolyotun vurulmasından sonra Xocalı ilə hava əlaqəsi də, demək olar, tamamilə kəsildi.

1991-ci il noyabrın 1-dən şəhər artıq mühasirə vəziyyətində idi. 1992-ci il yanvarın 2-dən elektrik enerjisinin verilməsi dayandırıldı. Fevral ayının 19-da Xocalı axşamüstü hər tərəfdən PDM, iriçaplı pulemyot və avtomatlardan bir neçə saat aramsız şəkildə atəşə tutuldu.

Bəlli olduğu kimi, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı soyqırımı baş verdi. Həmin gecə ermənilər üç istiqamətdən Xocalıya hücum etdilər. Genişmiqyaslı hücumda Ermənistan Respublikası silahlı

qüvvələrinin tabeliyində olan qruplar, muzdlu əsgərlər, özünü "Arsax" xalq azadlıq ordusu adlandıran Dağlıq Qarabağın erməni bölmələri və 366-cı rus hərbi alayı iştirak etmişdi.

Bu faciəli gecədə dinc əhalidən 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıq və işgəncə verilməklə öldürülmüş, 76-sı uşaq olmaqla 487 nəfərə ağır bədən xəsarəti yetirilmiş, 1275 sakin - uşaqlar, qadınlar və qocalar girov götürülərək ağılasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qalmışlar. Onlardan 150 nəfəri itkin düşmüşdür. Sonradan əsir götürülənlərdən yalnız 1165 nəfəri geri almaq mümkün olmuşdur. Bu qətliam zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 224 uşaq bir valideynini itirmişdir. Bundan başqa, 230 ailə öz başçısnı itirib. 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuşdur. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil.

Məhəmməd Şükürov Xocalı hadisələrinin gedişi barədə rusların yazdıqları çox ciddi bir sənədi - "Məxfi arayış"ı üzə çıxarıb. Müəllifi Vladimir Savelyevdir. Rusiya Federasiyası Baş Kəşfiyyat İdarəsinin polkovniki. O zaman Dağlıq Qarabağın hərbi hissəsinin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Qanlı qırğının canlı şahidi olmuş polkovnikin dedikləri: "Hər şey gözlərimin önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələr zamanı əlimdən heç nə gəlmədi. Yalnız insanlara əsl həqiqəti söyləyə bilərəm. On doqquz səhifəlik məxfi arayışı həm BMT-yə, Avropa Şurasına, həm də Kremlə, Müdafiə Nazirliyinə, Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. "Oxuyun", - dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi... Bu oyunlara rusları qoşmaqla onları alçaltdılar və zabit şərəfimizə lənət damğası vurdular". V.Savelyev daha sonra yazır: "Mən on addımlıqda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim, sözün tam mənasında, sarsılmışdım... Onları yarım metr qazılmış çalalara atıb üstünü torpaqlayırdılar. Axşamlar çalaların ətrafında itlərin və çaqqalların səs-küyündən, dartışmalarından qulaq tutulurdu, adam vahimələnirdi. Hər yerdən laxtalanmış qan və cəsəd iyi gəlirdi... Mən Bakı hadisələrini də izləyirdim. Hiss olunurdu ki, prezident Ayaz Mütəllibovu aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş Ali Baş Komandandır... Prezident Xocalıda nəyin baş verməsini əsla dərk eləmirdi".

Rus zabitlərinin "Məxfi arayış"dakı məlumatında deyilir ki, birinci batalyonun qərargah rəisi mayor A.Çitçiyan 14 nəfərlik Babayevlər ailəsini "güllədən keçirib". Bu "şücaətə görə" ona 1993-cü ildə Fransa erməni diasporu tərəfindən 150 min dollar və ən böyük "kilsə mükafatı" verilib.

Ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində, ASALA terror təşkilatının Xankəndidə yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allahverdiyan 24 nəfər rus zabit və əsgərinə çoxlu pul paylamışdı. Məsələn, rus zabiti Yevgeni Qolubevə üstündə ASALA yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və beş min ABŞ dolları məbləğində mükafat təntənəli surətdə təqdim edilmişdi. Həmin gün insan qatillərindən biri Anastas İvanova 10 min dollarla yanaşı, İrəvanda onu gözləyən "Hunday" markalı avtomobilin sənədləri verilmişdi.

366-cı motoatıcı alayının komandiri Yevgeni Zadviqarova amansız soyqırımı ərəfəsində ilk tanışlıq üçün 36 min ABŞ dolları "hədiyyə" edilmiş və Xocalı soyqırımından bir gün əvvəl general rütbəsi verilmişdi.

Fevral ayının 24-də general rütbəsi almış Y.Zadviqarov zabitlər önündə çıxış edib demişdir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidi. "...Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya yığışıblar ki, bizim xaçı necə sındırıb, əzsinlər... Xristianlığa qarşı yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq".

Məmməd Ağalaroğlu Nəbiyev ali təhsilli həkimdir. Xankəndidə İşləyirdi. 1988-ci ildə azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılanda Xankəndini tərk etməyə məcbur olub, Cəmilli kəndində fəaliyyətini davam etdirib.

1991-ci il avqust ayının 23-də Şuşadan Cəmilliyə gedəndə ermənilər onun tibb maşınını güllələyirlər. Həmin hadisə zamanı 3 nəfər şəhid olur, 18 nəfər ağır yaralanır. Təsadüf nəticəsində salamat qalan həkim yaralılara yardım göstərir və onları Şuşa xəstəxanasına yola salır.

Girovluqdan canını qurtardıqdan sonra Məmməd həkim Xocalıya qayıdıb polis şöbəsinin döyüşçüləri ilə birlikdə Abdal Gülablıda, Ağdamda və başqa yerlərdə vuruşub. Əlif Hacıyev adına mükafata, əməkdar həkim fəxti adına layiq görülüb, "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub. Hazırda rayon xəstəxanasında işləyir.

Döyüşçü həkim deyir ki, heç vaxt nə ölümdən, nə qan-qadadan qorxmamışam. Amma indi isə balaca bir yaranı görəndə, uşaq qışqırığını eşidəndə, sarsılıram. Fevralın 26-na keçən gecə mən mühafizə postunda idim. Qəfildən hər yanı dəhşətli gurultu bürüdü. Özünümüdafiə batalyonunun döyüşçüləri avtomatla zirehli texnikanın qarşısını almağa çalışsalar da, təpədən-dırnağadək silahlanmış düşmənin güclü müqavimətini qıra bilmirdilər. Mühasirə halqası getdikcə daralır, nankorlar şəhərə doluşurdular. Erməni cəlladları dinc əhaliyə

qarşı amansız divan tutur, işgəncələr verir, adamları kütləvi şəkildə qırırdılar. Güllələr hər tərəfə dolu kimi yağır, hamı birtəhər canını qurtarmağa çalışırdı. Məndən qabaqda anası ilə gedən 10-11 yaşlı uşağı yaraladılar. Onun vahiməli qışqırtısına ermənilər tökülüşüb gəldilər.

Bizim dəstədə olanların hamısını girov götürdülər. Yol gedə-gedə 14 nəfər ağır yaralının qanaxmasının qarşısını aldım. Yaralanan bir deyil, üç deyil, beş deyildi... Paltarlarımı cırıb sarğı kimi istifadə edirdim. Bizə olmazın əzab və işgəncələr verdilər.

Özümdə, sözümdə deyildim. Sonra bildim ki, namərdlər Matan nənənin üç oğlunu - Zakir, Əliyar və Elşadı seçib aparanda yalvarıb-yaxarır ki, heç olmasa Məmməd həkimə dəyməyin, onu mənə bağışlayın.

İşğalın ağır əzablı günləri bir-birini əvəz edirdi.

Həmin qanlı günlərdə o dövrün rəhbərləri - indi demokratiyadan, qeyrətdən, vətən məhəbbətindən dəm vuran müxalifət "başbilənləri" nəinki arxasız, dayaqsız insanların köməyinə gəldilər, hətta müdhiş faciə barədə xalqa vaxtında və düzgün məlumat da vermədilər. Yalnız ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı.

1994-cü il fevralın 24-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə Xocalı məsələsi müzakirə olundu. Ulu öndərin sərəncamı ilə "Xocalı faciəsi günü" elan edildi. Xalqımızın ümummilli lideri Heydər Əliyevlə olan bir görüşü həmişə ehtiramla xatırlayıram. Bu, 1999-cu ilin fevralın 26-da olmuşdur. Prezident iqamətgahında Xocalının müdafiəsində şəhid olmuş milli qəhrəmanların, hünərvər döyüşçülərin valideynlərinə, ailə üzvlərinə "Qızıl ulduz" medalları və "Azərbaycan bayrağı" ordenləri təqdim edilirdi. Həmin görüşdə mənə də "Azərbaycan bayrağı" ordeni verildi. O vaxtdan bəri Azərbaycan hökuməti Xocalı soyqırımı haqqında həqiqətlərin olduğu kimi dünya dövlətlərinə, geniş ictimaiyyətə çatdırılması, bütün bunların əsl soyqırımı kimi tanınması istiqamətində çox iş görür.

Söhbətin bu yerində 4 nömrəli Xocalı məktəbində tarix fənni tədris edən əməkdar müəllim Xalidə Əmiraslanova da gəlib çıxdı. O da Xocalıda törədilən qanlı cinayətlər barədə xeyli fakt söylədi. Onun bir nəslin acınacaqlı taleyi haqqında dedikləri hamımızı sarsıtdı. Xalidə xanım dedi ki, Tofiq Hüseynovun yan-yörəsi adlı-sanlı nəsildən idi. Əvvəl özü öldürüldü, sonra qəfil tufan atası Mirseyibi, anası Minoş xanımı, həyat yoldaşı Məxməri, bacısı Məhbubə xanımı, nəvələri Gülnarəni, Çingizi məhv edib nəslin axırına çıxdılar.

Müəllimə ürəkağrısı ilə axırda dedi ki, bu yaxınlarda biz məktəbdə "Xocalı - ana yurdum" adlı inşa yazılarkən çoxlu acınacaqlı faktın şahidi olduq. İndi biz gərək hər kəsin ata yurdunu bütün incəliyi ilə ayıraq ki, sabah torpaqlar azad olunanda Xocalısız xocalılılar nəsli hər şeyi yerli-yerində öyrənsin, etnik tərkibindən tutmuş etnoqrafik tarixinə kimi.

...Aşağı Ağcakənddən qayıdarkən yolüstü Goranboy rayonda salınmış qaçqın qəsəbəsinə baş çəkdim. Çoxdan tanıdığım məcburi köçkün Rəhman İsmayılovla görüşüb hal-əhval tutanda bir dəstə gənc oğlan və qız əllərində gül-çiçək soyqırımı abidəsini ziyarətə gedirdi. Rəhman bizi orta yaşlı bir xanımla tanış etdi. Dedi ki, əri şəhid olandan bəri ailəni dolandırıb ərsəyə çatdırıb. Bu gün-sabah balaca qızının xeyir işidir. Məktəbdə əlaçı yetirmələri ilə fəxr edir, onların şərəfinə xüsusi lövhələr düzəldirlər. Yusif Yusifli Ankara Polis Akademiyasında, Ləman Rəhimova Diyarbəkir şəhərinin Dicli Universitetinin tibb fakültəsində təhsil alırlar. Aytən Yusifova Güzey Kıbrız Doğo-Akdeniz Universitetində oxuyur. Yaşa Məmmədovun da bir oğlu, bir qızı Türkiyədədir. Elnarə Yedditəpə Universitetində, Ramin isə Boğaz İç Universitetində oxuyurlar. Xocalılılar mərddirlər, mətindilər, çox təmkinlidirlər. Di gəl ki işğalçıların əməllərindən, soyqırımı faciəsindən söz düşəndə qəzəbləri yerə-göyə sığmır.

Qəsəbədə şəhid atası İsaq Ağalarovla da rastlaşdıq. Evlərinə dəvət edəndə tərəddüd etdiyimizi görüb dedi ki, Prezident İlham Əliyev də qəsəbənin açılışı günü bizim ailənin qonağı olub. Sizə dağ otlarından dəmlənmiş çay verməmiş buraxan deyiləm.

Çay süfrəsi arxasında ağrılı-acılı söhbət xeyli çəkdi. Yorulanda İsaq Ağalarov dərindən nəfəs alıb dedi:

- Bu yerlərdə kimi dindirsəniz, ölkə rəhbərinin bizlərə göstərdiyi tükənməz qayğıdan razılıq edər. Xocalı qırğınına gəldikdə, bu faciənin dünya miqyasında getdikcə daha çox tanıdılması ermənilərin iç üzünün faş olması hamımızda belə bir inam yaradıb ki, düşmən tapdağı altında qalan torpaqlarımız tezliklə azad olunacaq və biz Yer üzərindən silinən Xocalının yerində əvvəlkindən qat-qat gözəl şəhər salacağıq. Çünki artıq bizim güclü iqtisadiyyatımız qüdrətli ordumuz, başlıcası isə müdrik Prezidentimiz var.

**Əhməd İSAYEV.**

**"Azərbaycan".-**2013.-26 fevral.-N 44.-S.6.

## Xocalı soyqırımı: gizlinlər və həqiqətlər

**Ermənistanın hərbi separatçı birləşmələri və Dağlıq Qarabağın silahlı quldur dəstələri Xankəndidəki 366-cı Sovet alayının hərbçiləri ilə birlikdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində beynəlxalq miqyaslı, ağır və qanlı cinayət törətdilər. Bu müstəqil Azərbaycanın genefonduna qarşı açılan ən böyük atəş idi. Nəticədə regionda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" 9 dekabr 1948-ci il tarixli Konvensiyasının, eləcə də 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarının tələbləri pozuldu. Azərbaycan xalqı erməni genosidinə məruz qaldı.**

Soyqırımın ildönümü günlərində Xocalıda törədilmiş qətliam barədə hərbi və strateji qurumların aşkara çıxardığı fakt və materialları oxuculara təqdim edirik.

Hələ 1988-ci ildə ermənilər Xankəndidə yaşayan azərbaycanlılara qarşı kütləvi hücumlar təşkil edib, evlərini yandıraraq şəhərdən məcburən çıxarmış, azərbaycanlılara qarşı zor tətbiq edərək, əmlaklarını qarət etmişdilər. Xankəndidə yaşayan 15 min nəfərdən çox azərbaycanlı şəhərdən məcburən köçürülmüşdü. 1988-1991-ci illərdə Ermənistan tərəfindən Dağlıq Qarabağ ərazisinə qanunsuz yolla silahlı dəstələr yeridilərək həmin ərazidə yaşayan azərbaycanlı əhaliyə qarşı mütəmadi olaraq terror aktları həyata keçirilirdi.

1991-ci ilin sentyabrından başlayaraq ermənilərin azərbaycanlıların yaşayış məntəqələrinə basqınlarında keçmiş SSRİ-yə məxsus, Xankəndidə yerləşən 366-cı motoatıcı alayın komanda heyəti və hərbi texnikası da iştirak etmişdir. Həmin vaxtdan ermənilər Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalini son nəfərinə kimi qırmaq məqsədilə kənd və şəhərləri mühasirəyə alır, dinc əhaliyə qarşı müxtəlif çaplı odlu silahlardan istifadə etməklə, ağır hərbi texnika vasitəsilə hücumlar edir, mühasirədən çıxıb qaçmağa cəhd edən şəxsləri isə yollarda, meşələrdə pusqu quraraq məhv edirdilər.

24 sentyabr 1991-ci ildə erməni silahlı dəstələri 366-cı alayın hərbi texnikasının köməyi ilə əhalisi ancaq azərbaycanlı olan Ağdərə rayonunun İmarət Qərvənd kəndinə basqın etmiş, kənd əhalisinin bir hissəsini xüsusi amansızlıqla qətlə yetirmişlər. Azərbaycanlıların bütün əmlakları qarət olunmuş, evləri yandırılaraq xarabalığa çevrilmişdir. 30 oktyabr 1991-ci ildə Tuğ və Səlakətin kəndləri, 12 noyabr 1991-ci ildə Axullu, 19 noyabr 1991-ci ildə Xocavənd, 15 dekabr 1991-ci ildə Cəmilli kəndləri də erməni silahlı qüvvələri tərəfindən 366-cı alayın hərbi texnikası və komanda heyətinin iştirakı ilə işğal olunmuşdur. Həmin kəndlərin azərbaycanlı əhalisinin bir hissəsi məhv edilmiş, bir hissəsi isə bütün əmlaklarını ataraq qaçmağa məcbur olmuş, evləri yandırılmışdır.

Erməni silahlı qüvvələri və terrorçu dəstələri 1991-ci ilin dekabrından başlayaraq Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə amansız və ardıcıl hücumlara başladılar. Bütün bu kəndlərin işğalı zamanı azərbaycanlılar vəhşicəsinə, xüsusi amansızlıqla öldürülmüş, kəndlər isə yandırılmışdır.

Xocalı Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsi idi. 1990-cı ildə şəhər statusu almışdı. 1991-ci ilin məlumatına görə, əhalisinin sayı 7 min nəfər idi. Dağlıq Qarabağdakı yeganə təyyarə meydanı Xocalıda yerləşirdi. Erməni separatçıları, silahlı muzdlu dəstələr, terrorçu qruplar Xocalıda 7 min nəfər silahsız azərbaycanlıya ən dəhşətli və amansız divan tutdular.

Erməni silahlı birləşmələri həmin vaxt Xocalını hər tərəfdən mühasirəyə almışdılar, yolları, keçidləri tutmuşdular. Elektrik enerjisi yox idi. Xocalının xarici aləmlə əlaqəsi 1991-ci ilin noyabrından etibarən ancaq radiotelefonla və mülki vertolyotlarla idi. 28 yanvar 1992-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağ üzərində Azərbaycan Hava Yolları Dövlət Şirkətinə mənsub Mİ-8 markalı mülki vertolyot vurulduqdan və xeyli azərbaycanlı həlak olduqdan sonra Xocalı şəhəri ilə hava əlaqəsi də kəsilmişdi.

25 fevral 1992-ci il də saat 22 radələrində erməni silahlı qüvvələri Xocalı şəhərinə 366-cı motoatıcı alayının komanda heyəti və hərbi texnikası ilə birgə hücuma keçmişdi. Mayor Ohanyan Seyran Muşeqoviçin komandası (bu gün işğal olunmuş Dağlıq Qarabağdakı separatçı rejimin müdafiə naziridir) altında, 366-cı alayın 2-ci batalyonu və Yevgeni Nabokixin komandası altında 3-cü batalyonu, 1-ci batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviçin rəhbərliyi ilə Dağlıq Qarabağda ağır cinayətlər törətmiş, etnik təmizləmə siyasəti aparılmışdır.

İstintaqla müəyyən edilmişdir ki, erməni silahlı qüvvələri Xocalı şəhərinə quldurcasına gecə saat 22 radələrində basqın etmişdir. Əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutmuşlar. Sonra isə çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar vasitəsilə şəhərə daxil olmuşlar. Evlərində yatmış dinc əhalini vahiməyə salaraq vəhşicəsinə məhv etməyə başlamışlar. Bu zaman qadın, uşaq və ya qocaya aman vermədən qarşılarına çıxanı atəş yağışına tutaraq tank, PDM və digər texnika altına salaraq əzmiş, məhv etmişlər.

Azğınlaşmış ermənilər azərbaycanlıları xüsusi amansızlıqla işgəncə verərək öldürmüşlər. Onlar mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları da yollarda, keçidlərdə, meşələrdə pusqu quraraq tutur, vəhşicəsinə məhv edir, meyitlərə od vurub yandırmışlar.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təhqiqatları, meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri ilə ermənilərin və 366-cı alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz işgəncə, vəhşilik faktları: baş dərisinin soyulması, bədən üzvlərinin kəsilməsi, erməni qəbrinin üstündə azərbaycanlı başının qurbanlıq kimi kəsilməsi faktları müəyyən edilmişdir. Silahlı quldurlar qadına, qocaya və uşağa da fərq qoymadan hamıya işgəncə vermişlər. Qadınların döşlərinin kəsilməsi adi hal olmuşdur.

Müəyyən edilmişdir ki, 1956-cı ildə anadan olmuş Orucov Telman Ənvər oğlu Xocalı şəhərindən mühasirədən çıxıb qaçarkən Naxçıvanik kəndi yaxınlığında ermənilər onu güllə ilə vurub öldürmüş və başının dərisini soymuşlar. 1963-cü ildə anadan olmuş Mustafayev Vidadi Şəfa oğlu, 1962-ci ildə anadan olmuş Nuriyev Hafiz Yusif oğlu, 1968-ci ildə anadan olmuş İlyasov Əhməd Məmməd oğlu və başqalarının başı kəsilmişdir. Bakıdan olan Bədəlov Tofiq, 1961-ci ildə anadan olmuş Rəcəbov Cəbrayıl Mehti oğlu tankın tırtılları altına atılmış, gözləri çıxarılmış, qulaqları kəsilmişdir.

Məmmədova Tamara Səlim qızı, Dadaşova Əsli Bəbir qızı, Əmirova Mahı Bəbir qızı, Hümbətova Ənahət Eldar qızı, Nuralıyeva Dilarə Oruc qızı və başqalarının gözləri çıxarılmış, döşləri kəsilmişdir. D.Nuralıyevanın qızıl dişləri isə öldürüldükdən sonra çıxarılmışdır. Səlimov Bahadır Mikayıl oğlu, Aslanov İqbal Qulu oğlunun bədən üzvləri kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmışlar. Səlimov Arzu Bahadır oğlunu tutaraq, körpə övladının gözü qarşısında dəmir dəyənəklə işgəncə verərək öldürmüşlər. Kərimova Firəngül Məhəmməd qızının bədəni tam doğranmış, gözləri çıxarılmış, qulaqları və döşləri kəsilmişdir.

Erməni separatçılarının terrorçuluğu ilə bağlı 27 fevral 1992-ci il tarixdə Qarabağ üzrə Rayonlararası Prokurorluq tərəfindən Azərbaycan Respublikası CM-nin 70-ci maddəsi, 94-cü maddənin 4.6-cı bəndləri, 255-ci maddənin "v" bəndi ilə cinayət işi qaldırılmışdır.

1992-ci ilin fevralın 28-də Vyanada (Avstriya) nəşr edilən "Kudir" qəzeti belə bir məlumatı dərc edir: "...Keçmiş Sovetlər İttifaqının məkanlarından birində baş verən dəhşətli yanğınlar fevralın 25-dən davam edir. Ermənilər bir yerə yığışaraq, rusların köməyi ilə Qara şəhəri (Qarabağı - R.N.) viran etdilər. Moskvanın Vyanadakı diplomatlarından olan Oleq Aleksandrviç Ayvazyan iddia etdi ki, onun heç nədən xəbəri yoxdur" (?).

İspaniyada nəşr edilən "Levante" qəzeti isə 1992-ci ilin martın 3-də Valensiyadakı erməni icmasının başçısı Leon Toroyanın müsahibəsini dərc edir. O deyir: "...Ucqar bir yerdə torpaqlarımız uğrunda vuruşduq. İnsan azadlıq uğrunda vuruşa-vuruşa özünü dərk edir. Biz ermənilər indi-indi ayağa qalxırıq. Hər yerdə torpağımızı əlimizdən alıb, bizi qovublar..." (?).

1992-ci ilin martın 26-da isə eyni qəzetdə Kanada ermənisi, hüquqşünas Vaskel Sitaryan çıxış edərək göstərir: "...Biz ermənilər özümüz-özümüzü dünyada rüsvay etdik. Bizim üçün ağır olan beynəlxalq məhkəmələr qurulacaq. Kimdir erməni millətini məhkəmə qapılarına sürükləyən?...".

Törədilmiş cinayətlərin nəticələri ağır, miqyası geniş idi. Yaradılmış "Xocalı İstintaq Qrupu" bütün baş verənləri imkan daxilində araşdırır, yeni fakt və sənədləri üzə çıxarırdı. Qrupun üzvləri Tbilisi şəhərinin Vaziani stansiyasında Xocalıda cinayət törətmiş 366-cı alayın komandiri Y.Y.Zarviqorovu və alayın digər zabitlərini dindirməyə səy göstərsələr də, Xankəndi hərbi qarnizonunun keçmiş prokuroru Lazutkin, Zaqafqaziya Hərbi Dairəsi Qoşunları Komandanının müavini, general Ohanov (milliyyətcə ermənidir) müstəntiqlərə maneçilik törədib dindirmələrə imkan verməmişdilər.

İlkin olaraq müəyyən edilmişdi ki, Xocalıda erməni quldurları vəhşicəsinə, xüsusi amansızlıqla 339 nəfər azərbaycanlını öldürmüş, 371 nəfəri əsir götürmüşlər. Onlardan əksəriyyəti müxtəlif vasitələrlə azad edilmişdir. 30 nəfər Xocalı sakini isə indiyədək ermənilərin əsirliyində qalmaqda davam edir. 421 nəfər Xocalı sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq, məhv olub sıradan çıxıb. Aparılan istintaq zamanı müəyyən edilmişdi ki, Xocalı hadisələri zamanı 120 nəfər də itkin düşüb.

Xocalı beynəlxalq terrorizminin və separatizmin qurbanı oldu. Bu işğalçılıq siyasətinin də başında erməni silahlı birləşmələri, cinayətkar qruplar dayanırdı. Az sonra onların bir qismi Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında müxtəlif vəzifələrə təyin edilmişdi.

İstintaq zamanı müəyyən edilmişdi ki, Ermənistan Respublikası Yuxarı Qarabağda münaqişənin ilk günlərindən silah, döyüş sursatı, hərbi texnika ələ keçirərək, silahlı dəstələr yaradılması sahəsində güclü fəaliyyətə başladığı, Azərbaycan ərazisinə təxribatçı qruplar göndərdiyi bir vaxtda respublika rəhbərliyi müdafiə qüvvələrinin yaradılmasını ləngitmiş, gözləmə mövqeyi tutmuşdu.

31 avqust 1991-ci il tarixdə SSRİ müdafiə naziri Y.Şapoşnikov Azərbaycan Respublikasının o vaxtkı prezidenti Ayaz Mütəllibova məktubla müraciət edib, müttəfiq respublikalarda milli qvardiya və ya Müdafiə Nazirliyi yaratmaq təklifi irəli sürmüşdü. Mərkəzin bu təşəbbüsündən sonra respublika prezidenti 5 sentyabr 1991-ci il tarixli fərmanla Azərbaycan Respublikası Müdafiə Nazirliyi yaratmış, müdafiə naziri vəzifəsinə Bərşatlı Valeh Əyyub oğlunu təyin etmiş, bununla da işini bitirmişdi. Faktiki olaraq ordu quruculuğu işi ilə heç kim məşğul olmamışdı. Müdafiə Nazirliyi və Silahlı Qüvvələr yalnız kağız üzərində yaradılmışdı.

SSRİ Silahlı Qüvvələrinin 4-cü Ordu hissələri Azərbaycan Ali Sovetinin 9 oktyabr 1991-ci il tarixli qərarı ilə milliləşdirilərək, respublika prezidentinin sərəncamına verilmişdi. Lakin ordu komandanlığı hissələrin inventarlaşdırılıb, respublika tabeçiliyinə keçirilməsinə imkan verməmişlər. Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyinin qorxaqlığı, cəsarətsizliyi və Azərbaycan Xalq Cəbhəsinin keçirdiyi ağılsız tədbirləri nəticəsində hər şey pozulurdu. Faktiki olaraq Azərbaycan dövləti başsız, ordusuz, müdafiəsiz qalmışdı. Onun dağılması, parçalanması labüd idi.

Altı ay ərzində dörd müdafiə nazirinin dəyişdirilməsi respublika silahlı qüvvələrinin qoşun kontingentinə böyük psixoloji, mənəvi ziyan vurmuşdu (V.Bərşadlı 05.09.1991-ci ildən 11.12.1991-ci ilə kimi, T.Mehtiyev 12.12.1991-ci ildən 11.02.1992-ci ilə kimi, Ş.Musayev 11.02.1992-ci ildən 24.02.1992-ci ilə kimi, T.Əliyev 24.02.1992-ci ildən 07.03.1992-ci ilə kimi müdafiə naziri işləmişlər).

Oktyabr-dekabr aylarında keçirilməli olan payız çağırışı üç ay gecikdirilmişdi (çağırış barədə fərman Respublika Prezidenti tərəfindən 5 dekabr 1991-ci ildə verilmiş, çağırış kompaniyası isə 1991-ci ilin dekabrından 1992-ci ilin 1 martına kimi keçirilmişdi). Halbuki qüvvədə olan hərbi təlimatlara görə bir döyüşçünün hazırlanmasına üç ay vaxt tələb edilir. Kurslara görə, gənc döyüşçünün hazırlıq proqramı 72 saat, döyüş hazırlığı proqramı 120 saat, mütəxəssis hazırlanması proqramı 520 saat olduğu nəzərə alınarsa, çağırışın üç ay gecikməsi nəticəsində respublikamızın silahlı qüvvələrinin yaradılması prosesinə hansı ziyan vurulduğu aydın olur.

O vaxt ordu sıralarına çağırış da yarıtmaz təşkil olunurdu. Müdafiə naziri və respublikanın hərbi komissarı vəzifəsini eyni vaxtda icra edən T.Mehtiyev bütün çağırışçıların ordu sıralarına aparılmamasının səbəbini 4-cü Ordunun kazarmaları təhvil verməməsində görürdü. Halbuki, istintaq zamanı müəyyən edilmişdi ki, respublikamızda kifayət qədər çağırışçı qəbul edib, döyüşçü hazırlamaq üçün baza var idi. Bu hərbi-təlim bazalarında 30 min döyüşçü hazırlamaq imkanı olub. Eyni zamanda, 1992-ci ilin yanvar—fevral aylarında təşkil olunmuş hərbi hissələrə də biganə yanaşılırdı.

Müdafiə naziri, general V.Bərşadlının 19 noyabr 1991-ci il tarixli əmri ilə respublikanın Ermənistan və Dağlıq Qarabağla sərhəd olan 22 rayonunda, o cümlədən də Xocalı şəhərində ərazi özünümüdafiə batalyonları yaradılmışdı. Xocalı şəhər özünümüdafiə batalyonu, əsasən, Xocalı əhalisindən təşkil olunmuşdu. Batalyonun komandiri Xocalı şəhər orta məktəbində hərbi təlim üzrə müəllim, ehtiyatda olan baş leytenant Tofiq Hüseynov təyin edilmişdi. Batalyonun şəxsi heyəti 237 nəfər zabit və əsgərdən ibarət idi.

Xocalı şəhəri uzun müddət ermənilərin mühasirəsində olmuşdu. Şəhərə gediş-gəliş hərbçilərin müşayiəti ilə və ya hava yolu ilə həyata keçirilirdi.

1991-ci ilin noyabrında keçmiş SSRİ DİN qoşunları Dağlıq Qarabağdan çıxarıldıqdan sonra Xocalıya quru yolla gediş-gəliş tam kəsilmişdi. Xocalı ilə əlaqə ancaq Zabrat xüsusi aviasiya birliyi “Azalaero”nun vertolyotları vasitəsilə həyata keçirilmişdi. 28 yanvar 1992-ci ildə Ağdam—Şuşa marşrutu ilə uçan vertolyot ermənilər tərəfindən vurulduqdan sonra Xocalı şəhəri ilə vertolyot əlaqəsi də kəsilmişdi.

Faciə baş verən ərəfədə yalnız bir dəfə Xocalı şəhərinə Mİ-26 markalı nəqliyyat vertolyotu uçmuş və 300 nəfərdən çox sakin Xocalıdan çıxarılmışdı. Sonralar vertolyot üçün dəfələrlə müraciət edilməsinə baxmayaraq, MDB hərbi vertolyot eskadrilyasının komandiri Zolotuxin Xocalı şəhərinə vertolyot göndərilməsindən imtina etmişdi. Bu məsələ ilə əlaqədar müraciət edən şəxslərə isə Zaqafqaziya Qoşunları Hərbi Dairəsinin komandanının müavini Qrekov və başqa yüksək rütbəli zabitlər Azərbaycanın MDB-yə daxil olması zərurətinə işarə etmişlər.

Xocalının mühasirədə olması, əhalinin çıxılmaz vəziyyətə düşməsi, şəhərin ermənilər tərəfindən işğal olunacağının labüdlüyü hamıya: hakimiyyətdə, eyni zamanda, müxalifətdə olan qüvvələrə yaxşı məlum idi. Dağlıq Qarabağda hadisələrin inkişafı da bunu göstərirdi. Lakin respublikanın prezidenti Ayaz Mütəllibov və başqa rütbəli məmurlar, Təhlükəsizlik Şurasının üzvləri, sanki, qəflət yuxusunda idilər.

**Rövşən NOVRUZOĞLU,**
politoloq-publisist
“**Xalq qəzeti**”.-2013.-24 fevral.-N 43.-S.3.

## Xocalının məhv edilən maddi-mədəniyyət abidələri

**Qarabağın qanlı-qadalı illərində daha dəhşətli qırğınlar törədilən, yer üzündən silinən bir isti yurd idi Xocalı. Qucağında, qundağında körpəsi boğulan, yurd-yuvası dağıdılan bir ana idi sanki - fəryadı qulaqlardan getməyən, diri-diri tonqallara qalanan balalarına əli yetməyən!**

Azərbaycanın mədəni irsini hədəf seçən ermənilər işğal etdiyi torpaqlardakı maddi-mədəniyyət abidələrimizi saxtalaşdıraraq erməniləşdirməyə çalışmış və buna müəyyən mənada nail olmuşlar. Belə ki, işğal altında qalan maddi-mədəniyyət abidələrimiz tamamilə və qəddarlıqla məhv edilmişdir. Ələ keçirilən ərazilərdə ermənilər 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırmışlar. Nadir əhəmiyyətə malik 40 min eksponat talan olunmuş, 44 məbəd və 18 məscid təhqir edilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və nadir incilərdən sayılan əlyazmaların külü göyə sovrulmuşdur.

Dağlıq Qarabağ ərazisində və ətraf rayonlarda Azərbaycanın milli-mədəniyyət ocaqlarına erməni təcavüzkarları tərəfindən vurulan ziyanı dəqiq hesablamaq mümkün deyil, çünki zaman dəyişmiş, qiymətlər yenidən formalaşmışdır. Eyni zamanda talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələri hesab olunmuşdur. Əhaliyə vurulmuş mənəvi-psixoloji zərbə ilə bərabər, ilkin və sonadək müəyyənləşdirilməmiş məlumatlara əsasən, Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox ziyan dəymişdir.

Xocalı strateji mövqeyə malik idi. Erməni vandalları isə bunu yaxşı bilirdilər. Qədim yurd yerlərimizdən biri olduğu üçün Xocalı tarixinin ululuğu, mədəniyyətinin zənginliyi ilə də seçilirdi. Orada qədim tarixə malik abidələr də işğal zamanı darmadağın edildi. Bu isə o deməkdir ki, vandalizm siyasəti yürüdən ermənilər tariximizi və mədəniyyətimizi yer üzündən silməyi qarşılarına əsas məqsəd qoyublar. Çünki bunun arxasında "Böyük Ermənistan" xülyası dayanır. Yandırılıb külü göylərə sovrulan şəhərin yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyəti abidələri var idi. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən abidələr - daş qutular, kurqanlar və nekropollar tapılmışdı. Memarlıq abidələrindən olan dairəvi qəbir (1356-1357-ci illər) və mavzoley (XIV əsr) vardı. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək, gildən ev əşyaları aşkar edilmişdi. Tapılmış muncuq dənələrinin birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmışdı.

Biz ermənilərin törətdikləri amansız soyqırımı nəticəsində Xocalıda yer üzündən silinən maddi-mədəniyyət nümunələrinin, tarixi və dini abidələrin siyahısına nəzər salanda bir daha düşmənin məkrli, çirkin siyasətinin şahidi olur və bunu dünyanın sivil xalqlarının diqqətinə çatdırmaq istəyirik. Budur adları mədəniyyət tariximizin səhifələrinə yazılan və Xocalıda ermənilər tərəfindən məhv edilən maddi-mədəniyyət nümunələrimiz, hansı ki, bu gün onların heç birindən əsər-əlamət qalmayıb: daş qutu nekropolu - tunc dövrü (Xocalı şəhəri Əsgəran dağı), nekropol - ilk tunc və orta tunc dövrü (Xankəndidən cənubda), Xocalı kurqanları - ilk tunc və dəmir dövrü, küp qəbirləri nekropolu - ilk orta əsrlər (Xankəndinin ərazisində), kurqan - dəmir dövrü (Xankəndi yaxınlığında), Xankəndi kurqanları - tunc dövrü (Xankəndidən şimalda), Xaçınçay nekropolu - ilk tunc və orta tunc dövrü (Seyidşən kəndindən şimal-şərqdə), küp qəbirləri nekropolu - tunc dövrü (Armudlu kəndindən 2 km İlis kəndinə tərəf), kurqan - tunc dövrü (Armudlu kəndindən 15 km aralı, İlis çayının sahilində), daş qutu nekropolu - dəmir dövrü (Armudlu kəndinin qəbiristanlığı yaxınlığında), köhnə qəbiristanlıq - tunc dövrü (Çanaqçı kəndi), daş qutu nekropolu - dəmir dövrü (Saruşen kəndi), daş qutu nekropolu - dəmir dövrü (Saruşen kəndi, dağın ətəyində), alban məbədi - 905-ci il (Şuşa kəndi), dairəvi məbəd (1356-1357-ci illər, Xocalı şəhərində), türbə - XlV əsr (Xocalı şəhəri), alban məbədi - 1100-cü il (Çanaxçı kəndi), alban məbədi - 1065-ci il (Çanaxçı kəndi), alban məbədi - 1122-ci il (Xansıx kəndi), alban məbədi - 1100-cü il (Xaçmaz kəndi), alban məbədi - 1202-ci il (Armudlu kəndi), Qala - X əsr (Maşxmat kəndi), Qırxlar qalası - orta əsrlər (Badara kəndi), Məbəd kompleksi - VII əsr (Badara kəndi), Qala - IX əsr (Daşbaşı kəndi), Əsgəran qalası - XVIII əsr (Əsgəran qəsəbəsi), Aslan qalası - IX əsr (Anabert kəndi), Məbəd - XIII əsr (Xanabad kəndi).

Məhvə məhkum edilən sərvət təkcə bu sadaladığımız maddi-mədəniyyət nümunələri deyildi. Əhalisi əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olan bu şəhərdə toxuculuq fabriki, 2 orta və 2 səkkizillik məktəb fəaliyyət göstərib. Son illər baş vermiş hadisələrlə əlaqədar Fərqanədən (Özbəkistan) qaçqın düşmüş Məshəti türklərindən ibarət 54 ailə, həmçinin indi Ermənistandan və Xankəndidən zorla çıxarılmış soydaşlarımız da bu şəhərdə məskunlaşmışdılar.

Sonralar erməni tərəfi "etiraf" etmişdi ki, silahlı daşnak dəstələrinin əsas məqsədi Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əsgəran-Xankəndi yolunun boşaldılması, hava limanının ələ keçirilməsi idi. Bunun üçünsə Xocalı bir gecənin içərisində yerlə yeksan edildi, xocalılılar süngülərə taxıldı... Bütün bu

dəhşətlərdən dünya xalqlarının xəbəri olsa da, cinayətkarlar cəzalandırılmadı. Bəşəriyyət hələ də susur, yaxud saxta erməni soyqırımından danışılır, müzakirələr aparılır...

Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biri olan Xocalı qətliamı Xatın, Xirosima, Lidsa, Oradur soyqırımları ilə eyni dərəcədə qəbul edilir. 1991-ci ilin oktyabrından mühasirə şəraitində olan Xocalıya əsas nəqliyyat xətti havadan idi. Sonuncu dəfə vertolyot 1992-ci il yanvarın 28-də bu istiqamətə uçub. Şuşa səmasında həmin vertolyotun ermənilər tərəfindən vurulması nəticəsində 40 nəfərin faciəli şəkildə həlak olmasından sonra Xocalı havadan da mühasirəyə alınıb. Şəhərə yanvar ayının 2-dən elektrik enerjisi verilməyib. Xocalının müdafiəsi əsasən yerli özünümüdafiə dəstəsi və Milli Ordunun təlim keçmədən ön cəbhəyə yollanan əsgərləri tərəfindən həyata keçirilib.

Xocalıya hücum fevralın 25-də axşam Sovet ordusunun 366-cı motoatıcı alayının hərbi texnikasının döyüş mövqelərinə çıxması və toplardan, tanklardan, "Alazan" tipli "zenit"lərdən açılan 2 saatlıq atəşdən sonra başlanıb. Şəhərə üç istiqamətdən hücum edildiyi üçün əhali Əsgəran tərəfə qaçmağa məcbur olub. Amma bu, qurulmuş bir tələ olduğundan Naxçıvanik kəndi yaxınlığında dinc əhalinin qarşısı erməni silahlıları tərəfindən kəsilərək güllələbarana tutulub. Qarlı dağ aşırımlarında və meşələrdə onlar tamamilə əldən-ayaqdan düşənləri, şaxta donduranları, sağ qalanları xüsusi qəddarlıqla qətlə yetiriblər. Dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilən 200 azərbaycanlının meyiti gətirildiyi barədə məlumatlar verilib, həmin cəsədlərin amansızcasına təhqirə məruz qalması faktları aşkar edilib.

Fevral ayının 28-də tərkibində yerli jurnalistlərdən olan 2 qrup vertolyotla azərbaycanlıların qətlə yetirildikləri yerə çatıb. Oradakı mənzərə hamını dəhşətə gətirib. Meyitlərin skalplarının götürülməsi, cəsədlərin qulaq, burun və digər orqanlarının kəsilməsi, gözlərinin oyularaq çıxarılması, bədən əzələlərinin kəsilməsi, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılmalar və digər belə vəhşiliklər bir daha ermənilərin vandalizm siyasəti yeritdiyini təsdiqləyirdi.

Həmin qanlı-qırğınlı günlərdə xocalıl

ılar yalnız qətlə yetirilmədilər. Onlardan 1275-i (qoca, qadın və uşaq) isə əsir aparılaraq dəhşətli təhqir, zülm və həqarətlərə məruz qalıb, min nəfər isə əlil və şikəst olub.

BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu, beynəlxalq norma və prinsiplər əsasında həlli, işğal edilmiş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında hələ 1993-cü ildə dalbadal 822, 853, 874, 884 saylı qətnamələr qəbul edib. Lakin Ermənistan nəinki həmin rəsmi qərarlara məhəl qoymayıb, üstəlik, Azərbaycanın digər ərazilərini də zəbt edərək oradakı soydaşlarımızı məcburi köçkünə çevirməklə bu çirkin siyasətindən əl çəkməyib, o yerlərdəki tarixi, dini və mədəniyyət abidələrinin izini belə silib.

Bu qətliamı törədən ermənilər isə vəhşiliklərindən sanki öyünürmüşlər kimi danışırdılar. Qarabağ hadisələrinin iştirakçışı, erməni ideoloqlarından olan Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında 1992-ci il fevralın 26-da Xocalıda törətdikləri soyqırımı haqqında belə yazır: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".

Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri, insan haqlarının kobudcasına pozulması beynəlxalq hüquqi aktlara - Cenevrə Konvensiyası, Ümumdünya İnsan Haqları Bəyannaməsi, Vətəndaş və siyasi hüquqlar barədə Beynəlxaq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə məhəl qoyulmamasıdır.

**Məhəmməd NƏRİMANOĞLU.**

**“Azərbaycan”.-**2013.-27 fevral.-N 45.-S.5.

## Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilmişdir

### Monteneqro

Monteneqronun paytaxtı Podqoritsa şəhərində fəaliyyət göstərən və ölkənin müxtəlif bölgələrindən tələbələrin təhsil aldığı Mehmet Fateh ali təhsil müəssisəsində Azərbaycanın Monteneqrodakı diplomatik nümayəndəliyi tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş geniş tədbir keçirilmişdir.

Diplomatik nümayəndəlikdən AzərTAc-a bildirmişlər ki, tədbirdə 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin yerlə-yeksan edildiyi, dinc əhalinin - uşaqların, qadınların, qocaların kütləvi qətliama məruz qaldığı, xüsusi amansızlıqla və vəhşiliklə qətlə yetirildiyi haqqında ətraflı məlumat verilmişdir. Dünyanın gözü qarşısında baş vermiş bu soyqırımına - Azərbaycan xalqına və bəşəriyyətə qarşı törədilmiş cinayətə beynəlxalq təşkilatların və digər xalqların biganə qalmamasına çağırış edilmiş və erməni millətçilərinin vəhşilikləri və Ermənistanın təcavüzkar siyasəti birmənalı şəkildə pislənilmişdir.

"Xocalıya ədalət" kampaniyası çərçivəsində həyata keçirilən petisiya haqqında geniş məlumat verilmişdir.

Sonra Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Xocalı soyqırımı" sənədli filmi nümayiş etdirilmişdir.

"İRS" jurnalının Xocalı soyqırımına həsr olunmuş xüsusi buraxılışının nüsxələri və Monteneqro dilinə tərcümə edilmiş "Xocalı soyqırımının 21-ci ildönümü münasibətilə Xocalı əhalisinin dünya xalqlarına, Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciəti" tədbir iştirakçılarına paylanmışdır.

Tədbir Monteneqronun "Atlas" televiziyasının xəbərlər proqramında və "Pobjeda" qəzetində işıqlandırılmışdır.

### Rumıniya

Fevralın 26-da Xocalı faciəsinin 21-ci ildönümü ilə bağlı Azərbaycanın Rumıniyadakı səfirliyində anma mərasimi keçirilmişdir.

Mərasimdə Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Rumıniya nümayəndəliyinin əməkdaşları, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri və idarə heyətinin, Azərbaycan-Rumıniya Mədəniyyət və Gənclər Assosiasiyasının və Rumıniya-Azərbaycan Sənaye və Ticarət Palatasının üzvləri, Rumıniyada yaşayan və təhsil alan azərbaycanlılar, İran azərbaycanlıları, azərbaycansevər rumınlar, türk-tatar icmalarının nümayəndələri iştirak etmişlər. Tədbir iştirakçıları Xocalıda qətlə yetirilmiş insanların xatirəsini bir dəqiqəlik sükutla yad etmiş, çıxış edənlər Azərbaycan xalqının tarix boyu erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmasından, öz tarixi torpaqlarından qovulmasından, qaçqın və məcburi köçkünə çevrilməsindən və bütün bunların ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmasından danışmışlar. Xocalı faciəsinin Azərbaycanın unudulmaz, dəhşətli və qanlı günlərindən olduğu vurğulanmış, soyqırımı qurbanlarının xatirəsinin bir sıra dünya ölkələrində anıldığı bildirilmişdir.

Daha sonra tədbir iştirakçılarına İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən irəli sürülən "Xocalıya ədalət" beynəlxalq kampaniyası haqqında məlumat verilmişdir. Vurğulanmışdır ki, beynəlxalq miqyasda, o cümlədən Rumıniyada Xocalı soyqırımı ilə bağlı həqiqətlərin təbliğ edilməsində diaspor üzvləri bundan sonra da aktiv fəaliyyət göstərəcəklər.

Xocalı soyqırımının, eləcə də işğal olunmuş Azərbaycan torpaqlarında törədilmiş erməni vəhşiliklərinin beynəlxalq aləmdə tanıdılması istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasətinin davamı kimi bu il Rumıniya parlamentində Xocalının insanlıq əleyhinə cinayət kimi qiymətləndirilməsinin vacib hadisə olduğu diqqətə çatdırılmışdır.

Qeyd etmək lazımdır ki, Rumıniya Avropa İttifaqı və NATO-nun üzvü olan ölkələri arasında Xocalı qırğınına qarşı parlament səviyyəsində dürüst mövqe nümayiş etdirən ilk ölkə olmuşdur. Belə ki, qanunvericilik orqanında etnik ayrı-seçkilik zəminində erməni silahlı qüvvələrinin Xocalıda törətdikləri amansız qətlin nəticələri açıqlanmış, münaqişənin həllində Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı və suverenliliyinə birmənalı dəstək bildirilmişdir. Avropada erməni diasporunun köklü və mütəşəkkil şəkildə fəaliyyət göstərdiyi ikinci ölkə olan Rumıniyada parlamentin bu mövqeyi qanunvericilik orqanında, eləcə də hökumətdə təmsil olunan erməni bürokratlara ən böyük zərbə olmuşdur.

Xocalı soyqırımı ilə bağlı səfirlik tərəfindən hazırlanmış məlumat Rumıniya parlamentinə, rəsmi dövlət orqanlarına, qeyri-hökumət təşkilatlarına, Rumıniyada fəaliyyət göstərən səfirlik və beynəlxalq təşkilatların nümayəndəliklərinə də göndərilmişdir.

**Böyük Britaniya**

Böyük Britaniyanın Şeffild şəhərində fəaliyyət göstərən Şeffild Azərbaycan Cəmiyyəti (SAS) Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirmişdir.

Təşkilatdan AzərTAc-a bildirmişlər ki, qurumun rəhbəri Cavid Məmmədzadənin təşəbbüsü ilə üç gün ərzində aksiyalar şəklində təşkil edilmiş tədbirlərdə müxtəlif ölkələrdən olan tələbələr iştirak etmişlər.

Tədbirlər çərçivəsində ümumilikdə 500-dən çox insana Xocalı haqqında maarifləndirici səciyyə daşıyan müvafiq materiallar, vəsaitlər təqdim edilmiş, əcnəbi iştirakçıların hər birinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında geniş şifahi məlumatlar verilmişdir. Mövcud təşəbbüs çərçivəsində eyni zamanda, SAS-in Xocalı faciəsi ilə bağlı video-çarxı nümayiş etdirilmişdir. Həmin çarxda müxtəlif ölkələrdən olan tələbələr "Justice for Khojaly" (Xocalıya ədalət) şüarına dəstək olduqlarını göstərmişlər.

SAS Xocalı faciəsi ilə bağlı hazırladığı məqaləni Şeffild Universitetinin iki min nəfərdən çox oxucusu olan qəzetinə təqdim etmişdir.

Şeffild Azərbaycan Cəmiyyətinin uğurla həyata keçirdiyi missiya nəticəsində yüzlərlə xarici tələbə Xocalı faciəsi zamanı törədilən vəhşiliklərdən xəbərdar olmuşlar.

Qurum rəhbərliyi bu işdə göstərdiyi dəstəyə görə Böyük Britaniyadakı "Odlar yurdu" cəmiyyətinə və Avropa-Azərbaycan Cəmiyyətinə təşəkkürünü bildirmişdir.

**Serbiya**

Azərbaycanın Serbiyadakı səfirliyində Xocalı soyqırımının 21-ci ildönümü ilə bağlı tədbir keçirilmişdir.

Səfirlikdən AzərTAc-a bildirmişlər ki, tədbirdə Belqradda fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin, Serbiya-Azərbaycan Ticarət-İqtisadi Palatasının, bu ölkədə yaşayan Azərbaycan icmasının üzvləri və təhsil alan tələbələrimiz, ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Səfirliyin müşaviri Qabil Köçərli erməni millətçilərinin vaxtaşırı dövlətimizə və xalqımıza qarşı ərazi iddiaları irəli sürərək həyata keçirdikləri cinayətlərindən danışmış, ermənilərin 1918-ci ildə Bakıda, Salyanda, Lənkəranda, Xaçmazda, Qubada, Şamaxıda və digər bölgələrdə törətdikləri qırğınlar, 1988-ci ildə Ermənistanda yaşayan soydaşlarımızın zorla ata-baba yurdlarından didərgin salınması, Dağlıq Qarabağ və ona bitişik yeddi rayonumuzun işğalı, Xocalı soyqırımı barədə ətraflı məlumat vermişdir. Qeyd edilmişdir ki, bu cinayətlər, eləcə də xalqımıza qarşı etnik təmizləmə siyasəti artıq Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Xocalı faciəsi Azərbaycan tarixində ən qanlı hadisələrdən biridir. Erməni silahlı dəstələri tərəfindən dinc əhali xüsusi qəddarlıqla qətlə yetirilmiş və əsir götürülən insanlar isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qalmışlar.

Tədbirdə həmçinin 2013-cü il fevralın 25-də Serbiya Parlamentinin Konstitusiya və Hüquq Məsələləri üzrə Komitəsinin sədri, Azərbaycan ilə Parlament dostluq qrupunun rəhbəri Vladimir Tsvianın təklif etdiyi və bu ölkənin parlamentinin gündəliyinə daxil edilmiş "Beynəlxalq hüquqa riayət olunması və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair qətnamə" layihəsi barədə məlumat verilmiş, onun mətninin Serbiya parlamentinin saytında yerləşdirildiyi bildirilmişdir. Qeyd edilmişdir ki, bu təşəbbüs Azərbaycan və Serbiya arasında təşəkkül tapmış dostluq və strateji tərəfdaşlıq münasibətlərinin bariz nümunəsidir.

Sonra Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Xocalı soyqırımı" sənədli filmi nümayiş etdirilmişdir.

Tədbir iştirakçıları Xocalı soyqırımının 21-ci ildönümü ilə əlaqədar Xocalı əhalisinin dünya xalqlarına, BMT, AŞ və ATƏT-ə müraciətinin mətni ilə tanış olmuşlar.

**İran**

Azərbaycanın İrandakı səfirliyində "Xocalıya ədalət" kampaniyası çərçivəsində anma mərasimi keçirilmişdir. Bununla əlaqədar səfirliyin qarşısında fəxri qarovul dəstəsi düzülmüş, faciə qurbanlarının xatirəsinə ehtiram olaraq müəssisə və təşkilatlardan əklillər gətirilmişdir.

İran ictimaiyyətinin nümayəndələrinin, ölkə rəsmilərinin, Tehran Universitetində təhsil alan yerli və Türkiyə, İran, Yaponiya, Pakistan, Suriya, İndoneziya, Seneqal və s. yerlərdən olan tələbələrin, paytaxtdakı beynəlxalq təşkilatların təmsilçilərinin iştirak etdikləri mərasim faciə qurbanlarının ruhuna "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlanmışdır.

Xocalı soyqırımı ilə bağlı sənədli filim nümayiş etdiriləndən sonra çıxışlar olmuşdur.

Səfirliyin ikinci katibi Tariyel İsmayılov, Tehran Universitetində təhsil alan pakistanlı tələbə Nasir İjaz, İran Avrasiya İnstitutunun Yazıçılar Birliyinin şura üzvü İlyas Vahidi, paytaxt sakinləri Əkbər Salehi və Həsən Rəşidi çıxışlarında Xocalı soyqırımının təkcə Azərbaycana deyil, bütün bəşəri dəyərlə və humanizm prinsiplərinə qarşı törədilmiş vandalizm aktı kimi qiymətləndirilmişdir. Qeyd olunmuşdur ki, bu cinayətə bütün dövlətlər və beynəlxalq təşkilatlar siyasi-hüquqi qiymət verməli, qanlı qətliamı törədənlər məsuliyyətə cəlb olunmalıdırlar.

İştirakçılara və çıxış edənlərə minnətdarlığını bildirən səfir Cavanşir Axundov qeyd etmişdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı soyqırımının törədilməsi erməni millətçilərinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri iki yüz illik təcavüzkar əməllərin davamıdır. Bu soyqırımı Ermənistan dövlətinin əsl simasını, onun terrorçu və təcavüzkar siyasətinin mahiyyətini ortaya qoymuşdur. Səfir əminliklə bildirmişdir ki, "Xocalıya ədalət" kampaniyası bu hərbi cinayətin beynəlxalq məhkəmələrdə öz həllini tapması ilə nəticələnəcəkdir.

İştirakçılara Xocalı soyqırımı, təcavüzkar Ermənistanın işğalçılıq siyasətinin Azərbaycanda törətdiyi ağır nəticələr, ölkəmizin tarixi və müasir inkişaf istiqamətləri barədə kitab, jurnal, DVD, CD və digər əyani vəsaitlər paylanmışdır.

**Liviya**

Azərbaycanın Liviyadakı səfirliyinin göstərdiyi səylərin və apardığı danışıqların nəticəsi olaraq fevralın 25-də Liviya İnsan Hüquqları Fondu Xocalı qətliamı ilə bağlı bəyanat yaymışdır.

Səfirlikdən AzərTAc-a bildirmişlər ki, bəyanatda deyilir: "Liviya İnsan Hüquqları Fondu bəyanat verərək bəşəriyyət tarixində ən dəhşətli hadisələrdən biri olan, 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər dinc azərbaycanlının qətlə yetirilməsi, 1275 nəfərin girov götürülməsi, 150 nəfərin taleyinin bu günə qədər bilinməməsi ilə nəticələnən 1992-ci ilin fevralın 26-da Azərbaycanın Xocalı şəhərində erməni qüvvələri tərəfindən insanlığa qarşı törədilmiş amansız, təcavüzkar, qeyri-əxlaqi cinayət əməlini qınayır və kəskin şəkildə pisləyir".

Bəyanatda həmçinin onun surətlərinin Liviya Ümummilli Konqresinə və Birləşmiş Millətlər Təşkilatına göndəriləcəyi qeyd olunmuşdur.

Qeyri-hökumət təşkilatı olan Liviya İnsan Hüquqları Fondu 2011-ci il noyabrın 11-də Tripoli şəhərində təsis edilmişdir.

**“Azərbaycan**”.-2013.-27 fevral.-N 45.-S.3.

## Dünya Xocalı soyqırımına biganə deyil

### «Xocalıya Ədalət» kampaniyası qondarma erməni soyqırımının 100 illiyini qeyd etməyə hazırlaşan erməni lobbisinin dişlərini sındırdı

**Dünya Xocalı gerçəklərilə üz-üzədir. 21 il öncə bütöv bir şəhərin, 613 insanın, 106 qadının, 63 uşağın, 8 ailənin məhv edilməsinə, 21-ci yüzilin zaman anlayışına sığmayan qətliamına, erməni vandalizminə beynəlxalq birlik susdu, dözüm nümayiş etdirdi. Amma tarix susmadı…**

Bu gün dünya Xocalıda insanlıq əleyhinə törədilmiş o cinayətləri ittiham edir, cinayətkarların cəzalandırılmasına çağırır. Beynəlxalq ictimaiyyət Xocalıya ədalət tələb edir.

2009-cu ildən Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanan bu kampaniya artıq öz coğrafiyası baxımından bütün planeti əhatə edir, Xocalını bütün dünyaya tanıtdırır.

Xocalı faciəsinin dünyaya tanıtdırılması istiqamətində aparılan uğurlu işlər artıq öz bəhrəsini verir.

Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edilən «Qarabağın tarixi haqqında məlumat», «Qarabağ münaqişəsinin başlanması», «Xocalı soyqırımı», «Azərbaycana qarşı erməni təcavüzünün nəticələri», «Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti» kitabçalarının elektron variantları hələ ötən il, Xocalı soyqırımının 20-ci ildönümündə təşkilatın təşəbbüsü ilə xarici ölkələrin diplomatik korpuslarına, beynəlxalq təşkilatlara, kütləvi informasiya vasitələrinə, tanınmış ictimai-siyasi xadimlərə göndərilmişdir. Bu təbliğat kampaniyası zəngin faktlara və fotosənədlərə əsaslanmaqla Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkarlıq və soyqırımı siyasətini bütün Avropaya çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb etdi.

«Xocalıya Ədalət» kampaniyası əslində Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində beynəlxalq səviyyədə yürütdüyü siyasəti bir növ tamamladı. Bu kampaniya torpaqlarımızı hələ də işğal altında saxlayan və beynəlxalq havadarlarının dəstəyilə təcavüzkar siyasətinin davam etdirən Ermənistan qarşı hücum diplomatiyasının ən vacib elementlərindən birinə çevrildi. O zamana qədər Azərbaycanın xarici siyasəti daha çox ölkəmizin Dağlıq Qarabağ məsələsində haqlı mövqeyinin müdafiəsinə yönəldirsə, 2009-cu ildən start verilən «Xocalıya Ədalət» kampaniyası artıq erməni təcavüzünün mahiyyətini dünyaya çatdırmağa imkan verdi.

Əlbəttə ki, Xocalı soyqırımının dünyada tanıdılması bir neçə ilin işi deyil. Bu istiqamətdə hələ uzun illər ərzində fəal iş aparmaq lazımdır. Ermənilər az qala 100 ildən bəri heç bir gerçəkliklərə söykənməyən, tamamilə uydurma və saxta soyqırım iddialarını dünyaya qəbul etdirməyə çalışırlar. Azərbaycan isə 21-ci yüzil insanının şahidlik etdiyi Xocalı soyqırımının tanıdılması istiqamətində cəmi bir neçə ildir ki, təbliğat aparır.

Hətta etiraf etməliyik ki, çoxlarımızın gözləmədiyi nəticələr əldə olunur.

2011-ci il dekabrın 20-də Meksika Konqresi Deputatlar Palatası, 2012-ci il fevralın 1-də Pakistan Senatı, 2012-ci il aprelin 23-də Kolumbiya Senatı Xocalı soyqırımını tanıdığını bəyan edib.

Xocalı soyqırımı artıq Avropa ölkələrinin parlamentlərində də müzakirəyə çıxarılır, siyasi sənədlər qəbul olunur. Belə ki, 2013-cü il fevralın 12-də Rumıniya parlamentində Demokrat Liberal Partiyası fraksiyası «Dağlıq Qarabağ münaqişəsi» adlı siyasi bəyanat yayıb. Bəyanatda Xocalı şəhərində azərbaycanlılara qarşı qırğın törədildiyi qeyd olunur, beynəlxalq ictimaiyyətə bu aktı insanlıq əleyhinə cinayət kimi tanımaq çağırışı ünvanlanıb.

Çexiya Respublikası isə Avropa İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlət olub. Ötən ayın 7-də Deputatlar Palatasının beynəlxalq əlaqələr komitəsi Xocalı şəhərində dinc insanların vəhşicəsinə qətlə yetirilməsi ilə törədilmiş qırğına görə Ermənistanı pisləyən qətnamə qəbul edib.

Ümumiyyətlə son illər Xocalı soyqırımına beynəlxalq aləmdə siyasi qiymət verilməsi məsələsində fəallıq ermənilər üçün gözlənilməz olub.

İslam Əməkdaşlıq Təşkilatı bu il fevralın 6-7-də Misirin paytaxtı Qahirədə keçirilən zirvə toplantısında Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı törədilmiş cinayət kimi rəsmən tanıdığını bəyan edib. Beləliklə də bu təşkilat Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyan ilk beynəlxalq təşkilat oldu.

Heydər Əliyev Fondunun dəstəyilə Amerika qitəsində aparılan uğurlu təbliğat kampaniyasının nəticələri təkcə Meksika Konqresinin Deputatlar Palatasının və Kolumbiya Senatının qəbul etdiyi qətnamələrlə məhdudlaşmadı.

Artıq Xocalı soyqırımının ABŞ-da tanınması istiqamətində də xeyli nailiyyətlər əldə olunub. Belə ki, Massaçusets ştatının Nümayəndələr Palatasının Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında 2010-cu il fevralın 25-də qəbul etdiyi qətnamənin ardınca 2011-ci il iyunun 11-də Texas ştatı Ermənistanın Xocalıda

çox ağır cinayət törətməsi faktını tanıdı. Xocalı soyqırımı barədə qətnamə qəbul edən ştatların sayı sonrakı illərdə də artdı. 2012-ci il fevralın 23-də Nyu-Cersi ştatı, daha sonra Corciya ştatı Xocalı qətliamı ilə bağlı qətnamə qəbul etdi. 2012-ci il martın 23-də Men ştatının Nümayəndələr Palatası Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar qətnamə çıxardı. 2013-cü il yanvarın 28-də Nyu-Meksiko ştatının əvvəlcə Senatı, sonra isə Nümayəndələr Palatası Xocalı soyqırmını tanıdı. Bunun ardınca Arkanzas ştatının Nümayəndələr Palatası fevralın 8-də, Senatı isə fevralın 11-də Xocalı soyqırımına dair qətnamələr qəbul edib. Artıq İndoneziya parlamenti də Xocalı soyqırımını tanıyan qətnamə qəbul etməyə hazırlaşır.

Ən nəhayət bu ilin martın 4-də ABŞ-ın Oklahoma ştatı Senatının birinci sessiyasında Xocalı qətliamının tanınması barədə qətnamə qəbul edilib. Qətnamənin mətnində Dağlıq Qarabağ münaqişəsindən və Azərbaycanın Xocalı şəhərinin keçmiş SSRİ-nin hərbi alayının köməyi ilə erməni silahlı qüvvələri tərəfindən işğal edilməsindən, bu şəhərin 600-dən çox dinc sakininin qətlə yetirilməsindən danışılır.

Qətnamə ABŞ Konqresinə, Dövlət Departamentinə və ABŞ-ın Azərbaycandakı səfirliyinə göndərilib. Azərbaycanın hücum taktikası təkcə beynəlxalq qınaqlarla üzləşən Ermənistanı deyil, onun işğalçı siyasətini dəstəkləyən erməni lobbisini də əndişələndirməyə başlayıb. Məsələn, ABŞ-dakı erməni diasporasını narahat edən təkcə ştatların bir-birinin ardınca Xocalı soyqırımını tanıyan qətnamələr qəbul etməsi faktı deyil, həm də bu kampaniya çərçivəsində Birləşmiş Ştatlardakı yəhudi lobbisinin Azərbaycana dəstək verməsidir.

Məsələn, ABŞ-dakı yəhudi icmasının bütün ştatlar üzrə on üç mindən çox nümayəndəsinin iştirak etdiyi ən nüfuzlu və genişmiqyaslı sonuncu toplantısında — İllik Siyasi Konfransda Azərbaycanla bağlı müzakirələrin keçirilməsi, burada Dağlıq Qarabağ məsələsində ölkəmizin haqlı mövqeyinin müdafiə olunması erməni lobbisinin dərin məyusluğuna səbəb olmuşdur.

Erməni diasporu ilə Ermənistan hakimiyyəti arasında uçurumun getdikcə dərinləşməsində, mövqe ayrılıqlarının İrəvanda siyasi hakimiyyət uğrunda mübarizə səviyyəsinədək gəlib çatmasında Azərbaycanın beynəlxalq səviyyədə səfərbər etdiyi hücum diplomatiyasının rolu danılmazdır. Ermənistan hakimiyyəti diasporanı Azərbaycanın apardığı kampaniyanın qarşısını almaqda həvəssiz olmaqda, Ermənistanın maraqlarını ifadə edə bilməməkdə suçlamaqdan belə çəkinmir. Öz növbəsində erməni diasporu Ermənistan rəhbərliyini öz mənafelərini güdməkdə və ölkəni Rusiyanın maraqlarının poliqonuna çevirməklə təcrid etməkdə ittihamlayır.

Bu gün faktiki olaraq erməni diplomatiyası Azərbaycanın apardığı kampaniyanın qarşısında acizlik nümayiş etdirir, erməni diasporsının fəaliyyətində son 100 ildə müşahidə olunan aktivlik sezilmir.

«Xocalıya Ədalət» kampaniyası belə demək mümkünsə, son 20 ildə Ermənistanın təcavüzkar siyasətinə beynəlxalq səviyyədə dəstək verən erməni diasporunu müdafiə mövqeyinə çəkilməyə məcbur edib, rəsmi İrəvana əvvəlki illərdə göstərdiyi hamilik imkanlarını minimuma endirib. Bu, Azərbaycan diplomatiyasını kifayət qədər mühüm dəstəkdən məhrum edən Ermənistana qarşı daha effektiv nəticələr əldə etməyə imkan verir. İki mühüm cəbhədə, həm də ən geniş coğrafiyada Ermənistanın küncə sıxışdırılması Azərbaycan rəhbərliyinin seçdiyi uğurlu taktiki seçimdir. Elə bunun nəticəsidir ki, Azərbaycan beynəlxalq səviyyədə özünün haqlı mövqeyini daha qətiyyətlə müdafiə edir, Ermənistanın yeni avantürist hərəkətlərinin qarşısını alır. Ermənistanın Xocalı hava limanının istifadədən imtina etməsi də bu taktiki hücumun effektiv nəticəsidir.

Daha bir əhəmiyyətli məqam erməni lobbisinin qondarma «erməni soyqırımının» 100 illiyi ilə bağlı beynəlxalq səviyyədə hazırlığı hələ ki təşkil edə bilməməsidir. Başqa sözlə, bu istiqamətdə erməni diasporasının əvvəlki illərdən fərqli passivliyi diqqətdən yayınmır. Əlbəttə ki, bu, Türkiyə ilə münasibətləri normallaşdırmağa sövq edilən Ermənistanın «soyqırım» kartından imtina etməsi anlamına gəlməməlidir.

Burada daha çox beynəlxalq ictimaiyyəti «soyqırım» yalanlarına inandırmağa çalışan erməni lobbisinin artıq dünya ölkələrinin tanımağa başladığı 21-ci yüzilin Xocalı soyqırımı ilə üzləşməsi faktoru diqqətə alınmalıdır.

Bu cinayətə görə ittihamlara, qınaqlara, beynəlxalq ictimaiyyətin çağırışlarına cavab verə bilməyən arqumentsiz yalanlar gerçəklər qarşısında keçərsizdir. Bu gerçəklər «erməni lobbisinin gücü» haqqında on illər boyu hakim olan mifi sındırmaqdadır.

«Xocalıya Ədalət» tarixin 100 illik qaranlıq səhifələrinin də üzərinə işıq salır, Türkiyəyə qarşı yönələn qaralama kampaniyasının mahiyyətini ortaya qoyur. Qondarma erməni soyqırımını inkara görə cinayət məsuliyyəti nəzərdə tutan qanun layihəsini növbəti dəfə müzakirəyə çıxarmağa hazırlaşan Fransa parlamentində baş vermiş rəzalət də bunu sübut edir.

**Ülviyyə Şamilqızı**

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim olunur**

**"Xalq Cəbhəsi".-**2013.-8 mart.-N 44.-S.5.

## Xocalı faciəsi azərbaycanlılara qarşı soyqırımın davamı kimi

**Artıq dünya "erməni soyqırımı" nağılına inanmır. İndi dünya ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımını tanımağa başlayıb. Hətta erməni diasporu və lobbisinin beşiyi sayılan ABŞ-da da erməni yalanlarına inanmırlar. Belə ki, ermənilərin bir əsrə yaxındır ki, apardığı qondarma erməni soyqırımı iddiaları amerikalıların özləri tərəfindən nağıl adlandırılır.**

1915-ci ildə Osmanlı dövlətinin erməniləri soyqırıma məruz qoyduğunu iddia edənlər əslində özləri türklərə qarşı soyqırım cinayətləri törədib. Hələ 1915-ci il hadisələrindən öncə 1905-1906-cı illərdə ermənilər Bakı, Qarabağ, Naxçıvan və Zəngəzurda Azərbaycan türklərinə qarşı kütləvi qırğınlar törədiblər. Ermənilərin törətdikləri bu əməl davamlı şəkildə baş verib. Belə ki, 1918-ci ilin mart-aprel aylarında ermənilər Qarabağ, Bakı, Şamaxı, Quba, İrəvan, Naxçıvan və Zəngəzurda, o cümlədən Güney Azərbaycanda Azərbaycan türklərinə qarşı soyqırım törədiblər. O zaman Bakı şəhərində baş vermiş hadisələrlə bağlı yaradılmış istintaq komissiyasının topladığı materiallardan da görünür ki, ermənilərin niyyəti türk-müsəlman əhalisini tamamilə məhv etmək olub. Çox maraqlıdır ki, istintaqa ifadə verən şahidlər əsasən digər millətlərin nümayəndəsi olub ki, onlar da ermənilərin təkcə türk-müsəlman əhalisini öldürdüklərini bildiriblər. Bütün bunlar isə milli, dini bir qrupun məhv edilməsi niyyəti və törədilən əməl kimi soyqırım cinayəti sayılır.

Sonrakı dövrdə isə azərbaycanlıların öz tarixi yurdları olan Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində repressiyalara, deportasiyaya məruz qaldılar. Belə ki, 1920-1930-cu illərdə Ermənistanda azərbaycanlılara qarşı repressiyalar baş verdi. Sonrakı dönəmlərdə - 1948-1953, 1988-1989-cu illərdə isə azərbaycanlılar Ermənistandan deportasiya edildilər.

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım siyasəti XX əsrin sonlarında da davam etdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Azərbaycanın Xocalı şəhəri işğal edildi və etnik azərbaycanlılara qarşı soyqırım törədildi. Bir günün içərisində şəhər yer üzündən silindi və şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü xüsusi qəddarlıqla qətlə yetirildi, 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.

Xocalı soyqırımı 200 ilə yaxındır ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımın və etnik siyasətin tərkib hissəsidir. Artıq dünyanın bir neçə ölkəsi Xocalı faciəsinə siyasi qiymət verib.

Qeyd edək ki, Xocalı faciəsini tanıyan dövlətlərin, o cümlədən ABŞ-ın 8 ştatının qətnamələrində daha çox "Xocalı qətliamı" sözünə rast gəlirik. Dünya mətbuatı da bu termindən istifadə etməyə üstünlük verir. Eyni zamanda bu hadisəni insanlıq əleyhinə cinayət kimi də qeyd edirlər. Əslində isə bu hadisə soyqırım cinayəti kimi tanınmalıdır. Çünki bu nə müharibə, nə təcavüz, nə insanlıq əleyhinə cinayətdir, bu bilavasitə soyqırım cinayəti kimi qiymətləndirilməlidir. Soyqırım isə beynəlxalq cinayətlərin ən ağırıdır. Beynəlxalq hüquq sahəsi üzrə mütəxəssislər də hesab edir ki, ermənilərin Xocalıda törətdiyi əməl soyqırım cinayətidir və bu əmələ görə Ermənistan dövləti də beynəlxalq-hüquqi məsuliyyət daşıyır.

Hüquq elmləri doktoru, professor Əmir Əliyev hesab edir ki, Ermənistan silahlı qüvvələrinin Rusiyanın 366-cı motoatıcı alayının köməkliyi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərini işğal etməsi adi işğal faktı deyil. Onun sözlərinə görə, Xocalıda törədilənlər soyqırım cinayəti kimi xarakterizə edilməlidir: "Ona görə ki, 1948-ci il "Genosid cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya var. Bu konvensiyaya əsasən soyqırım cinayəti hər hansı milli, etnik, irqi və ya dini qrupu bir qrup kimi tamamilə və ya qismən məhv etmək niyyəti ilə törədilən bir əməldir. Soyqırım üçün ən əhəmiyyətli ünsür spesifik niyyətin olmasıdır. Bu soyqırım ermənilərin özləri tərəfindən də etiraf edilir. Ermənistanın hazırkı rəhbəri, Xocalı soyqırımın törədliməsinə birbaşa iştirakçı olmuş Serj Sərkisyan müsahibəsində özü etiraf edir ki, azərbaycanlılar heç vaxt bilməzdilər ki, biz mülki əhaliyə qarşı belə bir plan həyata keçirərik. Digər ermənilər də öz əsərlərində kifayət qədər insanları qətlə yetirdiklərini, onlara amansız divan tutduqlarını yazıblar. Məsələn, Zori Balayan özünün "Ruhun dirçəlişi" kitabında bunları etiraf edir".

Ə.Əliyev bildirdi ki, Xocalı şəhərinin yerlə-yeksan olunması, 613 nəfərin qətlə yetirilməsi və bütövlükdə onlara qarşı amansız divan tutulması bir daha ermənilərin Azərbaycan xalqına qarşı tarixən törətdikləri vəhşiliklərin davamıdır: "Törədilən bu cinayət beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır. Kobud şəkildə pozulma ondan ibarətdir ki, 1948-ci ildə qəbul olunmuş Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında beynəlxalq Konvensiya, 1949-cu ildə qəbul edilmiş 4 Cenevrə Konvensiyası, eyni zamanda mədəni obyektlərin mühafizəsi ilə başlı kifayət qədər qəbul edilmiş sənədlər ermənilər və onların havadarları tərəfindən ayaq altında qalıb. Bu gün ermənilərin törətdiyi cinayət təkcə müharibə cinayətləri ilə bitmir. Söhbət ekoloji cinayətdən də, mədəni obyektlərin məhv ilə bağlı cinayətlərdən də gedir. Bütövlükdə Xocalı soyqırımı digər beynəlxalq cinayətlərlə də bağlıdır".

Hüquq elmləri doktoru, professor Rüstəm Məmmədov isə bildirdi ki, soyqırım siyasəti öldürülən insanların sayı ilə hesabalanmamalıdır. Onun sözlərinə görə, 1948-ci il Konvensiyasında soyqırımın konkret əməllər hesabına baş verməsi nəzərdə tutulur: "Say əsas deyil. Əsas onun motividir, fəaliyyət və tətbiqolunma metodudur. Ona görə də soyqırımını Ruanda, Kamboca, alman faşistlərinin II Dünya müharibəsində yəhudilərə qarşı törətdiyi soyqırım səviyyəsində yanaşı qoyardım. Təbii ki, bu cinayətlərin sayı çoxdur. Lakin Xocalı soyqırımı onların içərisində bir növ xüsusilə fərqlənir. Yəni dünyanın demokratiyaya qədəm basdığı, inkişaf etdiyi bir dövrdə insan haqlarının yüksək səviyyəyə qaldırıldığı bir zəmanədə belə bir cinayətin baş verməsi, özü də mülki əhaliyə, köməksiz insanlara qarşı baş verməsi, bu, sadəcə olaraq cinayət deyil. Bu, bəşəriyyətə qarşı edilən addımdır, bəşəriyyətin alçaldılması, bəşəriyyətə qarşı hörmətsizlikdir".

R.Məmmədov hesab edir ki, Xocalı ilə bağlı hərbi tribunal yaradılmalıdır: "İnanıram ki, nə vaxtsa olacaq. Bu, mütləq olmalıdır. Çünki belə cinayətlər qiymətsiz keçərsə, onun qarşısı alınmazsa, bu cinayətlər davam edəcək. Özü də erməni qəsbkarları bu işdə öndə olacaq. Çox qəribə də olsa, bunu dünya qüvvələri görə-görə onlar bundan yan keçməyə çalışırlar. Biz müxtəlif ölkələrdə Xocalı soyqırımını sübut etməkdə davam edirik. Lakin bu mübarizədə Azərbaycan tək qalmamalıdır. Buna dünyanın müxtəlif qüvvələri, xüsusilə də türk dövlətləri Azərbaycana dəstək verməlidir. Mən bu cinayəti törədənlərə ölüm şüarını irəli sürürəm. İstərdim ki, onlar öz cəzalarını alsın, bu cinayət öz qiymətini tapsın və Azərbaycan xalqının başına gətirilən bu müsibətlərin əks-sədası dünyaya səpələnsin", - deyə R.Məmmədov bildirdi.

Beynəlxalq cinayət hüququ üzrə mütəxəssis Rahim Məmmədov isə bildirdi ki, Xocalı soyqırımını beynəlxalq cinayət kimi tanınması üçün kifayət qədər normativ sənədlər var. O, buna misal kimi, Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanı, Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər məcəlləsinin 17-ci maddəsini, Ruanda və Yuqaslaviya beynəlxalq cinayət tribunallarının Nizamnamələrinin 3-cü və 4-cü maddələrini, Cinayət Məcəlləsinin 103-cü maddəsini, eyni zamanda Azərbaycan Respublikası prezidentinin azərbaycanlılara qarşı soyqırımla bağlı 26 mart 1998-ci ildə verdiyi fərmanını göstərdi: "Beynəlxalq cinayətlər içərisində ən dəhşətlisi soyqırımdır. Ona görə ki, soyqırım bütöv bir insan qrupunun yaşamaq hüququnu tanımamaq, ondan imtina etmək deməkdir. 2007-ci ildə hərbi prokurorluq Xocalı soyqırımı ilə bağlı təqsirli bilinən şəxslərin cinayət məsuliyyətinə cəlb edilib cəzalandırmasına dair qərar qəbul edib, 26 nəfər barəsində axtarış elan olunub, 282 nəfərin barəsində isə təqsirləndirilən şəxs qismində cəlbetmə barədə qərar qəbul edilib. İnterpolun Milli Mərkəzi Bürosu onlar barədə axtarış elan etsə də, cinayətkarlar tutulub Azərbaycana verilmir".

Hüquq elmləri doktoru Əfsər Sadıqov isə bildirdi ki, Xocalı soyqırımına BMT Beynəlxalq Məhkəməsi çərçivəsində hüquqi qiymət verilməsinə nail olmalıyıq. Onun sözlərinə görə, BMT Beynəlxalq Məhkəməsi beynəlxalq hüququn istənilən məsələsinə hüquqi qiymət vermək səlahiyyətinə malikdir: "Bu gün müəyyən səbəblərdən BMT Təhlükəsizlik Şurası çərçivəsində bu məsələyə qiymət vermək imkanına malik deyilik. Perspektiv planda hərbi tribunalın qurulması mümkün ola bilər. Amma bu gün real vəziyyətdə BMT Beynəlxalq Məhkəməsində məsələyə baxıla bilər. Bu da iki yolla baş verə bilər. Məlumdur ki, Azərbaycan BMT Beynəlxalq Məhkəməsinin yurisdiksiyasını tanımır. Yalnız bu yurudiksiyanı tanıyan və mövqeyi bizə yaxın olan dövlətlərdən, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərdən xahiş edə, onlarla əməkdaşlıq edə bilərik ki, bu məsələyə baxılsın. İkinci bir halda isə Beynəlxalq Məhkəmənin yurisdiksiyasını "ad hoc" qaydada tanımalıyıq. Bu halda beynəlxalq çərçivədə Xocalı soyqırımı ilə bağlı məsələyə qiymət verilməsinə nail olmalıyıq. Bunun da hüquqi əhəmiyyəti olmasa da, daha çox siyasi əhəmiyyət kəsb edəcək. Siyasi əhəmiyyət də gələcəkdə hüquqi nəticənin yaranmasına gətirib çıxara bilər. Bu mənada bu məsələ dövlətimizin qarşısında prioritet bir məsələ olmalıdır".

Hüquqşünas Firuzə Abbasova isə hesab edir ki, Xocalı soyqırımına görə nəinki fiziki şəxslər, bütövlükdə Ermənistan dövlətinin özü təqsirləndirilməlidir. "Konkret halda Xocalı soyqırımı ilə bağlı ayrı-ayrı fiziki şəxslərlə yanaşı məhz Ermənistan dövlətinin də genosid törətməsi barədə sübut mexanizmi yalnız və yalnız oxşar tarixi hadisələrə verilən hüquqi qiymətlərlə müəyyənləşməlidir. Bu gün bizim əlimizdə olduqca dəyərli bir sənəd - Nürünberq prosesini aparmış beynəlxalq hərbi tribunalın hökmü var. Orada faşist Almaniyasının bir sıra vəzifəli şəxsləri cəzaya məhkum edilməklə bərabər SS, Gestapo və Nasist Partiyasının cinayətkar təşkilat kimi tanınması barədə hökm çıxarılıb və bu hökmlə faktiki olaraq faşist partiyasının hakimiyyətdə olduğu dövrdə dövlət tərəfindən Avropa yəhudilərinə qarşı genosid törədilməsi qənaətinə gəlinib. Bu hal Xocalı soyqırımının Ermənistan dövləti tərəfindən törədilməsinin sübutu mexanizminin hüquqi əsası kimi çıxış edə bilər", - deyə F.Abbasova bildirdi.

Xocalı soyqırımı milli mənlik qüruru olan hər bir azərbaycanlının ürəyində bir yaradır. Bu yara o vaxt qaysaqlana bilər ki, bu cinayəti törətmiş erməni quldurları layiqli cəzasını alsınlar, Ermənistan dövləti isə soyqırım törətmiş dövlət kimi tanınsın.

**Aqil ASLAN**
Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət
Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün

**“Ekspress”.-**2013.-8 mart.-№ 44.-S.14.

## Xocalı soyqırımı ilə bağlı həqiqətlər dünya arenasında

**Sürətlə inkişaf edən Azərbaycan, beynəlxalq arenada böyük nüfuz sahibinə çevrilməklə yanaşı, qlobal geosiyasi məkanda cərəyan edən proseslərə, çevik və adekvat reaksiyası ilə də diqqəti öz üzərinə cəlb etmişdir. Təsadüfi deyildir ki, dünyada ardıcıl olaraq sülh və tərəqqi siyasəti yürüdən ölkəmiz, bu gün qlobal enerji təhlükəsizliyi sisteminin əsasında dayanan və regional təhlükəsizliyə mühüm töhfələr verən ölkə kimi də önəmli bir ad qazanmışdır.**

Sevindirici haldır ki, hazırda ölkənin müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə, milli maraqların təmin olunmasına və beynəlxalq arenadakı nüfuz və təsir gücünün artırılmasına istiqamətlənmiş diplomatik və diaspora fəaliyyəti dolğun və dinamik bir şəkildə uğurla davam etdirilir.

Digər tərəfdən əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan xarici siyasət kursu da müəyyən prioritetlərin reallaşdırılması ilə bərabər möhkəm və dəyişməzliyi ilə də səciyyələnməkdədir.

Əfsuslar olsun ki, bütün bunlara baxmayaraq Azərbaycan hələ də işğal olunmuş torpaqlarının azad olunmaması, ona qarşı yürüdülən ikili standartlar və bu kimi haqsızlıqlara dayanan bir sıra mövqelər səbəbindən əziyyət çəkir. Bu gün ölkə gündəmini daha çox narahat edən və siyasilərin aktiv şəkildə fəaliyyətinə səbəb olan əsas məsələ, sözsüz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi və onunla daha çox bağlı olan məsələlərdir. Hansı ki, bu məsələlərin həlli ilə bağlı ictimaiyyətin bütün təbəqələrinin mövqeyi demək olar ki, bir mərkəzdə cəmlənmişdir.

Təsadüfi deyildir ki, ölkə Prezidenti Cənab İlham Əliyev də sentyabrın 21-də Bakıda ölkənin diplomatik xidmət orqanları rəhbərlərinin dördüncü müşavirəsindəki nitqində demişdir: "Xarici siyasətlə bağlı ölkə qarşısında duran əsas vəzifə, əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bu, bizim nəinki xarici siyasətdə, ümumiyyətlə, ölkə qarşısında duran əsas məsələdir. Bildiyiniz kimi, məsələ uzun illərdir öz həllini tapmır, ədalət, və beynəlxalq hüquq normaları pozulur və bu ədalətsizlik davam etdirilir. Azərbaycan bu məsələnin həlli üçün bütün imkanlardan istifadə edir və etməlidir. Diplomatik səylər gücləndirilməlidir və gücləndirilir. Digər amillər də bu məsələnin həlli üçün öz rolunu oynamalıdır və bu istiqamətdə önəmli addımlar atılmalıdır...".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi, ərazilərimizin erməni silahlı birləşmələri tərəfindən işğalı və bu münaqişə nəticəsində doğma yurdlarından didərgin düşmüş yüz minlərlə soydaşımızın üzləşdikləri çətinlikləri daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Fondu Xocalı həqiqətlərinin dünyaya çatdırılması, qətliama obyektiv qiymətin verilməsi istiqamətində də uğurlu addımlar ataraq, reallaşdırmış olduğu tədbirlərdə "Xocalı soyqırımı" ilə bağlı filmlər, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində faciə haqqında dərc edilmiş materiallar, habelə fondun mütəmadi şəkildə ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsindən ibarət ekspozisiyalar ilə problemin dünya ictimaiyyətinə çatdırılması baxımdan müstəsna əmək sərf etmişdir.

Məhz bunun nəticəsidir ki, fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilmiş "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqələrinin əsərləri, fotoşəkillər və əl işlərindən ibarət sərgilər dünyanın bir sıra qabaqcıl ölkə ictimaiyyətində XX əsrin ən böyük faciəsi və onun acı gerçəkləri ilə bağlı dolğun təsəvvürlər formalaşdırmışdır. Məhz bunun nəticəsidir ki, bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatları və aparıcı dövlətləri bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsil mahiyyətini getdikcə daha çox anlayaraq, təcavüzkarla təcavüzə məruz qalanı daha yaxşı tanımağa başlamışdır.

Qeyd edə bilərik ki, fondun təşəbbüsü və dəstəyi ilə 2007-ci il fevralın 26-da Brüsseldə təşkil olunan "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi, 2008-ci il fevralın 14-də Berlində keçirilmiş "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" adlı elmi konfrans, habelə 2010, 2011, 2012-ci illərdə və bu il ərzində faciənin ildönümü ərəfəsində Xocalı həqiqətlərinin 100-dən çox ölkəsində qeyd olunması, soyqırımı həqiqətlərinin beynəlxalq aləmə çatdırılması baxımdan son dərəcə əhəmiyyətli addımlardan olmuşdur.

Vurğulamaq lazımdır ki, Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ münaqişəsinin əsil səbəbkarları, o cümlədən, Xocalı soyqırımı haqqında dünya birliyində aydın təsəvvürün formalaşdırılması baxımından Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ilə yanaşı, fondun vitse-prezidenti Leyla xanım Əliyevanın da xüsusi və əvəzedilməz xidmətləri olmuşdur. Belə ki, Xocalı həqiqətlərinin dünyaya bəyan edilməsi üçün 2008-ci il mayın 8-də İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumunun (DƏGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyası təsis edilmişdir ki, hazırda bu kampaniya çərçivəsində də 80-dən çox ölkədə

yüzlərlə könüllünün iştirakı ilə erməni vəhşilikləri zəminində baş verən Xocalı həqiqətləri bütün dünya ictimaiyyətinə duyurulmaqdadır.

Beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı ilə əlaqədar məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi, habelə hüquqi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin daim anılmasına nail olmağı qarşıya məqsəd olaraq irəli sürən kampaniya, artıq bu istiqamətdə bir sıra nailiyyətlərə də imza atmışdır. Belə ki, İstanbulda İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə hələ 2008-ci ilin mayın 17-də keçirilmiş İKGT ekspertlərinin ikigünlük iclasında, kampaniyanın fəaliyyəti dəstəklənərək, 26 fevralın, quruma üzv dövlətlər tərəfindən -Xocalı soyqırımı və humanitar fəlakət qurbanlarının xatirəsinin anım günü kimi qeyd olunması haqda mühüm qərar qəbul olunmuşdur.

Məlumat üçün onu da bildirək ki, Xocalı soyqırımının dünya ölkələri tərəfindən tanıdılması prosesinin sürətlənməsi və bu kampaniyaya getdikcə daha çox insanın qatılacağı proqnozlaşdırılmaqdadır. Belə ki, prosesə dövlət səviyyəsində də dəstəyin verilməsi aparılan işlərin effektli və səmərəli olması baxımdan mühüm önəm kəsb etməkdədir. Xatırladaq ki, Xocalı soyqırımın 20 illiyi öncəsi Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Xocalı soyqırımının hər il anım mərasiminin yüksək səviyyədə keçirilməsi ilə bağlı mətbuata vermiş olduğu açıqlamada bu məsələnin ölkə Prezidenti tərəfindən sanksiyalaşdırıldığına diqqət çəkərək, müvafiq tədbirlərin ölkə ilə yanaşı, xaricdə də mütəşəkkil qaydada keçiriləcəyini bildirmişdir. Sitat: "Bir ucu Asiya ölkələri, bir ucu Avropa, bir ucu Amerika qitəsi ölkələrində - demək olar ki, Azərbaycan səfirliklərinin, diasporunun təmsil olunduğu, xarici siyasətimizin əli çatan bütün ölkələrdə, bütün dairələrdə tədbirləri sistemli şəkildə keçirmək və həmin ölkələrin ictimai dairələrinin diqqətini bu faciəyə, o vəhşilikləri törədənlərə cəlb etməkdə fikrimiz qətidir. Bundan başqa, Azərbaycan hökuməti harada mümkündürsə, Xocalı faciəsinin həmin ölkələrin parlamentində və digər qanunverici orqanlarında tanıdılması istiqamətində də ciddi addımlar atır və atacaqdır. Bu iş sistemli şəkildə aparılır. Bu il biz həm dünyada fəaliyyət göstərən diaspor təşkilatlarımızın, həmçinin "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Leyla Əliyevanın sədrliyi ilə həyata keçirilən tədbirlərin effektivliyinin, Heydər Əliyev Fondunun və digər təşkilatların neçə illərdən bəri gerçəkləşdirdiyi tədbirlərinin təsirliyinin artırılması istiqamətində vahid proqram əsasında işlər həyata keçiririk. Düşünürük ki, yaxın müddətdə bunun nəticələrini həm Azərbaycan, həm də dünya ictimaiyyəti görəcək. Bu il biz Xocalı soyqırımının dünya ictimaiyyətinə tanıdılması, bu faciənin günahkarlarının ifşa edilməsi istiqamətində, sözün həqiqi mənasında, ciddi nailiyyətlər əldə edəcəyik".

Əslində, bir il bundan öncə deyilən bu sözlər 2013-cü il üçün, sözün həqiqi mənasında, özünü doğrultmuşdur ki, bu da statistik rəqəmlərdə özünü daha çox büruzə verməkdədir. Nümunə üçün bildirək ki, əgər 2010-2011-ci illər ərzində bu qətliamı 3 ABŞ ştatı qəbul etmişdirsə, son iki il ərzində bu siyahıya 10 ABŞ ştatı - Nyu-Cersi (2012-ci il fevralın 23), Corciya (2012-ci il fevralın 28), Men (2012-ci il martın 23), Nyu-Meksiko (2013-cü il yanvarın 28), Arkanzas (2013-cü il fevralın 8), Missisipi (2013-cü il fevralın 25), Oklahoma (2013-cü il martın 4), Tennessi (2013-cü il martın 18), Pensilvaniya (2013-cü il martın 20) və Vest Virginia (2013-cü il aprelin 3) ştatları da əlavə olunmuşdur.

Bu günə qədər isə bu soyqırımı aktını tanıması ilə bağlı təkcə iki il ərzində 6 dövlət- Pakistan (2012-ci il fevralın 1), Meksika (2012-ci il fevralın 2), Kolumbiya (2012-ci il aprelin 24), Rumıniya (2013-cü il fevralın 12), Çexiya (2013-cü il fevralın 19), və Bosniya və Herseqovina (2013-cü il fevralın 26) dövlətləri tanımışdırlar.

**Ərəstun.**

**“Səs”.-**2013.-1 iyun.-N 99.-S.12.

# Sarayevoda "Xocalıdan Srebrenitsaya: Soyqırımı və etnik təmizləmənin qarşısının alınması" mövzusunda beynəlxalq simpozium işə başlamışdır

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə iyulun 10-da Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda "Xocalıdan Srebrenitsaya: Soyqırımı və etnik təmizləmənin qarşısının alınması" mövzusunda beynəlxalq simpozium işə başlamışdır.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən (DQİDK) bildirmişlər ki, simpozium "Xocalıya Ədalət" beynəlxalq kampaniyası çərçivəsində, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏ-İKGF) və EMISCO tərəfindən, DQİDK-nın, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun, Azərbaycanın Bosniya və Herseqovinadakı səfirliyinin və TİKA-nın dəstəyi ilə təşkil edilmişdir.

Simpoziumda Avropanın 15-dən artıq ölkəsini təmsil edən nüfuzlu qeyri-hökumət təşkilatlarının nümayəndələri, Bosniya ictimaiyyətinin və burada akkreditə olunmuş diplomatik korpus təmsilçiləri iştirak edirlər.

Tədbirdən əvvəl iştirakçılar Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə salınmış Bosniya və Herseqovina-Azərbaycan dostluq parkındakı Xocalı və Srebrenitsa qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər.

İştirakçılar, həmçinin DQİDK sədri Elşad İsgəndərov və Noviqrad şəhərinin meri Semir Efendiç tərəfindən Sarayevonun mərkəzindəki Bristol otelində açılmış "Xocalıdan Srebrenitsaya" adlı foto və rəsm sərgisi ilə tanış olmuşlar.

Sərgidə rəssam Nazim Məmmədovun Xocalı qətliamını əks etdirən rəsm əsərləri nümayiş olunmuşdur.

Simpoziumun açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, DƏ-İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın tədbir iştirakçılarına müraciəti oxunmuşdur. Müraciətdə Srebrenitsa və Xocalı soyqırımları arasındakı oxşarlıqdan söhbət açılmışdır. Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən layiqli hüquqi-siyasi qiymətini almamasından doğan cəzasızlığın Srebrenitsa, Ruanda və s. kimi soyqırımı cinayətlərinə rəvac verdiyi, cinayətkarların ədalət məhkəməsinə cəlb olunmaları və belə cinayətlərin təkrarlanmaması üçün birgə fəaliyyətin vacibliyi xüsusilə vurğulanmışdır.

DQİDK-nın sədri və DƏ-İKGF-nin baş katibi Elşad İsgəndərov, Avropa Şurası yanında Qeyri-hökumət Təşkilatları Konfransının prezidenti Jan Mari Heydt, Noviqrad şəhərinin meri Semir Efendiç, EMISCO-nun təmsilçisi Veysəl Filiz, TİKA-nın Bosniyada və Herseqovinadakı əlaqələndiricisi Zülküf Oruc çıxış edərək Srebrenitsa qətliamının 18-ci ildönümü ərəfəsində keçirilən tədbirin əhəmiyyətini vurğulamışlar. Natiqlər bildirmişlər ki, belə tədbirlər zamanı dünyada baş vermiş bütün soyqırımlarının qurbanları üçün ədalətin tələb edilməsi, beynəlxalq ictimaiyyət tərəfindən Xocalıda törədilmiş vəhşiliklərin cinayətkarlarının ədalət məhkəməsinə cəlb edilməsi beynəlxalq hüququn qorunması baxımından müstəsna əhəmiyyətə malikdir.

Açılış mərasiminin sonunda simpozium iştirakçılarına avropalı kinematoqrafçılar tərəfindən çəkilmiş və Xocalıya həsr olunmuş "Sonu olmayan dəhliz" sənədli filmi nümayiş etdirilmişdir.

XX əsrdə baş verən qətliamlar arasındakı əlaqələrin ilk dəfə kompleks şəkildə təhlil edildiyi simpoziumun ən mühüm cəhəti onun bəşəriyyət tarixində qara ləkə olan soyqırımı faktlarının yenidən dəyərləndirilməsi, eləcə də belə cinayətlərin qarşısının alınması üçün zəruri praktiki mexanizmlərin və nəzəri prinsiplərin müzakirə edildiyi bir platforma olaraq düşünülməsidir. Gün ərzində davam edəcək simpoziumun sonunda iştirakçılar tərəfindən səsləndirilən fikirlərin sistemləşdirilərək birgə bəyannamə şəklində imzalanması və sənədin beynəlxalq təşkilatlara təqdim olunması nəzərdə tutulmuşdur.

Tədbirin nəticəsi olaraq iyulun 11-də - Srebrenitsa soyqırımının ildönümü günündə "Xocalıdan Srebrenitsaya" adlı foto və rəsm sərgisi Sarayevo şəhərinin mərkəzi Marşal Tito meydanında bir həftə ərzində nümayiş etdiriləcəkdir.

Tədbir yerli və xarici mətbuat tərəfindən geniş işıqlandırılır.

Qeyd edək ki, "Xocalıya Ədalət" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası 2008-ci il mayın 8-də İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması və Xocalı faciəsinə beynəlxalq aləm tərəfindən ədalətli siyasi-hüquqi qiymətin verilməsi məqsədilə təsis edilmişdir.

**"Xalq qəzeti".-**2013.-11 iyul.-N 149.-S.5.

## İsraildəki Azərbaycan diasporunun Xocalı soyqırımın təbliğində uğurlu fəaliyyəti

Yaxın Şərq regionunda Azərbaycan diasporunun ən fəal olduğu ölkələrdən biri də İsraildir. İsraildə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarından olan İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası yarandığı gündən Azərbaycan haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində davamlı olaraq çalışır.

Məlumat üçün qeyd edək ki, İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası 2007-ci ilin aprelində Təl-Əviv şəhərində təsis olunmuşdur. İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının təsis qurultayında İsrail Baş nazirinin müavini, strateji planlaşdırma naziri Aviqdor Liberman, turizm naziri İsax Aranovic, nəqliyyat naziri Şaul Mofaz, bu ölkənin bir sıra tanınmış ictimai xadimləri, Türkiyədən bu ölkənin İsraildəki səfiri Mehmet Tan, Mərmərə Sosial-Siyasi Araşdırmalar Vəqfinin prezidenti Akkan Suverin başçılığı ilə nümayəndə heyəti, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Qurultaya Birləşmiş Ştatlar, İsveçrə, Ukrayna, Rusiya, Moldova, Özbəkistan və digər ölkələrdəki yəhudi icmalarının nümayəndələri qatılmışlar. Qurultayda İsrailin 26 şəhərində yaşayan 30 minə yaxın Azərbaycandan köçmüş yəhudini təmsil edən 30 Azərbaycan icması tərəfindən seçilmiş 408 nəfər nümayəndə iştirak etmişdir. Təşkilatın nəzdində müxtəlif sahələr üzrə 12 komitə fəaliyyət göstərir. Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının ilk qurultayında qurumun sədri postuna İsrail Parlamentinin deputatı İosif Şaqal seçilmişdi.

Yuxarıda qeyd etdiyimiz kimi İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının fəaliyyəti dövründə əsas diqqət yetirdiyi məsələ Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ problemi və Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətindəki çalışmalar olub. Ötən müddət ərzində assosiasiya İsraildə Xocalı soyqırımının tanıdılması məqsədilə bir sıra aksiyalar, kütləvi tədbirlər həyata keçirib. Soyqırımın tanıdılması məqsədilə İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası bir müddət əvvəl daha bir aksiyaya start verib. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyası çərçivəsində təşkil edilən müxtəlif təbliğat tədbirlərinə getdikcə maraq da artır və həmin tədbirlər tədricən öz nəticələrini də verməkdədir. Belə ki, 2013-cü ilin fevral ayından "Xocalıya ədalət" kampaniyası çərçivəsində açılmış fotosərgi öz fəaliyyətini İsrailin ən böyük şəhərlərindən biri olan Tel-Əvivdəki "Neve-Eliezer" Mədəniyyət Sarayında davam etdirilir. Qeyd edək ki, bu fotosərgi Heydər Əliyev Fondu, Dağ Yəhudilərinin Beynəlxalq Xeyriyyəçilik Fondunun dəstəyilə İsrail-Azərbaycan(Azİz) Beynəlxalq Assosiasiyası tərəfindən təşkil olunub. "Xocalıya Ədalət" kampaniyası çərçivəsində keçirilən tədbir "Justice for Khojaly" sənədli fotosərgisinin nümayişi ilə başlayıb. 1992-ci ilin fevralında Azərbaycan şəhəri Xocalıda baş vermiş soyqırımı hadisələrini əks etdirən sərgi iştirakçılarda dərin təəssürat oyadıb. Xatirə kitabında öz təəssüratlarını Tel-Əviv şəhər merinin müavini Arnon Gilyadi, Şəhər İctimai Şurasının sədri Yelena Yufit, Rusdilli İsraillilər Federasiyasının Tel-Əviv bölməsinin rəhbəri İlya Levin, Tel-Əviv sakini, Azərbaycanın xalq artisti Dina Tumarkina, professor Mixail Aqarunov və digərləri yazıblar. Xocalı soyqırımı ilə bağlı iştirakçıları beynəlxalq münasibətlər üzrə ekspert, İsrail-Azərbaycan (Azİz) Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin üzvü Arye Qut təfərrüatı ilə bilgiləndirib və soyqırımına işıq salıb. Xocalı soyqırımının təfərrüatlarından danışan ekspert qeyd edib ki, soyqırım ilə bağlı ortada olan faktlar Xocalının dinc sakinlərinin qətlə yetirilməsi, onların kütləvi məhv edilməsi məqsədi daşıdığını sübut edir. Bu da məhz onların azərbaycanlı olması səbəbindən baş verib: "Xocalı şəhəri növbəti işğal faktı və Azərbaycan ərazilərinin etnik təmizlənməsinin növbəti mərhələsi kimi götürülüb, şokedici qəddarlıqla törədilərək əhali arasında panika və dəhşət yaymağa xidmət edib. Günahsız uşaqlara, qadınlara və qocalara qarşı bu barbar qəddarlığı heç bir izaha yer qoymur". Arye Qut bildirib ki, Xocalıda azərbaycanlı əhalinin qırılması qeyri-iradi olaraq nasistlərin Lidiçdə, Oradurda, Xatunda törətdikləri vəhşilikləri yada salır: "Nə qədər ki, Dağlıq Qarabağ və ətrafındakı ərazilər Ermənistanın işğalı altında qalır, Azərbaycanın bu müqəddəs torpaqları işğalçılardan azad olunmayıb və azərbaycanlı qaçqınlar doğma yurdlarına dönməyib, hər birimiz İsraildə Azərbaycan diasporunun nümayəndəsi kimi dünya ictimaiyyətinə erməni təcavüzü, onun ən ağır izləri və ədalətin bərpa olunması barədə həqiqətləri çatdıracağıq".

Tel-Əviv şəhər merinin müavini Arnon Gilyadi, Şəhər İctimai Şurasının sədri Yelena Yufit, Rusdilli İsraillilər Federasiyasının Təl-Əviv bölməsinin rəhbəri İlya Levin tədbirdə çıxış edərək tədbirin təşkilatçı və dəstəkçilərinə təşəkkürlərini bildiriblər. Onlar qeyd ediblər ki, Azərbaycan xalqının qanlı qırğınından və dəhşətli faciəsindən şoka düşüblər: "Fotosərgi sadəcə məni sarsıtdı, mən burada gördüklərimdən şok yaşadım. Bu Azərbaycan xalqına qarşı vəhşilik və qəddarlıq təzahürüdür. Mən Belarusda anadan olmuşam və 1943-ci ilin yazında Xatın Belarus kəndin faşistlər tərəfindən məhv edilməsi tarixini çox gözəl bilirəm. Bu gün bu dəhşətli

fotosərgini görəndə və bu faciə haqqında dolğun məlumat alandan sonra anladım ki Xatın və Xocalı bizim iki xalqlarımızın qanlı və unudulmaz faciələridir."

İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının ("AZİZ") baş direktoru Lev Spivak bütün iştirakçılara Xocalıya həsr olunmuş tədbirdə iştiraka görə təşəkkürünü bildirib. Spivak Təl-Əviv şəhər meriyasının nümayəndələrinə, Azərbaycan icmasına daimi diqqətə görə minnətdarlığını bildirib.

**“Olaylar”.-**2013.-26-28 oktyabr.-№193.-S.15.